200 dövlət təşkilatını birləşdirən müasir dünya təsərrüfatı özündə qarşılıqlı əlaqələrin asimmetrik olduğu dinamik dünyanı əks edir, lakin ölkələrin müxtəlif qrupları əməkdaşlığa bərabər şəraitdə və eyni dərəcədə cəlb olunmur.

Avropa İttifaqından başlayaraq reqionalizm siyasəti bizə “müxtəlif sürətli” dövlətlərin inkişafı anlayışını verdi. Bu o deməkdir ki XX əsrin sonunda ETT-nin inkişafı şəraitində eyni iqtisadi mövqedə olan bir çox dövlət bir birindən uzaqlaşmağa, öz inkişafına görə müxtəlif ölkə qruplaşmalarının iştirakçısı olmağa başladı. İnkişaf tempində ziddiy-yətlərin artması kimi belə hadisə ayrı ayrı ölkələrin xarici iqtisadi siyasəti, həmdə məzmunu, dövlət blokları, həmdə dünya təsərrüfatının inkişafında bir çox xarici amillərlə əvvəlcədən müəyyən edilirdi. SSRİ-n süqutu, milli dövlətlərin qeyri hərbi ekspansiya metodlarının güclənməsi ziddiyyətlərin meydana gəlmə prosesini daha sürətli etdi, lakin onların sürət və keyfiyyəti olduqca müxtəlifdir.

Cənub şərqi Asya, orta Asya, MDB məkanı, baltikə yəni ölkələr misal ola bilər. Bütun bunlar onu göstərir ki, müasir dövrdə dünya arenasında iqtisadi qüvvələrin bu və ya digər balansı təkcə obyektiv şəraitlə deyil, həmdə məqsəd yönlü xarici iqtisadi siyasətlə xarakterizə olunur. Buna görə də qeyd etmək lazımdırki, son vaxtlar təbii-iqlim, iqtisadi və ölkənin digər maniələri kimi parametrlərə əsaslanan bir çox obyektiv proseslərin realizəsinə imkan vermir. Oxşar xarakterli və inkişaf səviyyəli bir çox ölkəni BƏB-də inteqrasiyanı müxtəlif ierarxiyalı səviyyələrinə cəlb etmək olar.

Yuxarıda qeyd olunanlar nəzərdə tuturki xarici iqtisadi siyasətə tam muxtar (müstəqil) məfhum kimi baxmaq məqsədə uyğundur, çünki müasir dövrdə təkcə ölkələr arası qarşıdurma deyil, xarici təsir amilinə çevrilən ictimai dəyişikliklərə səbəb olan amillərin, ocaqların, vasitələrin qarşıdurması mühümdür.

İqtisadiyyatın beynəlmilləşməsi dünyanın siyasi xəritəsini prinsipcə dəyişir, şəxsi milli maraqlarla yeni iqtisadi sərhədləri, strateji məqsədli areallar və inteqrasiya hadissələrinin sxemini yaradır. Sözsüz, belə bölgü mürəkkəb piramidaya səbəb olurki bu bölgüdə dünya təsərrüfatının informasiya və malliyə kredit strukturları xüsusən seçilir. Belə arenada xarici dunya ilə qarşılıqlı fəaliyyətin üsül və qaydaları, normalarının böyük arsenalı, bu ehtiyatların hərbi, bəzəndə diplomatik metodların iştirakı olmadan ustalıqla tətbiqi fəaliyyət göstərir. Əsas xarici iqtisadi siyasətə xidmət edən dövlət tədbirləri kompleksi növbəti məqsədlərin nail olunmasına, çatdırma üçün şəraitin yaradılmasına və dünya bazarlarında milli istehsal həllqələrinin fəaliyətinə kömək edir;

Qeyd etmək lazımdırki xarici iqtisadi siyasət göstərilən xarakterli funksiyaları yerinə yetirməklə ölkənin iqtisadi inkişaf modelində xüsusi rol oynayır: dəyişdirici (malın idxalı və ixracı, kapital, işçi qüvvəsi və.s sahəsində regionların, sahələrin inkişaf siyasəti), toplayıcı (bazarda nüfuzun saxlanması, xarici bazarların genişlənməsi), tarazlayıcı (ölkə bloklarının maraqlarına uyğun milli maraqlar). Bu nöqteyi nəzərdən xarici iqtisadi siyasət ayrı ayrı ölkələrin inkişaf modellərinin transfarmasiya yollarını toplamağa və ümumi dəyərləri (ölkədaxili zidiyyətləri aradan qaldırmaq, yeni iqtisadi mexanizmə uyğunlaşma, hazırkı mədəni mühüt özgəlik), həmdə siyasətin realizəsinin metodik yollarının xarakterini müəyyənləşdirməyə imkan verir. Baxmayaraq ki, iqtisadi təbiətdə möcüzənin çox mənzərələliyi (yapon, alman və.s), dəyərlərin istiqamətlənmə şkalası, xarici iqtisadi siyasətdə bu vəya digər vasitənin fəaliyyət göstərməsi baş verir əldə edilmiş nəticələrin tranformasiya yolu milli xüsüsiyətlərin siyasətin ümumi qəbul edilmiş elementləri və onların realizəsi mexanizmləri ilə əlaqələndirilməsinə imkan verir.

# Fəsil 2. Xarici iqtisadi əlaqələrin nəzəri və metodoloji əsasları.

## 2.1. Beynəlxalq iqtisadi əlaqələrin obyektiv zəruriliyi və nəzəri əsasları.

Beynəlxalq iqtisadi siyasət dedikdə, dövlətin beynəlxalq iqtisadi əlaqələr sahəsində xarici ticarət və istehsal axınının istiqamətinə təsir göstərərək ölkədəki bütün iqtisadi fəaliyyətlə bağlıdır. İqtisadi siyasətin iki istiqaməti – daxili və xarici siyasəti arasında sədd qoymaq qeyri mümkündü. Xarici iqtisadi siyasət əsasən, xarici ölkələrdə tədbirlər sisteminin məcmusu, maliyyə mənbələrinin yaradılması, tarif və qeyri-tarif tənzimləmələri, xarici yardım,  xarici kapital qoyuluşları və tədiyyə balansı anlayışını əhatə edən dövlətin aparıcı qoludur. İqtisadi nəzəriyyənin aparıcı baniləri haqlı olaraq sübut etmişlər ki, dünya iqtisadi sistemindən tədric olunmuş şəkildə heç bir dövlət sağlam ticarət apara bilməz.

Beynəlxalq ticarət ən qədim dövrlərdən yaransa da, xarıci ticarət anlayışı XV əsrdən merkantilistlər tərəfindən yaranaraq Avropada milli dövlətin iqtisadi siyasi prinsiplərini müəyyən edərək, merkantilizm ideyaları kimi özünü göstərmişdir. Avropa dövlətləri təxminən 300 ilə yaxın bu ideologiyanı əsas götürərək ölkərə mümkün qədər cox qızıl və gümüş gətirilməsini təmin etmək məqsədi ilə xarici ticarətin dövlət tərəfindən nizamlanması və himayəsi ideyasını müdafiə edirdilər. Merkantilistlər insanın gücünü “Milli sərvət” adlandırdıqları qızıl və gümüşdən ibarət dövlətdə  görürdülər.

Fransada təbiətin gücü adı altında meydana gələn fiziokratlar axını merkantilizmə qarşı çıxaraq, dəyərin mənşəyini tədavül sferasında deyil, istehsal sferasında axtarmağa başlamışlar. Fiziokratlar beynəlxalq ticarətin sərbəstliyini nəzərdə tutan – liberalizm anlayışının əsasını

qoyaraq klassik iqtisadi məktəbin yaranmasına şərait yaratdılar. Bu məktəbin yaradıcılarından olan Adam Smitt (1723-1790) həyatın özündə "görünməyən əl" və iqtisadi adam anlayışlarını əsaslandıraraq, sərvətin mənbəyini torpaqda, kənd təsərrüfatında, üstünlük prinsipini isə hansısa ölkədə digər ölkələrə görə daha məhsuldar istehsal edilməsində, beynəlxaq əmək bölgüsünün verdiyi səməréni isə yalnız sərbəst ticarətdə görürdü. Fiziokratlar məktəbi merkantilizm ilə mübarizədə inkişaf etmişdir.

Mütləq üstünlük nəzəriyyəsinin cavab verə bilmədiyi bir sira suallara D.Rikardonun (1819-1923) müqayisəli üstünlük nəzəriyyəsi cavablandırmışdı. Dünya ölkələri bir-biri ilə iqtisadi əlaqələrin müxtəlif formalarından istifadə edirlər.

Bu baxımdan iqtisadi fəaliyyətə dair müddəalar D.Rikardo tərəfindən işlənib, hazırlanmışdır;

1. İqtisadi resurslar-təbii, insan və sərmayə ehtiyatları ölkələr arasında qeyri-bərabər bölünmüşdür.
2. Müxtəlif əmtələrin səmərəli istehsalı texnologiya və resursların kombinasiyasını tələb edir.
3. Ölkələr arasında resursların mütəbərrikliyi aşağıdır.

Ona görə də, xarici ticarət resursların beynəlxalq mütəbərrikliyi əvəzləyicisi kimi ortaya çıxır.

Rikardoya görə hava və su həddən artıq faydalıdırlar qızılın hava və su ilə müqayisədə istehlak dəyəri çox azdır, lakin çox miqdarda başqa nemətlərə mübadilə olunur. Beləliklə, faydalılıq mübadilə dəyəri üçün nə qədər zəruri olsa da onun ölçüsü ola bilməz. Beləliklə, beynəlxalq ticarət nəzəriyyəsi öz başlanğıcını A.Smittdən və D.Rikardodan götürür.

Müasir dünyanın vəhdətini, dünya xalqlarının birliyini şərtləndirən amillər sırasına bəşəriyyəti narahat edən aşağıdakı qlobal problemləri aid etmək lazımdır.

1. Nüvə müharibəsinin qarşısının alınması

2. Zəif inkşaf etmiş ölkənin iqtisadi geriliyinin aradan qaldırılması.
3. Dünya enerji, ərzaq, xammal və demoqrafiya problemlərinin həlli.
4. Kosmos və dünya okeanı sərvətlərinin dinc məqsədlər üçün istifadə edilməsi.
5. Təhlükəli xəstəliklərin müalicəsi və aradan qaldırılması və s.

Bu məqsədlərin həyata keçirilməsi böyük iqtisadi biliklərin yaranmasına, məhsuldar qüvvələrin beynəlmilləşməsinə səbəb olur.

Xarici ticarətin nəzəri müddə alan dünya təcbübəsisınaqlarından keçmiş müasir ümümdünya təcrübəsində özünü tam subut etmişdir. Dünya ölkələrinin iqtisadi əlaqələrinin əsasını təşkil edən obyektiv meyarlarla qiymətləndirdikdə Azərbaycanın dünya iqtisadi inteqrasiyasına qovuşmasını şərtləndirən amilləri aşağıdakılara ayırmaq olar:

1.Coğrafi baxımdan Azərbaycanın torpaq iqlim şəraitinin əlverişliyi. Qərb və Şərq, Şimal və Cənub arasında əlaqələrin yaradılmasında Azərbaycan ərazisi mühüm rol oynayır. Azərbaycandan dünya ticarət və hava yollarına asanlıqla çıxmaq imkanları vardır. Xarici iqtisadi əlaqələrin inkişafı üçün yüksək səviyyədə inkişaf etmiş nəqliyyat və infrastruktura sistemi ticrət-iqtisadi əlaqələri səmərəli aparmaq üçün əlverişli şərait yaradır, xarici iqtisadi əlaqələrin yaradılması üçün əlavə xərclər tələb olunmur.

2.Respublikanın zəngin təbii xammal və əmək ehtiyatlarına malik olması.

3.İnvestisiya-kapital resurslarının məhdudlugu və çatışması.

4.Texniki-texnoloji potensialın aşağı olması və onlara kəskin ehtiyac olması.

5. Azərbayan iqtisadiyatının mövcud vəziyyəti eledir ki, ölkə əhalisinin bütün məhsul növlərinə olan ehdiyaclarını öz istesalı hesabına tımin etmık imkanına malik deyildir. Ona görə də xarici ticarətin Azərbaycanın iqtisadi inkişafında rolu böyükdür.

6. Müstəqil azərbaycanın siyasi durumu Azərbaycan dövlətinin müstəqilliyini qorumaq və möhkəmləndirmək zərurəti.

Azərbaycanın əldə etdiyi siyasi istiqlalı möhkəmlətmək üçün xarici ölkələrlə iqtisadi əməkdaşlıq həm siyasi həmdə iqtisadi cəhətdən çox vacibdir. Azərbaycanın dünya təsərrüfatının tərkib hissəsinə çevrilməklə, iki dövlətlərin maraq dairəsinə daxil olunur. Həmin ölkələr isə öz maraqlarıni təmin etmək üçün Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanılmasında maraqlıdır. Ümumdünya əmək bölgüsü və təsərrüfat həyatının beynəlilləşməsi prosesin obyektiv əsasları kimi, ölkələr arasında iqtisadi əlaqələri daima artır və genişləndirir.

Digər tərəfdən beynəlxalq iqtisadi əməkdaşlığın üstünlüklərindən istifadə edərək respublika öz iqtisadi problemlərini həll etmək imkanı qazanır.

## 2.2. Azərbaycanın dünya iqtisadi inteqrasiyasına qovuşması

İqtisadi inteqrasiya prosesi ilk növbədə təsərrüfat subyektlərinə (firmalara, idarələrə, təşkilatlara, müəssisələrə və s. təsərrüfat subyektlərinə) imkan verir ki, bütün region miqyasında iqtisadi resurslardan (maliyyə, maddi, əmək) yeni texnologiya və texnikadan istifadə etməklə iqtisadi inteqrasiyaya daxil olan dövlətlərin bazarlarının tələbatını ödəmək üçün məhsul istehsalını həyata keçirsinlər. İkincisi isə region miqyasında ölkələrin iqtisadi inkişaf səviyyələrinin birbirinə yaxınlaşması, yaranmış sosial problemlərin birgə həlli, əhalinin məşğuliyyəti, sosial təminatı və səhiyyənin gələcək inkişafı təmin edilsin. Valyuta ittifaqı isə müəyyən ölkələrin bir ittifaqda birləşməsidir. Buna misal olaraq, 1979-cu ildən fəaliyyət göstərən Avropa valyuta sistemini göstərmək olar. Dünya iqtisadi inteqrasiya prosesində iki meyl özünü göstərir: beynəlxalq yaxınlaşma; regional yaxınlaşma.

Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunmasında strateji valyuta-kredit siyasətinin düzgün seçilməsi və səmərəli xarici ticarət sisteminin formalaşmasında valyuta-maliyyə münasibətləri mühüm əhəmiyyət kəsb edir. Ölkənin milli təhlükəsizliyinin təmin edilməsi, tədiyyə balansının kəsrinin aradan qaldırılması, daxili istehsalın inkişafı və ixrac olunan malların xüsusilə emaledici sənaye məhsulları ixracının genişləndirilməsi Azərbaycanda həyata keçirilən valyuta-kredit siyasətinin əasa məqsədlərindəndir.

Ölkənin valyuta siyasəti əsasən dövlətin və cəmiyyətin maraqlarını qoruyaraq, milli iqtisadiyyatda – əmtəə və kapital bazarının mövcud vəziyyətini nəzərə almalı və  dünya böhrandan az təsirlənən dövlət kimi siyasi prinsiplərini qorumalıdır.

Azərbaycan ərazisinə görə də Zaqafqaziyada ən böyük dövlətdir. Ərazisi 86.6 min km2-dir. Ərazisinin 11.5%-i meşələr, 1.6%-i su hövzəsi, 50%-i becərilən torpaqlar, o cümlədən 27%-i otlaqlar, 36.9% sair torpaqlardır. Ölkə 420və 520 Şərq uzunluq sahəsi, 380 və 420 şimal en dairəsində, Bakı 400paralel üzərindədir. Bakıdan şimal qütbünə qədər olan məsafə 5550 km, ekvatora qədər olan məsafə isə 4440 km təşkil edir.

Azərbaycan respublikasında son illərdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri də məşğulluq sahəsindəki siyasətin formalaşdırılması və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir. Ölkədə əhalinin məşğulluq və işsizlik probleminin həll edilməsinin mühüm aspektlərindən biri də ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi strategiyasının həyata keçirilməsi ilə bağlıdır. Bu baxımdan Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici kapitalın ölkə əhalisinin məşğulluq və işsizlik problemlərinin həll edilməsindəki rolunun müəyyən edilməsi ən mühüm vəzifələrdən biridir.1996-cı ildən başlayaraq 2005-ci ilə kimi ölkədə fəaliyyət göstərən xarici investisiyalı və birgə müəssisələrdə məşğul olanların sayı 9,6 dəfə artaraq, 5,6 min

nəfərdən 53,9 min nəfərə çatmışdır. 2004cü ildə 2000-ci ilə nisbətən sənaye məhsulunun həcmi 22,1 faiz, kapital qoyuluşları 5,2 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 30,5 faiz, nəqliyyatda yük daşınmasının həcmi 1,5 dəfə artmışdır. 2000-2004-cü illərdə əhalinin real pul gəlirləri 1,5 dəfə, əhali tərəfindən əldə edilmiş pul gəlirlərinin nominal həcmi 1,7 dəfə artmışdır. 2000-ci ilə nisbətən 2004-cü ildə əhalinin əmək haqqı üzrə gəlirləri 1,7 dəfəyə yaxın artmışdır. Azərbaycanda yaradılan iqtisadi sabitlik və əlverişli iqtisadi şəraitdən məqsədyönlü istifadə edən yerli və xarici investorlar il ərzində sənayeyə 2003-cü ildəkindən 30,3 faiz çox və ya 19,6 trilyon manatlıq əsas kapitala investisiyalar yönəltmişlər.

Dünya təsərrüfatı XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmağa başlamışdır. Bu dövrdə istehsal və kapital təmərküzləşmiş və bu təmərküzləşmədən doğan inhisarlar meydana gəlmişdi; bank kapitalı ilə sənaye kapitalının qovuşması nəticəsində maliyyə kapitalı və maliyyə oliqarxiyası yaranmışdı; əmtəə ixracından fərqli olaraq kapital ixracı böyük əhəmiyyət kəsb edirdi. XIX əsrin sonlarında kapitalist ölkələrinin iqtisadi inkişafının başlıca xüsusiyyəti ayrı-ayrı müstəqil müəssisələrin azad rəqabətinə əsaslanan kapitalizmdən tədricən inhisarçı kapitalizmə keçilməsi ilə müəyyən olunurdu. XIX əsrin sonlarında dünya üzrə sənaye məhsulu istehsalı 3 dəfədən çox artmışdı.

Xarici iqtisadi siyasət umumi iqtisadi siyasətin tərkib hissəsidir və ölkədəki bütün iqtisadi fəaliyyətlə sıx bağlıdır. Xarici iqtisadi fəaliyyət sahəsində qəbul edilen qərarlar gündəlik həyatın bütün sahələrinə öz təsirini göstərir. Məs.: Beynəlxalq siyasəti məhdudlaşdıran hər hansı bir hökümət siyasəti qiymətlər vasitəsi ilə dərhal isteklakçıların vəziyətinə təsir göstərir. Müasir mərhələdə dövlətin iqtisadi siyasətində daxili və xarici iqtisadi siyasi bir-birindən ayırmaq mümkün deyil, çünki, göstərilən iki istiqamət bir-biri ilə sıx bağlıdır. Məs.: xarici iqtisadi siyasətin həyata keçirilmə vasitəsi milli pul və maliyyə siyasəti

beynəlxalq ticarətə və kapital qoyuluşlarına ciddi təsir göstərir və buna görə də ölkənin xarici iqtisadi əlaələri ilə qarşılıqlı əlaqədir.

Yaxud məşquliyyət sahəsində görülən tədbirlər ölkənin xarici iqtisadi əlaqələrində öz əksini tapır və əksinə beynəlxalq ticarət, xarici yardim, xarici kapital qoyuluşları və ödəniş balansı sahəsində qəbul edilən qərarlar milli gəlir artımı və bölgəsində müstəqilliyyət və qiymətlərin səviyyəsində öz əksini tapır.

## 2.3. Xarici iqtisadi siyasətin həyata keçirilməsi istiqamətləri

Azərbaycanda müstəqil dövlət quruculuğu vəzifələri iqtisadi siyasətin möhkəmləndirilməsi və təmin olunması, təhlükəsizliyin, ərazi bütövlüyünün və iqtisadi maraqların özünəməxsus xüsusiyyətlərlə, fərqlənən müxtəlif istiqamətli xarici siyasət yeridilməsini tələb edir. Ölkənin müstəqilliyinin dönməzliyinə nail olmaq, onu tədricən ənənəvi siyasi təsir dairəsindən çıxarmaq, tarixən formalaşmış xarici iqtisadi, siyasi və mədəni əlaqələrdən müstəqillik mənafeləri üçün səmərəli istifadə etmək, Şərqlə Qərb arasındakı münasibətlər sistemində Azərbaycanın özünə məxsus yer tutmasını təmin etmək üçün region dövlətlərinin köklü mənafelərinə və maraqlarına toxunmamaq şərtilə çoxşaxəli və tarazlaşdırılmış siyasət həyata keçirilir.

Xarici iqtisadi siyasət aşağıdakı istiqamətlərdə həyata keçirilir:

Xarici ticarət siyasəti
Ödəniş balansı siyasəti
Xarici investisiya siyasəti
Xarici yardım siyasəti

Xarici ticarət siyasəti dedikdə ölkənin xarici ticarətinin nizamlanmasına yönəldilmiş tədbirlər sisteminin məcmusu, xarici iqtisadi sayasətinin aparıcı sahələrindən biridir. Xarici ticarət siyasəti

geniş mənada maliyyə mənbələrinin yaradılması və istifadə olunmasına xidmat edir. Xarici ticarət siyasəti qarşıya qoyulan məqsəddən asılı olaraq iqtisadi mənbələrin yenidən böyüdülməsinə təsir göstərir.

Xarici ticarət siyasətinin əsas vasitəsi tarif və qeyri tarif tənzimlənmələridir. Burada yalnız xarici iqtisadi siyasətin tərkib hissəsi kimi ödəniş balansı siyasətinin ümumi cəhətlərinə diqqət getirir.

Ödəniş balansı siyasəti hökümətin ödəniş balansının müvanizətini təmin etmək üçün həyata keçirdiyi tədbirlərin məcmusudur.

Ödəniş balansının kəsirinin ödəmək üçün görülən tədbirləri qısa və uzun müddətli tədbirlərə bölmək olar. Qısa müddətli tədbirlərə bu kəsirli ödəmək üçün digər dövlətlərdən, beynəlxalq təşkilatlardan vəsait əldə əldə edilməsi və ya özünün malik olduğu tədbirlər daxildir. Uzun müddətli tədbirlərə isə aşağıdakılar daxildir:

1) Pul və maliyyə siyasətlərindən istifadə olunaraq iqtisadiyyatda devalvasiya (milli və ya beynəlxalq pul vahidi məzəndəsinin xarici valyuta ilə müqayisədə aşağı salınmasıdır) yaradılması yolu ilə ödəniş balansının kəsir verilməsini təmin etmək.

2) Milli valyutanı devalvasiya etmək.

3) Beynəlxalq iqtisadi fəaliyyətlər üzərinə valyuta nəzarəti qoymaq.

4) Xarici ticarət balansı kəsirlə bağlanırsa tarif dərəcələrini yüksəltmək və idxalda məhdudiyyətləri artırmaq, ixracın artırılması üçün tədbirlər görmək. Bu tədbirlərin hamısı birlikdə və yaxud hər biri ayrı-ayrı qəbul edilə bilər.

Ödəniş balansında müvazinət yaradılması məqsədi ilə yeridilən siyasət 250 illik tarixə malikdir. Lakin, keçən əsrin 30-cu illərinə qədər nəzəriyyə ödəniş balansının müvazinətinin sabit valyuta məzənnələrində dəyişiklik edilməsi yolu ilə çox bəsit bir yolla təmin edilməsini nəzərdə tuturdu. Şübhəsiz bu nəzəriyyə klassik rəqabət mexanizmi və qiymətlərin tam elastik olduğu ehtimalından doğurdu. Bazar iqtisadiy-

yatı sistemində işsizlik və infilasiya kimi çox ciddi problemlərin həlli üçün tam məşqulluq və qiymətlərin sabitliyinin təmin olunması aparılan iqtisadi siyasətin başlıca məqsədlərindən, ödəniş balansı siyasətinin mərkəzi problemlərindəndir. Çünki, ödəniş balansında bazarlığın pozulması gəlir, məşqulluq və qiymətlərin səviyyəsində əks olur. Ona görədə ödəniş balansı siyasətin istər ümumi iqtisadi siyasətin, istərsədə xarici siyasətin mühüm tərkib hissəsidir.

Xarici investisiya siyasəti uzun müddətli beynəlxalq kapital qoyuluşları özündə birbaşa xarici investisiyaları və uzun müddətli portfel qoyuluşlarını birləşdirir.

## 2.4. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin mahiyyəti

İqtisadiyyatın tənzimlənməsində dövlətin rolunu ön plana çıxaran və iqtisadi fikir tarixində Keyınsçi istiqamətinin əsasını təşkil edən ingilis iqtisadçısı C.M.Keyns 1936-cı ildə nəşr edilmiş «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» tədqiqat əsərində bu problemin əsasını qoymuşdur. Neoklassiklər kimi keynsçilər də bazar iqtisadiyyatının tərəfdarları kimi çıxış edirdilər. Onlar iqtisadiyyatı təşkil və koordinasiya edən, o cümlədən də istiqamətləndirən qüvvə kımi sərbəst qiymətlər mexanizmi, gəlirlər, tələb və təklif tarazlığında görürdülər. Amma bu mexanizmlərin qiymətləndirilməsi onların baxışlarını tamamilə yeni müstəvilərdə əsaslandırırdı. Məhz bu baxımdan keynsçilərin dövlətin iqtisadiyyatının idarə olunmasında, tənzimlənməsində, o cümlədən də ölkənin xarici iqtisadi əlaqələrinin tənzimlənməsində məqsədləri, rolu və inkişafı büsbütün dəyisir. Neoklassiklərin mikroiqtisadi yanaşmalarından fərqli olaraq keynsçilər iqtisadi həyatda

hadisə və meyllərin tədqiq olunmasında makroiqtisadi yanaşmaya üstünlük verirdilər.

XX əsrin 40-60 cı illərində Keynsin fikirlərini inkişaf etdirən onun tərəfdarları həm bazar, həmçinin də dövlət tərəfindən tənzimlənən və müasir ədəbiyyatlarda «keynsçi qarışıq iqtisadiyyat» adlandırılan iqtisadi sistemin dayanıqlı konsepsiyasını hazırladılar. Bu konsepsiya aşağıdakı əsas müddəaları özündə ehtiva edir: təbii bazar mexanizminin qiymətləndirilməsi və dövlətin iqtisadiyyata müdaxiləsinin səbəbləri; belə müdaxilənin məqsədlərinin müəyyənləşdirilməsi; iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodları, iqtisadi həyatın real gerçəklikləri dəfələrlə sübut etmişdir. Makroiqtisadi proseslərin dövlət tənzimlənməsi milli təsərrüfat kompleksinin işlənməsinin çox mühüm tərəfini özündə birləşdirir. XX əsr ərzində onun həyata keçirilməsinin prinsipləri və yolları dəyişmişdir. Belə ki, XX əsrin 30 - cu illərinə qədər bazar iqtisadiyyatlı ölkələrdə hətta dövlətin iqtisadi proseslərə müdaxiləsinin özü belə inkar edilirdi. Bu ideyanı klassik siyasi iqtisad məktəbi daha geniş müdafiə edirdi.

BİF-in dövlət tənzimlənməsi dedikdə beynəlxalq iqtisadi münasibətlərin qlobal kompleksinə milli iqtisadiyyatların səmərəli inteqrasiya olunması məqsədilə beynəlxalq təsərrüfat əlaqələrinin inkişafına istiqamətləndirilən tədbirlər sistemi başa düşülür.

Dövlət hər bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində həlledici rol oynayır. Dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudlarının müəyyən edilməsi, gözlənilməsi müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləş-dirilməsinin başlıca problemi hesab olunur.

Bütün iqtisadi sistemlərdə bazarın çatışmazlıqlarının aradan qaldırılması üçün dövlət iqtisadiyyata müdaxilə edir.

Ümumiyyətlə, bu çatışmazlıqlar–ictimai sərvətlərin, məhsulların istehsalında bazarın kifayət dərəcədə maraqlı olmaması, haqsız rəqabətin

olması, işsizlik, inflyasiya, makroiqtisadi qeyri-sabitlik, ölkə və regionlarının kəskin diferensiasiyası və sosial ədalətlilik probleminə bazarın biganə olması dövlətlərarası səviyyədə xarici ticarət əlaqələrinin tarazlığını pozur.

Dünya ölkələrinin təcrübəsinə görə, sırf bazar iqtisadiyyatı mövcud deyil və halhazırda milli iqtisadiyyatlar daha cox qarışıq bazar iqtisadiyyatı kimi fəaliyyət göstərir. İqtisadiyyatın dövlət tənzimlənməsi sistemində dövlət, dövlət orqanlarının simasında iqtisadi obyekt və proseslərə, onlarda iştirak edənlərə təsir göstərməklə, onları özünütəşkil və idarəolunan etməklə müvafiq olan qanunlarına riayət olunmasını, dövlət və ictimai maraqların qorunmasını təmin etməyə çalışır. İqtisadiyyatın poqnozlaşdırılması, planlaşdırılması, maliyyələşdirilməsi, büdcə təminatı, vergi qoyma, kreditləşmə, inzibatçılıq, uçot və nəzarət etmə kimi prinsiplər iqtisadiyyatın dövlət tənzimlənməsinə aid xüsusiyyətlərdir.

## 2.5. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin əsas istiqamətləri

İqtisadi siyasətin strukturunda dövlətin iqtisadiyyata maksimal həddi öz əksini - makroiqtisadi siyasət, pul-kredit siyasəti, büdcə-vergi siyasəti, investisiya siyasəti, konyuktur siyasət, struktur siyasət, sosial siyasət, regional siyasət, xarici iqtisadi siyasət istiqamətlərində göstərməkdədir. Bu istiqamətlər iqtisadi siyasətin dövlətin iqtisadiyyata maksimal təsirini əks etdirməklə, iqtisadi tənzimləmə mexanizmlərin vasitələri və metodlarını birləşdirərək dövlət tənzimlənməsinin əsas funksiyalarını – istiqamətləndirici, koordinasiyaedici, stimullaşdırıcı, nəzarətedici, sosial və s. kimi təsnifləşdirərək aşağıdakı ardıcıllıqla qruplaşdırmaq olar:

- qanunvericiliyin formalaşdırılması;

- milli iqtisadiyyatın təhlükəsizliyinin təmini və xarici təhlükələrdən müdafiə;
- makro-iqtisadi sabitliyin təmini və mümkün qədər inflyasiyaya yol verməmək, milli valyutanın sabitliyini təmin etmək;
- institusional islahatların həyata keçirilməsi; ictimai xidmətlərin göstərilməsi; sosial baxımdan zəif əhali təbəqəsinin müdafiəsi və təminatı;
- təbiətin qorunması və ekoloji təhlükəsizliyin təmini; iqtisadiyyatın strukturunda səmərəli dəyişikliklər edilməsi;
- bazar qusurlarının, çatışmazlıqlarının aradan qaldırılması və ya qarşısının alınması;
- dövlət sahibkarlığı müəssisələrininin idarə edilməsi.

Ölkənin xarici iqtisadi fəaliyyəti müvafiq olaraq dövlətin xarici iqtisadi siyasəti vasitəsilə reallaşdırılır. Bu siyasətin səmərəli reallaşdırılması dövlətin xarici iqtisadi fəaliyyət sahəsində görəcəyi tədbirlər sisteminin müəyyənləşdirilməsini və bütünlükdə xarici iqtisadi əlaqələrinin strukturunun təhlilini tələb edir. Xarici iqtisadi əlaqələr struktur meyarına görə aşağıdakı istiqamətlərdə reallaşdırılır:

1) Xarici ticarət sahəsində - ixrac və idxal əməliyyatları, barter əməliyyatları.

2) Xidmət və informasiya sahəsində - turizm, konsaltinq, injinerinq, reinjinerinq, françayzinq vəs.

3) Maliyyə sahəsində – bank fəaliyyətlərini vəqarşılıqlı əməkdaşlığın təşkili, valyuta mübadiləsi, kreditləşmə, maliyyə ehtiyatlarının idarə olunması və mübadiləsi və s.

4) İnvestisiya sahəsində - xarici investisiyaların ölkəyə gətirilməsi daxili investisiyaları ixracı və s.

Xarici ticarət fəaliyyəti, eyni zamanda əmtəələrin, xidmətlərin, işlərin, intellektual yaradıcılığın beynəlxalq mübadiləsi sahibkarlıq fəaliyyəti formasında da həyata keçirilir. Dövlətin həyata keçirdiyi

xarici ticarət siyasəti ölkənin xarici iqtisadi fəaliyyətdə seçdiyi istiqamətdən asılı olaraq reallaşdırılır. Bu fəaliyyəti reallaşdırmaq üçün dövlət liberal və yaxud himayədar siyasəti yolunu seçə bilər.

Dövlət xarici iqtisadi fəaliyyəti tənzimləmək üçün – gömrük, qeyri-tarif, ixraca nəzarət, əmtəələrə inhisarçılığın təyin olunması; daxili bazarı qorumaq üçün müdafiə tədbirlərinin həyata keçirilməsi vasitələrinlən istifadə edir.

Gömrük – tarif tənzimlənməsi, xarici ticarətin fəaliyyətində gömrük tariflərinin tətbiq edilməsi idxal və ixracın istiqamətlərinin dəyişməsi tədbirlərini əhatə edərək, idxalçı və ixracatçıların maraqlarına təsir göstərir. Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə müstəqillik əldə etdikdən sonra 30 yanvar 1992-ci ildə dövlətçiliyin mühüm atributlarından biri olan Dövlət Gömrük Komitəsi yaradıldı. Ölkəmizin seçdiyi dövlət quruluşu və inkişaf istiqamətləri iqtisadiyyatımızı xarici müdaxilənin zərərli təsirlərindən qorumağa, milli istehsalı müdafiə etməyə qadir olan və bütövlükdə ölkənin iqtisadi təhlükəsizliyin təmin edə biləcək orqanın yaradılmasını, ilk növbədə təsis edilməli olan dövlət idarəetmə sisteminin aparıcı elementlərindən birinin təşkilini, labüdləşdirdi. Gömrük işinin əhəmiyyətini haqqında xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin banisi və memarı Heydər Əliyevin fikrini qeyd edək: "...Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsi işində sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ola, biliyi ilə yanaşı, maddi texniki bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da sizin vəzifənizdir..." (Azərbaycan" qəzeti, 31 yanvar 1997-ci il). Heydər Əliyevin dövlət başçısı kimi gömrük siyasəti sahəsindəki fəaliyyətini iki mərhələyə bölmək olar:

1. 1969-1987-ci illəri əhatə edən sovet dönəmi;

2. 1993-2003-cü illəri əhatə edən müstəqillik illər.

Qeyri-tarif tənzimləmə metodları dedikdə bəyəmnamələrin tətbiqi, kvotaların tətbiqi (ölkəyə gətirilən və yaxud çıxarılan məhsulların həcminə məhdudiyyətlərin qoyulması), lisenziyalaşdırma, veterinar, sanitar-gigiyenik, texniki standartların və s.-nin tətbiqi nəzərdə tutulur.

Daxili bazarı qorumaq üçün müdafiə tədbirlərinin həyata keçirilməsi (antidempinq, kompensəedici, xüsusi gömrük tariflərinin tətbiqi) – xüsusi, əlavə gömrük rüsumun növüdür, dövlətin iqtisadi maraqlarının mühafizəsinə xidmət edir; ölkənin gömrük ərazisinə ixracat ölkəsindəki normal dəyərdən yaxud orta dünya qiymətlərindən aşağı qiymətə idxal olunan mallar üzərinə idxalat ölkəsi istehsalçılarının mənafeyini mühafizə etmək, onlara maddi ziyan vurulmaması, oxşar malların istehsalının təşkili və genişləndirilməsi məqsədi ilə tətbiq olunur. QATT 1967-ci ildə antidempinq məcəlləsi qəbul etmişdir. Bütün ölkələr öz qanunlarını ona uyğunlaşdırır. Daxili bazarın qorunması üçün spesifik, antidempinq və kompensəedici gömrük rüsumları formasında həyata keçirilir. Spesifik vergilər, adətən daxili istehsalçılar üçün təhlükə yarada biləcək həcmdə ölkəyə məhsul gətirdikdə tətbiq olunur. Antidempinq gömrük rüsumları gətirilən məhsulun qiymətinin süni olaraq aşağı olduğunu müəyyən etdikdə tətbiq olunur. Kompensəedici gömrük rüsumları ölkəyə gətirilən əmtəələrin gətirilməsi və yaxud çıxarılması zamanı əlverişli şəraitlərin tətbiqi (subsidiaların verilməsi, subvensiaların verilməsi və s.) nəticəsində istifadə olunur.

Azərbaycan dövlətinin gömrük siyasətinin uğurla həyata keçirilməsi öz növbəsində aşağıdakı prioritetlərin əldə edilməsini mümkünləşdirir:

– gömrük nəzarəti alətlərinin səmərəli istifadəsinin təmin olunması;

– respublikanın gömrük sərhədlərində əmtəə dövriyyəsinin tənzimlənməsi;

–daxili bazarı qorumaq məqsədilə ticari-İqtisadi məqsədlərin həyata keçirilməsi;

– milli iqtisadiyyatın inkişafının stimullaşdırılması;
– xarici bazar ekspansiyasından və qeyri-sivil rəqabətdən qorunmaq və s.

Bu baxımdan idxal-ixrac siyasətinin formalaşması, İqtisadi maraqlarla yanaşı sosial mənafelər və sosial inkişaf, İqtisadi təhlükəsizlik və daxili resursların İqtisadi dövriyyəyə cəlb olunması baxımından hazırlanır və tənzimlənir.

## Fəsil 3. Beynəlxalq ticarət və xarici iqtisadi siyasət
### 2.1. Beynəlxalq ticarətin inkişafına təsir edən amillər

Beynəlxalq iqtisadi münasibətlərin idarə olunması mexanizminin başlıca amili beynəlxalq ticarət alqı-satqı əməliyyatlarının həyata keçirilməsi ilə reallaşdırılır. Məhz maddi malların mübadiləsi, ölkələr arasında istehsal-texniki əməkdaşlığın nəticələrinin mallar mübadiləsi formasında təzahürü beynəlxalq iqtisadi münasibətləri təşkil edir. Ölkələrin qarşılıqlı ticarət əməliyyatları vasitəsilə həyata keçirilən öncədən müəyyənləşdirilmiş müxtəlif beynəlxalq ticarətin həyata keçirilməsi dünya dövlətləri qarşısında belə bir məsələ qoyur ki, hər hansı bir ölkə istehsal edə bildiyi bütün əmtəələri deyil, ən az xərclə daha çox əldə edilən əmtəənin istesalı ilə məşğul olsun. Heydər Əliyev demişdir: «Bazar iqtisadiyyatına keçid uzun prosesdir … yalnız bu prosesi ardıjıl surətdə həyata keçirərək Azərbayjanın iqtisadiyyatını daha çox inkişaf etdirə və xalqımızın rifah halını daha da yaxşılaşdıra bilərik … Eyni zamanda bu, nəzəriyyə ilə bağlıdır, dünya təjrübəsi ilə bağlıdır. Dünya təjrübəsini siz – bizim mütəxəssislər, alimlər, bu sahənin müvafiq işçiləri toplamalısınız. Nəzəriyyəni – yeni nəzəriyyə ijad etməyə ehtiyaj yoxdur – ümumiləşdirmək, bizim iqtisadiyyatımıza uyğunlaşdırmaq sizin vəzifənizdir. … İqtisadçılar gərək apardığımız islahatların hər

birinin həm həyata keçirilmə prosesini, həm də nətijələrini təhlil etsinlər. Ola bilər, bundan yaxşı əsərlər də yaza bilərsiniz. Bu da sizin elmi əsərləriniz olajaqdır»

Beynəlxalq ticarət BİM-in ənənəvi və əsas forması kimi bütün BİM formalarının təxminən 80%-inin payına düşür.

Əmtəə və xidmətlərin çıxış etdiyini nəzərə alsaq, Beynəlxalq ticarətin obyekti kimi onun iki formasını - əmtəələrlə beynəlxalq ticarəti və xidmətlərlə beynəlxalq ticarəti fərqləndirərək demək olar ki, əmtəələrlə beynəlxalq ticarət müxtəlif ölkələrin əmtəə istehsalçıları arasında beynəlxalq əmək bölgüsü əsasında meydana gələn əlaqələr formasıdır. Beynəlxalq ticarət müxtəlif ölkələrin satıcıları və alıcıları arasında xidmətlərlə mübadiləni əks etdirən dünya təsərrüfat əlaqələrinin xüsusi bir formasıdır.

Əmtəə və xidmətlərin satışı xarici bazarlarda və ölkədə istehsalı genişləndirərək, ölkənin gəlirini artırmağa imkan verir. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrə göndərilən sənaye məhsulları nisbətən yüksək qiymətlə satılaraq, həmin ölkələrdəki xammalları aşağı qiymətlə almaq sənaye cəhətdən inkişaf etmiş ölkələr üçün xüsusilə əlverişlidir. (Cədvəl – 1; 2)

**Sənayenin ümumi iqtisadi göstəriciləri***
***General economic indicators of indistry****

| Göctəricilər | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | Indicators |
|---|---|---|---|---|---|---|---|
| Məhsulun həcmi (cari qiymətlərlə), mlyn. manat | 9309 | 27978 | 34565 | 33898 | 32110 | 26369 | *Volume of products (at factual prices), million manats* |
| Fəaliyyət göstərən müəssisələrin sayı | 2621 | 2650 | 2514 | 2527 | 2534 | 2583 | *Number of acting enterprices* |
| İşçilərin orta illik sayı, min nəfər | 193,2 | 181,8 | 181,0 | 197,2 | 197,2 | 187,2 | *Average annual number of employees, thsd. persons* |
| Orta aylıq nominal əmək haqqı, manat | 196,9 | 451,8 | 590,1 | 630,8 | 694,8 | 809,3 | *Average monthly nominal wages, manat* |
| Ölkə üzrə orta aylıq əmək haqqı ilə müqayisədə, faizlə | 159,3 | 136,3 | 148,1 | 148,4 | 156,3 | 173,3 | *In comparision with average monthly wages by country, in percent* |
| Əsas istehsal fondları (ilin sonuna), mlyn. manat | 18225 | 37165 | 46769 | 53529 | 61809 | 70446 | *Fixed assets (at the end of year), mln. manats* |
| Əlavə dəyər, cari qiymətlərlə, mlyn. manat | 6190 | 21942 | 27073 | 26442 | 24169 | 18440 | *Value added, at factual prices, mln. manats* |
| Əlavə dəyərin ÜDM-də payı, faizlə | 49,4 | 51,7 | 49,5 | 45,4 | 41,0 | 33,9 | *Share of value added in GDP, in percent* |
| Əsas kapitala vəsaitlər, mlyn. manat | 4176 | 4276 | 6040 | 7500 | 7640 | 8500 | *Investments directed to fixed capital, mln.manats* |
| İnvestisiyaların ölkə iqtisadiyyatında payı, faizlə | 72,4 | 43,2 | 39,2 | 42,0 | 43,4 | 53,3 | *Share of investments in economy of country, at percentage* |

**Sənayenin ümumi iqtisadi göstəriciləri***
***General economic indicators of indistry****

| Göctəricilər | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | Indicators |
|---|---|---|---|---|---|---|---|
| Məhsulun həcmi (cari qiymətlərlə), mlyn. manat | 9309 | 27978 | 34565 | 33898 | 32110 | 26369 | *Volume of products (at factual prices), million manats* |
| Fəaliyyət göstərən müəssisələrin sayı | 2621 | 2650 | 2514 | 2527 | 2534 | 2583 | *Number of acting enterprices* |
| İşçilərin orta illik sayı, min nəfər | 193,2 | 181,8 | 181,0 | 197,2 | 197,2 | 187,2 | *Average annual number of employees, thsd. persons* |
| Orta aylıq nominal əmək haqqı, manat | 196,9 | 451,8 | 590,1 | 630,8 | 694,8 | 809,3 | *Average monthly nominal wages, manat* |
| Ölkə üzrə orta aylıq əmək haqqı ilə müqayisədə, faizlə | 159,3 | 136,3 | 148,1 | 148,4 | 156,3 | 173,3 | *In comparision with average monthly wages by country, in percent* |
| Əsas istehsal fondları (ilin sonuna), mlyn. manat | 18225 | 37165 | 46769 | 53529 | 61809 | 70446 | *Fixed assets (at the end of year), mln. manats* |
| Əlavə dəyər, cari qiymətlərlə, mlyn. manat | 6190 | 21942 | 27073 | 26442 | 24169 | 18440 | *Value added, at factual prices, mln. manats* |
| Əlavə dəyərin ÜDM-də payı, faizlə | 49,4 | 51,7 | 49,5 | 45,4 | 41,0 | 33,9 | *Share of value added in GDP, in percent* |
| Əsas kapitala vəsaitlər, mlyn. manat | 4176 | 4276 | 6040 | 7500 | 7640 | 8500 | *Investments directed to fixed capital, mln.manats* |
| İnvestisiyaların ölkə iqtisadiyyatında payı, faizlə | 72,4 | 43,2 | 39,2 | 42,0 | 43,4 | 53,3 | *Share of investments in economy of country, at percentage* |

İkinci dünya müharibəsindən sonra beynəlxalq ticarətin inkişafına təsir edən amillər inkar etmək mümkün deyil. Beynəlxalq əmək bölgüsünün və dünya təsərrüfatının beynəlmiləlləşməsinin dərinləşməsi; elmi-texniki tərəqqinin 1970-ci illərdə milli iqtisadiyyatda struktur dəyişikliklərinə səbəb olması; istehsalın və kapitalın milli və xarici bazarlarda təmərgüzləşməsi və mərkəzləşməsi transmilli şirkətlərin dünya bazarlarında fəaliyyətinin aktivləşməsi; Müstəmləkə sisteminin dağılması ilə milli iqtisadiyyatların formalaşdırılması yoluna qədəm qoymuş yeni, müstəqil dövlətlərin formalaşması; beynəlxalq ticarətin liberallaşdırılması prosesinin güclənməsi; azad ticarət zonalarının, gömrük ittifaqlarının və s.-nin yaradılması; ixrac-idxal əməliyyatları üçün əlverişli mühit yaradılması məqsədilə dövlətlərin xarici iqtisadi fəaliyyətə aktiv surətdə müdaxiləsi və Mərkəzi və Şərqi Avropa ölkələrinin inkişafın bazar metodlarına keçidi ilə onların iqtisadiyyatlarının açıqlığının artması, son 50 il ərzində əmtəələrlə və xidmətlərlə beynəlxalq ticarətin dinamikasını, onun əmtəə və coğrafi strukturlarında baş verən dəyişiklikləri şərtləndirmiş, beynəlxalq ticarətin müasir inkişaf meyllərini müəyyən etmişdir.

## 3.2. Beynəlxalq ticarətin dinamikasi və quruluşu

Beynəlxalq ticarətin dinamikasi dedikdə əsasən dəyər göstəricisi və artım nəzərdə tutulur. Məsələn, XX əsrin ikinci yarısından beynəlxalq ticarətin inkişaf sürəti dünya iqtisadiyyatının artım sürətini qabaqlayır. 1960 – 2000 ci illərdə dünya üzrə ÜDM- 28, 7 dəfə artdığı halda, ixracın həcmi 41, 6 dəfə çoxalmışdır. Təsadüfi deyil ki, qərb iqtisasçıları bu dövrü "qızıl əsr" adlandırmışlar.

Beynəlxalq ticarətin dinamikası yüksək inkişaf templəri ilə xarakterizə olunur. Əmtəə ixracında müşahidə edilən artım 2007-ci ildə 6%-ə enmişdir. Bu göstərici 2006-cı ildə 8,5% təşkil edirdi. Bu enmənin

səbəbi başlıca olaraq ABŞ həmçinin Avropa və Yaponiyada idxal tələbinin azalmasıdır. 2000-2007-ci illər ərzində əmtəə ixracı ÜDM-ə nisbətən orta hesabla 2,7% çox artmışdır.

Xidmətlərlə beynəlxalq ticarətdə isə 1980-ci illərin əvvəllərindən etibarən intensiv inkişaf müşahidə edilmişdir. Son illər xidmətlərlə ticarətin artım tempi əmtəələrlə ticarətin artım tempini müəyyən dərəcədə üstələyir. 2007-ci il ərzində xidmətlərlə ticarət (18%) çox yüksək bir sürətlə əmtəələrlə ticarətə (15%) nisbətən artmışdır.

Beynəlxalq ticarətin sürətli inkişafına təsir edən amillər – uzunmüddətli iqtisadi yüksəliş işgüzar aktivliyin, əmək məhsuldarlığının, şirkətlərin gəlirlərinin və əhalinin ödəmə qabiliyyətinin artması; elmi-texniki tərəqqi istehsalın həcminin genişlənməsi; insan faktoru( ehtiyacların daim artması qanunu) və həmçinin əmtəə dövriyyəsi və sərmayələr arasında qarşılıqlı əlaqənin güclənməsi, dünya bazarının qloballaşması, milli iqtisadiyyatların "açıqlığı"nın genişlənməsi üçün zəmin yaratdı.

Əmtəə dövriyyəsinin dinamikasına təsir edən vacib amillərdən biri də qiymət faktorudur. 1990-cı illərin əvvəllərindən başlayaraq dünya ticarətinin əsas əmtəə qruplarının qiymətlərində azalma müşahidə edilir. Asiya ölkələrində tələbin aşağı düşməsini, kənd təsərrüfatının və hasilat sənayesinin restrukturizasiyasına iri kapital qoyuluşlarını, müxtəlif ölkələrin ixrac imkanlarının genişlənməsini əsas səbəblər kimi göstərmək olar.

Dünya iqtisadiyyatının, xüsusilə beynəlxalq ticarətin vəziyyətinə mühüm təsir göstərmiş amillərdən biri kimi həmçinin 1990-cı illərin ikinci yarısında Asiya və Latın Amerikası ölkələrində baş verən maliyyə böhranlarını misal göstərmək olar. Bunun birbaşa nəticəsi özünü dünya ticarətinin artım tempinin aşağı düşməsində göstərmişdir.

Beynəlxalq ticarətin coğrafi strukturu ərazi və ya təşkilati əlamətlərinə görə formalaşdırılmış ayrı-ayrı ölkələr və ya onların qrupları arasında əmtəə və xidmət axınları bölgüsünü əks etdirir.

Beynəlxalq ticarətin ərazi axınlarında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Belə ki, Şimali Amerika, Latın Amerikası, Mərkəzi və Şərqi Avropa, Afrika ölkələrinin dünya əmtəə ixracında payı azalmışdır. Bunun əksinə olaraq, Qərbi Avropa, Orta Şərq və Asiya ölkələrinin dünya ixracında malik olduqları pay artmışdır. İdxalda da təxminən eyni meyllər müşahidə edilmişdir.

Xidmətlərlə dünya ticarətinin ölkələr üzrə bölgüsündə sənayecə inkişaf etmiş ölkələr üstünlük təşkil edir. Xidmətlərin regional baxımdan əsas ixracatçıları isə Avropa Birliyi, ABŞ, Yaponiya, Çin və Hindistandır. İdxal üzrə ilk beşliyə isə ABŞ, Almaniya, Yaponiya, Böyük Britaniya və Fransa daxildir.

Təşkilati əlamətinə görə dünya ticarətinin coğrafi strukturunda isə son 30 ildə sənayecə inkişaf etmiş ölkələrin dünya ixracında payı 60-70%, inkişaf etməkdə olan ölkələrin payı 25-30%, keçmiş sosialist ölkələrinin payı isə 5% ətrafında dəyişir. İnkişaf etmiş ölkələr həm ixracda, həm də idxalda dominant mövqeyə malikdirlər. Lakin onların dünya ixracında və idxalında payı azalmağa doğru meyllidir. İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin payı isə əksinə artmaqdadır. Bu isə göstərir ki, inkişaf etməkdə olan ölkələrin xarici ticarəti inkişaf etmiş ölkələrin xarici ticarətinə nisbətən daha yüksək templə artır.

Beynəlxalq ticarətdə aparıcı mövqeyə malik inkişaf etmiş dünyanın üç mərkəzi: ABŞ, Avropa Birliyi və Yaponiya. Onların payına ixracının və idxalının təxminən 60%-i düşür.

Dünya əmtəə dövriyyəsinin təxminən yarısı isə "böyük yeddilik" ölkələrinin (ABŞ, Kanada, Yaponiya, Fransa, Böyük Britaniya, Almaniya, İtaliya) nəzarətindədir.

Beynəlxalq ticarətin əmtəə strukturu bir neçə meyllə xarakterizə edilə bilər. Birincisi, beynəlxalq əmtəə dövriyyəsinə cəlb edilən əmtəə axınları diversifikasiya olunur. Almaniya ixrac nomenklaturasında bu gün 180, ABŞ, Böyük Britaniya və Fransanın 175, Yaponiyanın 160 mal mövqeyi mövcüddur. Bu, dünya bazarlarına çıxarılan məhsulların sürətlə təzələndiyini göstərir. Hər 5 il müddətində maşın və cihazqayırma sənayesi məhsulların təxminən 60%-i təzələnir.

İkincisi, elmi-texniki tərəqqinin təsiri nəticəsində beynəlxalq ticarətdə emaledici və kimya sənayesi məhsullarının payı yüksəlir.2007-ci ildə emaledici sənayenin həcmi 7,5% artmışdır. Ümumiyyətlə, 2007-ci ildə dünya ixracının 47,8%-i emaledici sənayenin payına düşüb və 2000-ci ildə bu göstərici 45,3% olmuşdur. Bu məhsullar dünya bazarlarında əsas ixracatçı və idxalatçılar kimi sənayecə inkişaf etmiş ölkələr çıxış edirlər.

Üçüncüsü, xammal və yanacaq ticarətin dünya əmtəə dövriyyəsində payı getdikcə azalır ki, bu da sənayecə inkişaf etmiş ölkələrin maddi istehsalında xammal əmtəələrinin rolunun azalması və xammalın dünya qiymətlərinin aşağı düşməsi ilə əlaqədardır.

Dördüncüsü, dünya ticarətində ərzaq məhsullarının da xüsusi çəkisi azalır. 2000-ci ildə ərzaq məhsullarının cəmi əmtəə ixracında payı 6,9%-ni, təşkil etdiyi halda, 2007-ci ildə 6,7%-ni təşkil etmişdir. Bu aqrar sektorun bütün qrup ölkələrin daxili istehsalında payının aşağı düşdüyünü, kənd təsərrüfatı məhsullarının emal səviyyəsinin artdığını və qiymətlərin aşağı düşdüyünü göstərir.

Beşincisi, 1970-ci illərin dünya iqtisadi böhranından sonra toxuculuq və hazır paltar məhsulların dünya ixracında payının artımı meyli müşahidə edilməkdədir.

Həmçinin xidmətlərlə beynəlxalq ticarət getdikcə əmtəələrlə ticarətə daha çox təsir göstərir. Məsələn, əmtəənin xaricə göndərilməsi üçün

bazarın təhlilindən tutmuş əmtəənin nəqlinə qədər çox xidmətlərdən istifadə edilir.

Beynəlxalq ticarətin sabit artımına aşağıdakı amillər təsir edir:

1. Beynəlxalq əmək bölgüsünün və istehsalın beynəlmiləlləşdirilməsinin inkişafı
2. Dünya bazarında transmilli şirkətlərin fəaliyyətinin artması
3. Xarici kapital ixracının artması
4. Ticarət-iqtisadi inteqrasiyası prosesinin inkişafı
5. Bir çox məhsulların qiymətinin artırılması və s.

Dünya ticarətini quruluşunu – maşınlar, avadanlıq, cihazlar; xammal məhsulları; ərzaq məhsulları və istehlak mallarına görə qruplaşdırmaq olar.

XX əsrin ikinci yarısında daha doğrusu 1960-2000-ci illərdə dünya üzrə ixracın tərkibində xammal, yanacaq və ərzaq məhsullarının xüsusi çəkisi nisbətən azalmış, hazır məhsullar və yarımfabrikatların payı isə atrmışdır. Hazır məhsullar və yarımfabrikatlar inkişaf etmiş ölkələrin ixracında əsas yeri tutur, (82%), yanacaq, xammal, ərzaq isə 15% təşkil edir.

Hər bir dövlətin xarici ticarət siyasətində əsas məqsədi – ixrac və idxalın həcminin və qiymətlərinin nisbətinin dəyişilməsindən; xarici ticarətin quruluşunun dəyişilməsindən, eyni zamanda ölkənin zəruri ehtiyyatlarla təmin edilməsindən ibarətdir.

Dövlətin xarici ticarət siyasəti əsasən liberallaşma və himayədarlıq olmaqla iki istiqamətdə özünü göstərir.

1. Liberallaşma – müəyyən maneçiliklərin azaldılması bazarın tənzimləyici roluna üstünlük verilməsi nəzərdə tutulur.
2. Himayədarlıq – bir cox hallarda ölkənin iqtisadi inkişaf səviyyəsindən asılı olduğu üçün diqqət mərkəzində saxlanılaraq, daxili bazarın xarici rəqabətdən qorunması və xarici bazarın ələ keçirilməsi üçün dövlətin yeritdiyi siyasət nəzərdə tutulur.

Fəlsəfi baxımdan Hegel dialektikasıda ziddiyyət o şeydir ki, irəli hərəkət etdirir. Bu müddəa ilə yanaşı ziddiyyətdə əksiklikləri barışdırmaq meyli də vardır. Hadisələrin daxilən zidd olan cəhətləri bir-birinə qarşı laqeyd qalmır. Ziddiyyətdəki cəhətlərin hər birində müəyyən bir meyl-müsbət və ya mənfi, təsir və ya əks təsir və s. meylləri əks olunur. Dünya ticarəti prosesinin təhlili göstərir ki, burada liberallaşma-sərbəstləşmə bu prosesin əsasını təşkil edir. Gömrük dərəcələri azalır, bir çox məhdudiyyətlər aradan qaldırılır.

## 3.3. Müasir şəraitdə beynəlxalq ticarətin bəzi xüsusiyyətləri

Dövlətlərin müasir ticarət siyasəti proteksionist və liberal siyasətlərin həm inkişafı, həm də qarşılıqlı mübarizəsi meylləri ilə fərqlənir. Bu siyasətlərin hər bir istiqaməti müəyyən dövrlərdə üstünlük təşkil etmişdir. Əgər 1950-1960-cı illərdə liberalizm meylləri üstünlük təşkil edirdisə 1970-1980-cı illərdə "yeni"proteksionizm dalğası dünya ticarətində özünü qabarıq göstərdi. Liberalizm meylləri 1950-60-cı illərdə gömrük rüsümlarının kəmiyyətinin azaldılmasında öz əksini tapmışdır. 1950-ci illərin əvəlində gömrük rüsümları avropa ölkələri və ABŞ üzrə30-40%təşkil edirdisə artıq 1970-ci illərin əvəlində 7-10%-ə qədər azalmışdı və hazırda isə 3-5% arasında dəyişir. Gömrük rüsümlarının azalması heçdə xarici ticarətin idarə edilmməsi deməkdir deyildir. Əksinə indi bu idarə etmə daha çevik xarakter almış və proteksionist müdafiənin yeni vasitələrinin geniş tətbiqi ilə xarakterizə olunur. Proteksionizm yeni spesifik regional xarakter alır,beləki1970 –ci ildə Lomey razılaşması əsasında Afrikanın, Karib hövzəsini və Sakit okeanin 60 dan çox inkişaf etməkdə olan ölkələri ilə Avropa İttifaqı arasında bağlanmış müqavilə faktiki olaraq inkişaf etməkdə olan ölkələrə güzəştli vergi tariflərini qalan ölkələrə qarşı tətbiq etməyi

nəzərdə tutur. Qlobal səviyyədə proteksionizmin yeni qaydaları tətbiq olunur, beləki həmin qaydalara görə əgər idxalçı ölkənin milli sənayesi idxaladan ziyan çəkərsə onda bir tərəfli qaydada gömrük rüsümarını artıra bilər. Gömrük tarifləri əvəzində qeyritarif vasitələri –texniki, ekoloji standartlar və tələblər daha geniş tətbiq olunmaqdadır. Proteksionist siyasətin belə inkişafı liberalizmin daha üstün inkişafı ilə müşayət olunurdu. Proteksionizm və liberalizmin birlikdə mövcudluğuna xarici ticarətdə idxalın dövlət stimullaşdırılması da əlavə olunur. Bir sıra elm tutumlu sahələrdə fundamental tətdiqatları aparmaqdansa bir sıra ölkələr həmin məhsulların idxalına üstünlük verirdilər.Belə həvəsləndirmə metodları ,idxal olunası məhsulların 10-20%dəyərinin dövlət yardımları ilə ödənilməsini nəzərdə tutur. Bundan başqa inkişaf etmiş ölkələrdə ixracın stimullaşdırılması siyasəti müasir dövrdə xarici ticarət siyasətinin ən mühüm cəhətlərindən biridir. Bu əsasən kənd təsərüfatı məhsullarına daha çox aiddir. İnkişaf etmiş ölkələrdə ixracı həvəsləndirmək məqsədi təyinatlı kreditlər və dövlət yardımları verilir ki bu da məhsulau dəyərinin 12-20% təşkil edir.

Müasir dövrdə beynəlxalq ticarətin quruluşunda əsaslı dəyişikliklər baş vermişdir: hazır məmulatların xüsusi çəkisi artmış yanacaqdan başqa digər xammal-materialların və ərzaqın xüsusi çəkisi isə azalmışdır. Əgər 1950-ci ildə xammal material və ərzaqın xüsusi çəkisi,hazır məhsulların xüsusi şəkisinə bərabər idisə, XX-ci əsrin sonuna xammal-materialın və yanacağın xüsusi çəkisi 30%düşmüşdür ki bunun da 25% yanacağın ,5%isə xammalın payına düşürdü. Hazır məhsullar isə 70% əhatə edirdi. Beynəlxalq ticarətdə xammal-materialın xüsusi çəkisinin azalması 3 əsas səbəblə izah olunur: kimya sənayesinin inkişafı əsasında sintetik materialların istehsalının genişlənməsi (sintetik kauçuk, plastmass və s.), ölkədaxili materiallardan daha geniş istifadə olunması və resursa qənaət edən texnologiyaya keçilməsi. Bunula yanaşı neft və təbii qaz ticarəti kəsgin artmışdır.

Əgər əvəllər beynəlxalq ticarətdə xammal-materiallar üstünlük təşkil edirdisə, indi hazır məmulatlar, yarımfabrikatlar,və onların ayrı-ayrı hissələrinin ticarəti daha üstün mövqe tuturlar. Buna səbəb transmilli korporasiyaların mövcudluğudur ki, onların müxtəlif dünya ölkələri üzrə səpələnmiş, texnoloji ardıcıllığın müxtəlif fazaları üzrə ixtisaslaşmış filialları və onlar arasındakı ticarət əlaqələridir. Bu prosesin əsasında elmi-texniki tərəqqi dayanır ki, o da ayrı-ayrı hissə və komplektləşdirici hissələr üzrə müxtəlif ölkələrin frmalarının ixtisaslaşmasıdır. Hal-hazırda istehsalvə istehlak xarakterli buraxılan məhsulların çeşidi 20mln. növdən çoxdur, aralıq məmulatlarının sayı isə fantastik rəqəmlərə çatır. Boinq-747 təyyarəsinin istehsalında 4.5 mln. müxtəlif hissə və qovşaqlardan istifadə olunur ki,bunlarında istehsalı ilə 16 min şirkət məşğul olur.

İxtisaslaşmanın dərinləşməsinə həmçinin mənəvi aşınma və assortimentlərin tez-tez dəyişməsi də təsir göstərir. Beləki, bu ixtisaslaşmış elmi-tədqiqatın aparılmasını tələb edir.

Beynəlxalq ticarətin istiqamətlərinin təhlili göstərir ki, dünya ixracatının 60% -ni əhatə edən inkişaf etmiş sənaye ölkələri arasında ticarət daha sürətlə artmaqdadır. İnkişaf etməkdə olan ölkələr isə öz ixracatlarının 70%-ni inkişaf etmiş ölkələrə edirlər. Beynəlxalq ticarətin inkişaf etimiş sənaye ölkələri zonasında təmərküzləşməsinin başlıca səbəbi, iqtisadi güclərin dünyada qeyri bərabər bölüşdürürülməsidir. Beləki Dünyanın 3 iri ölkəsinin-ABŞ, Yaponiya və Almaniyanin payına dünya əhalisinin 9%-i düşdüyü halda, dünya gəlirinin 50%,və dünya alıcılıq qabiliyyətinin isə 33% düşür.

## 3.4. Dövlətin xarici ticarət siyasəti və beynəlxalq iqtisadi münasibətlərinin inkişafina onun təsiri

Azərbaycan ərazisi coğrafi mövqeyinə görə qərblə şərqin kəsişdiyi ərazidə yerləşməklə, təbii sərvətlərlə, o cümlədən neftlə zəngin olan bir ölkədir. Ölkəmiz həmçinin geosiyasi mövqeyə malikdir. Neft hasilatı ilə yanaşı Azərbaycanda neft emalı sənayesi də inkişaf edirdi. Bakıda ilk neft emalı müəssisəsi 1859-cu ildə Suraxanıda tikilmişdir. 1896-cı ildə başlayan Bakı-Batumi kəmərinin tikintisi 1906-cı ildə başa çatmışdır. Kəmərin uzunluğu 833 km, borunun diametri 200 mm. idi. Kəmərlə ildə 900 min ton kerosin daşınması nəzərdə tutulurdu. 1874-1899-cu illərdə Azərbaycan neft sənayesində 29 səhmdar (o cümlədən, xarici kapitallı) şirkət yaradıldı. 1916-cı ilə kimi belə səhmdar şirkətlərin sayı 104-a çatdı. Onların bəzilərinin səhmləri hətta London, Paris, və Berlin fond birjalarında xüsusi tələbata malik idi.

Azərbaycan iqtisadiyyatında müasir inkişaf mərhələsində onun xarici iqtisadi siyasətinin strateji hədəfləri ilk növbədə ölkə iqtisadiyyatının müasir durumu, onun dünya iqtisadiyyatında mövqeylərinin möhkəmlənməsi və ümumi iqtisadi inkişaf strategiyasının reallaşdırılması fonunda formalaşıır.

Son illərdə 1991-2013 cü illərdə beynəlxalq iqtisadi əlaqələrin inkişafı üçün elmtutumlu, eyni zamanda rəqabətqabiliyyətli məhsulların satış bazarlarına çıxışını təmin etmək üçün aşağıda sadalanan dövlət tənzimləmə funksiyalarına üstünlük verirlər:

1. Əmtəə üzrə ixtisaslaşdırmanın aparılması;
2. Əmtəə çeşidinin müxtəlifliyinin təmin edilməsi;
3. İxtisaslaşma çeşidinin müxtəlifliyinin təmin edilməsi;
4. İqtisadi regionlar üzrə iqtisadi müxtəlifliyin təmin edilməsi;
5. Sahə üzrə regionların konkret üstünlüklərinin əldə olunması:

Hazırda dövlətin xarici iqtisadi siyasətinin strateji istiqamətləri daha çox aşağıdakıları əhatə edir:

- xarici ticarətin ümumi dövriyyəsinin artırılması və ÜDM – da xüsusi çəkisinin daha da yüksəldilməsi;
- idxal – ixrac balansının sağlamlaşdırılması;
- ölkənin dünya iqtisadi məkanına və bazarlarına inteqrasiyasının güclənməsi;
- xarici investisiyaların qeyri neft sektoruna istiqamətləndirilməsi;
- beynəlxalq iqtisadi təşkilatlarda təmsilçiliyin güclənməsi və Beynəlxalq Ticarət Təşkilatına üzv qəbul edilməsi;
- beynəlxalq valyuta təşkilatları ilə fəaliyyətin səmərəliliyinin artırılması;
- beynəlxalq qlobal və regional iqtisadi layihələrdə təmsilçiliyin gücləndirilməsi;
- dünya bazarlarında enerji daşıyıcıları ixrac edən ölkə kimi təmsil olunmaq;
- xarici ölkənin iqtisadiyyatına investisiya qoyuluşu və kreditlərin yerləşdirilməsi;
- xarici ölkələrdə istehsal və xidmət müəssisələrinin yaradılması və sair.

Eyni zamanda xarici ticarət siyasətinin prioritet istiqamətləri kimi aşağıdakıları nəzərə almaq son dərəcə vacibdir:

- xarici ticarət münasibətlərinin uzunmüddətli perespektivə istiqamətlənməsi;
- daxili bazarın qorunması və iqtisadiyyatın real sektorunun inkişafının stimullaşdırılması;
- ölkədə istehsal olunan məhsullarının dünya bazarlarına çıxarılmasına kömək edilməsi, yəni ixracatın stimullaşdırılması;
- xarici bazarlarda ölkə istehsalçılarının mənafelərinin qorunması;
- ixracatın strukturunun keyfiyyətinin artırılması;

- daxili bazarların tənzimlənməsi;

- idxalın tənzimlənməsi məqsədi ilə səmərəli gömrük və vergi sisteminin tətbiqi;

- xarici ticarət balansına nail olunması;

- tədiyyə balansının tənzimlənməsi və s.

Bu və digər istiqamətləri özündə əks etdirən xarici ticarət siyasəti o vaxt effektli ola bilər ki, onun işlək, çevik və milli maraqları təmin edən tənzimləmə mexanizmləri olsun.

Artıq məlumdur ki, Azərbaycanın mövcüd iqtisadi potensialı bu problemləri həll etmək imkanlarına malikdir, xüsusilə dünya bazarlarına qeyri neft əmtəələri ilə çıxış imkanları daha da genişləndirilməli, bu sahədə dövlət dəstəyi və tənzimlənməsi daha güclü olmalıdır. Doğrudur bu sahədə son illərdə, xüsusilə də 2010-ci ildə nəzərə çarpacaq işlər görülmüşdür. Xüsusilə idxal ixrac əməliyyatlarında "bir pəncərə" prinsiplərinin tətbiqinə başlanması olduqca tədqirə layiqdir. İdxal – ixrac əməliyyatlarına "bir pəncərə" sisteminin tətbiqi və digər gömrük proseduralarının sadələşdirilməsi, vergi sisteminin təkmilləşdirilməsi nəticəsində ölkədə xarici iqtisadi fəaliyyətin sürətlə artması, idxal – ixracatın strukturunun xeyli genişlənməsi müşahidə olunur. Nəticədə idxalın və ixracatın strukturunun məqsədyönlü şəkildə dəyişməsi, ölkə sahibkarlarının xarici bazarlara çıxış imkanlarının artırılmasına nail olunmuş və artıq Azərbaycan sahibkarlarının Avropa ölkəsi və ABŞ bazarlarına rüsumsuz və ya çox aşağı görük vergiləri ilə ixrac imkanları yaranmışdır. Bütün bunlar isə dünya bazarlarına Azərbaycanın qeyri neft əmtəələrinin çıxarılması sahəsində ardıcıl fəaliyyəti üçün əlavə tədbirlərin görülməsi imkanlarının daha da yaxınlaşdırır. Bu sahədə qarşıda duran əsas məsələlərdən biri ayrı – ayrı ölkələrdə iqtisadi əlaqələri genişləndirməklə bərabər dünya iqtisadi məkanında xüsusi nüfuza malik olan beynəlxalq təşkilatlarla əlaqələri genişləndirmək və onlarda təmsil olunmaqdır.

Xüsusilə nüfuzlu beynəlxalq təşkilat və maliyyə qurumlarında təmsil olunmaq və iştirak etmək strateji hədəf olmalıdır. Bu prosesin sürətləndirilməsi ölkəmizin xarici ticarət əlaqələrinin genişlənməsi ilə bərabər eyni zamanda həm xarici, həm də daxili bazarlarda istehsalçıların rəqabətqabiliyyətlik imkanlarının güclənməsinə, ETT və yeni texnologiyanın istehsala tətbiqinin stimullaşdırılmasına, istehsal edilən əmtəə məhsullarının dünya standartlarına uyğunlaşdırılması və inkişafına güclü təsir göstərə bilər.

Xüsusi əhəmiyyət kəsb edə biləcək məsələlərdən biri də ölkəmizdə azad iqtisadi zonaların yaradılmasıdır. Bu barədə dövlətin müvafiq proqramları mövcuddur, ardıcıl danışıqlar aparılır və müvafiq hazırlıq işləri görülür. Burada da daha sürətli işlərin görülməsi və bu prosesin həyata keçirilməsi vaxtı çatmışdır.

Ölkədə investisiya mühutinin yaxşılaşdırılması, ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların tənzimlənməsi sahəsində dövlət siyasətinin davam etdirilməsi ilə bərabər ölkə daxili investisiya vəsaitlərinin dünya bazarlarına çıxarılması da ölkənin iqtisadi imkanları daxilindədir.

Bununla bərabər son illərdə Azərbaycan iqtisadiyyatı üçün prioritet hesab edilən xarici iqtisadi münasibətlərin digər istiqamətlərini də qeyd etmək lazımdır.

Strateji nöqteyi nəzərdən beynəlxalq iqtisadi münasibətlərin müasir qloballaşan dünya təsərrüfatı sistemində bir neçə əsas istiqamətlərini qeyd etmək olar ki, bunlarda eyni zamanda Azərbaycan iqtisadiyyatı üçün olduqca aktualdır. Bu istiqamətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Beynəlxalq iqtisadi əməkdaşlıq, maliyyə, bank və ixtisaslaşmış qurumlarla əlaqələrin gücləndirilməsi və onlarda təmsilçilik;
2. İnkişaf etmiş ölkələrlə əməkdaşlığa üstünlük verilməsi;
3. Azad ticarət zonalarının yaradılması;

4. Regionların və birbaşa iqtisadi əlaqələrin inkişaf etdirilməsi və s.

Beynəlxalq iqtisadi münasibətlər sahəsində milli iqtisadiyyatın qarşısında duran əsas məsələlərdən biri də prioritetlərin müəyyənləşdirilməsidir. Burada xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri xarici ticarət əlaqələridir.

## 3.5. Xarici iqtisadi siyasət

Xarici ticarət ən qədim dövrlərin mühüm bir atributu olaraq, böyük iqtisadi fayda mənbəyi olmusdu. Insanlar xarici ticarət maraqlarını təmin etməklə özlərinə tərəfdaş qazanaraq daha sonralar mühüm xarici ticarət nəzəriyyəsinin yaranmasına səbəb olmuşlar. Alman tədqiqatçısı F.Listin yazır: “Bütün dünya ölkələrinin hamısı industrial ölkələr olduqda azad ticarət hamıya sərfəli olur”. D. Rikardo (1772-1823) özünün xarici ticarət nəzəriyyəsindən belə nəticəyə gəlir ki, “ticarət bütün sivilizasiyalı millətləri bir ümumdünya icmasında birləşdirəcəkdir ”.

Xarici iqtisadisiyasət - dövlətlərin idxal vəixrac, gömrük rüsumları, tariflər, məhdudiyyətlər, xarici kapitalın cəlb olunması, kapitalın xaricəixracı, xariciistiqrazlar, digər ölkələrəiqtisadi yardımın göstərilməsi, birgəiqtisadi layihələrin həyata keçirilməsi sahəsində dövlət siyasətinin həyata keçirilməs deməkdir. İqtisadi siyasətin əsas istiqamətləri xarici iqtisadi fəaliyyətin məcmusunu tənzimləyir: mal və xidmətin beynəlxalq qarışığı, maddi, əmək, pul, vəintelektual resurslar. Onun tərkib hissəsi xarici ticarət siyasəti, istehsal və elmi texnikiəməkdaşliq sahəsində siyasət, valyuta kredit siyasəti, xariciinvestisyalar sahəsində siyasət, texnologiya və. s. ötürülməsində siyasət dövlətin xariciiqtisadi siyasətin hazırlanması müəyyən baza tələb edir.

200 dövlət təşkilatını birləşdirən müasir dünya təsərrüfatıözündə qarşılıqlıəlaqələrin asimmetrik olduğu dinamik dünyanıəks edir, lakin

ölkələrin müxtəlif qruplarıəməkdaşlığa bərabər şəraitdə və eyni dərəcədə cəlb

olunmur. Avropa İttifaqından başlayaraq reqionalizm siyasəti bizə "müxtəlif sürətli" dövlətlərin inkişafı anlayışını verdi. Bu o deməkdir ki, XX əsrin sonunda ETT-nin inkişafışəraitində eyniiqtisadi mövqedə olan bir çox dövlət

bir birindən uzaqlaşmağa, öz inkişafına görə müxtəlif ölkə qruplaşmalarının iştirakçısı olmağa başladı. İnkişaf tempində ziddiyyətlərin artması kimi belə hadisə ayrı-ayrıölkələrin xariciiqtisadi siyasəti, həm də məzmunu, dövlət blokları, həm də dünya təsərrüfatının inkişafında bir çox xarici amillərləəvvəlcədən müəyyən edilirdi. SSRİ-n süqutu, milli dövlətlərin qeyri hərbi ekspansiya metodlarının güclənməsi ziddiyyətlərin meydana gəlmə prosesini daha sürətli etdi, lakin onların sürət və keyfiyyəti olduqca müxtəlifdir. Müasir dövrdə dünya arenasında iqtisadi qüvvələrin bu və ya digər balansı təkcə obyektiv şəraitlə deyil, həm də məqsədyönlü xariciiqtisadi siyasətlə xarakterizə olunur. Buna görə də qeyd etmək lazımdırki, son vaxtlar təbii-iqlim, iqtisadi və ölkənin digər maniələri kimi parametrlərə-əsaslanan bir çox obyektiv proseslərin realizəsinəimkan vermir. Oxşar xarakterli vəinkişaf səviyyəli bir çox ölkəni BƏB-dəinteqrasiyanı müxtəlif ierarxiyalı səviyyələrinə cəlb etmək olar. Yuxarıda qeyd olunanlar nəzərdə tuturki xariciiqtisadi siyasətə tam muxtar (müstəqil) məfhum kimi baxmaq məqsədə uyğundur, çünki müasir dövrdə təkcəölkələr arası qarşıdurma deyil, xarici təsir amilinəçevrilən ictimai dəyişikliklərə səbəb olan amillərin, ocaqların, vasitələrin qarşıdurması mühümdür. G.P.Babinin tam hüqüqlu fikri təqdim olunur ki, xariciiqtisadi siyasət- bu, dünya bazarında müəyyən imtiyazlıölkənin iqtisadiyyatın əldə edilməsinə yönəlmiş, və daxili bazarın xarici malların rəqabətindən müdafiəsinə yönəlmiş tədbirlər sistemidir. Belə nəticə çıxır ki bu, dövlətin xarici, daxili vəiqtisadi siyasətinin mühüm

həlqəsidir. Xariciiqtisadi siyasətin məzmunu ölkənin ictimai quruluşunun təbiəti, milli təsərrüfatin müvafiq vəzifələri, eləcədə xarici amillərin yekunu iləşərtlənir. Xariciiqtisadi siyasətin ölkənin xarici və daxili siyasıtiilə təbii qarşılıqlıəlaqəsi dönya təsərrüfatının mürəkkəb kordinat sistemində milliiqtisadiyatla inkişaf edən qarşılıqlı fəaliyyətin tərkibində tamamlanır. Dünya təsərrüfat əlaqələrində tendensiya modifikasiyasının növbəti şəbəkəsini müəyyənləşdirir: milli iqtisadiyyat beynəlmiləlləşmiş istehsal həl-qələrinin tərkib hissəsinə çevrilərək və şəbəkənin məcmu elementlərinə təsir göstərərək cəlb olunur. Iqtisadiyyatın beynəlmilləşməsi dünyanın siyasi xəritəsini prinsipcə dəyişir, şəxsi milli maraqlarla yeniiqtisadi sərhədləri, strateji məqsədli areallar vəinteqrasiya hadissələrinin sxemini yaradır. Sözsüz, belə bölgü mürəkkəb piramidaya səbəb olurki bu bölgüdə dünya təsərrüfatının informasiya və malliyə kredit strukturları xüsusən seçilir. Belə arenada xarici dunya ilə qarşılıqlı fəaliyyətin üsül və qaydaları, normalarının böyük arsenalı, bu ehtiyatla-rın hərbi, bəzəndə diplomatik metodların iştirakı olmadan ustalıqla tətbiqi fəaliyyət göstərir. Əsas xaric iiqtisadi siyasətə xidmət edən dövlət tədbirləri kompleksi növbəti məqsədlərin nail olunmasına, çatdırma üçün şəraitin yaradılmasına və dünya bazarlarında milliistehsal həllqələrinin fəaliyətinə kömək edir;

- ticarət bloklarına, ayrı ayrı ölkə və təşkilatlara, həmçinin beynəlxalq maliyyə təşkilatlarıyla qarşılıqlıəlaqələrin tənzimlənməsinə kömək edən valyuta – maliyyə platforması, kreditor və debitor ölkələrə münasıbətda səmərəli ticarət rejimlərinin formalaşması vasitasilə milli subyektlərin əlverişlişəraitlə təmin olunması;
- ölkələrin xariciiqtisadi maraqlarının müdafiəsinin təmini;

Qeyd etmək lazımdırki xariciiqtisadi siyasət göstərilən xarakterli funksiyaları yerinə yetirməkləölkənin iqtisadiinkişaf modelində xüsusi rol oynayır: dəyişdirici (malın idxalı vəixracı, kapital, işçi qüvvəsi və.s sahəsində regionların, sahələrin inkişaf siyasəti), toplayıcı (hasila,

bazarda nüfuzun saxlanması, xarici bazarların genişlənməsi), tarazlayıcı (ölkə bloklarının maraqlarına uyğun milli maraqlar). Bu nöqteyi nəzərdən xarici iqtisadi siyasət ayrı - ayrı ölkələrin inkişaf modellərinin transfarmasiya yollarını toplamağa və ümumi dəyərləri (ölkədaxili zidiyyətləri aradan qaldırmaq, yeni iqtisadi mexanizmə uyğunlaşma, hazırkı mədəni mühüt özgəlik), həmdə siyasətin realizəsinin metodik yollarının xarakterini müəy-yənləşdirməyə imkan verir.

Baxmayaraqkiiqtisadi təbiətdə möcüzənin çox mənzərələliyi (yapon, alman və.s), dəyərlərin istiqamətlənməşkalası, xariciiqtisadi siyasətdə bu vəya digər vasitənin fəaliyyət göstərməsi baş verir əldə edilmiş nəticələrin tranformasiya yolu milli xüsüsiyətlərin siyasətin ümumi qəbul edilmiş elementləri və onların realizəsi mexanizmləri ilə əlaqələn-dirilməsinə imkan verir.

Bununla əlaqədər tam qanuna uyğun olaraq ümumi cəhətlərin ayrılması, müasir mərhələdə BƏB-ə meyl və eyni zamanda bəziölkələrin uğur və nailiyətlərinin formulunu və digərlərinin xətalarınıəks etdirmək zəruriliyi meydana çixir. Yekunda ölkələr arası qarşiqoymanın zəruriliyi qəbul etsək, onun mühüm və tamamlayıcı kompenenti siyasətin qiymətləndirilməsi olur. Hamıya məlum olduğu kimi xarici iqtisadi siyasət iki funksiyanı , müdafiə və təcavüzkar funksiyanı yerinə yetirir. Funksiyaların belə bölgüsünə onlardan hər birinin genişşərhi daxildir. Xüsusiilə ABŞ, Çin kimi beləölkələrin təcavüzkar siyasətinin sırasına nüfüz sferasının təminiüzrə eksponsiyonist mearlar daxildir. Digər ölkələrə münasibətdə “təcavüzkar”siyasət sülh və mehriban qonşuluq prinsiplərinin həyata keçirilməsi tədbirləri sırasına əməkdaşliq formalarının artirılması deməkdir. Ehtimal ki iqtisadiyyatın bu və ya digər dəyişdirilmiş modelinin seçilməsi xarici iqtisadi siyasətin bu və ya digər element ehtiyatında qurulub, lakin fərq bu elementlərin kəmiyyətinin seçimində və liderlik strateqiyasının uyğunlaşdırılmasında (işçi qüvvəsinin yüksək faizi, istehsalda məşğul, yeni texnologiyanin

aparıcı rolu- “high trust societies ”), yetkinləşmişinkişafında (low trust societies) müəyyən olunur. Çin əhalisinin 2/3- i kəndə yaşayır, işçi qüvvəsinin, istehsal əməliyyatlarında məşğul olanların sayı böyük deyil. Əsas dayaq uyğun primitiv istehsala cəlb olunmuş qərb texnologiyası və qarişiq tipli keçid iqtisadiyyatlı cəmiyyətin yeniləşdirilməsidir. Problem ölkənin stabilliyini təmin edən iqtisadi siyasətin dəyişdirilməsi modelinin seçimindədir, beləkiistənilən dəyişməölkələr arasında qarşılıqlı əlaqələr sistemində dəyişikliyə gətirir. Strategiyanın birinci variantı ABŞ, Yaponiya və Qərbi Avropanın beynəlxalq rəqabət mərkəzləri üçün xarakterikdir. Bütövlükdə hər 3 mərkəzə liberal sənaye iqtisadiyyatı xasdır, lakin qlobal konteksdəölkələrin xariciiqtisadi siyasəti onların iqtisadiyati üçün “tepliçnıx” şəraitin yaradılmasına yönəlib. ABŞ-la beynəlxalq əməkdaşlıq formalarının qurulması təcrübəsində hazırki strateqiya açıq aşkar meydana çıxır. Qeyd etmək lazımdırki, Amerika tərəfdaşlığı daha zəif ölkələrlə əməkdaşlıq praktikasına əsaslanır. ABŞ-ın xariciiqtisadi siyasətində həmin fakt da öz əksini tapmamişdiki İkinci dünya müharibəsindən sonra Yaponiya və Almaniya ilə qarşılıqlı fəaliyyət üstünlük mövqeyində həyata keçirildi. Müharibədə bu ölkələrlə qələbə müttəfiqlərin xeyrinə malliyə yükləmələrinin yenidən bölüşdürülməsinə səbəb oldu. Buna görə də amerikan anlayışında siyasətdə bərabər hüquqlunun mövcudluğu şərt deyil və asanlıqla qeyd etmək olarki bütün zamanlarda ABŞ qüvvələr balansının köhnə siyasətini həyata keçirir. Həmin faktıda gizlətmək olmaz ki, 70 ciillərin ortalarında ABŞ cənub şərqi Asiya ölkələrinə münasibətdə ehtiyyatlı siyasi mövqe seçdi və 20 ildən sonra bu, gözlənilməyən” Asiya çağrışı” nəticəsində amerika iqtisadiyatının nüfüz dairəsini daraltı. Amerika xarici iqtisadi siyasətin hansısa elementlərindən istifadə etməsə də o, maraqlarını beynəlmiləl problemlər dərəcəsində ifadə etməyəçalışaraq öz maraqlarını istənilən qitədə müdafiə edir və beynəlxalq iqtisadi, malliyə təşkilatlarının müşavirələrində qərarların

qəbulunda liderlik edir, beynəlxalq münasibətlər sferasında öz statusunu qaldıraraq onlara beynəlxalq verir. ABŞ-ın rəsmi kursunda dünya birliyində milli dövlətlərin inteqrasiyasina kömək göstərmək cəhdi göstərilib, praktikada isə rəqiblərin maraq sferalarının məhdudlaşdırılması vəistənilən ərazi miqyasında situasiyanın inkişafına təsir üçün şərait yaratmaq tendensiyası meydana çıxır. Oxşar taktika müəyyən ölçüdə ABŞ- ın nüvəüstünlüyüilə müəyyənləşən qarşılıqlı fəaliyyət modeli çərçivəsindən çıxmamasına səbəb olur. Strateqiyanın ikinci variyantı 2 ali dövlətin qarşılıqlı fəaliyyəti çərçivəsində hansısa qüvvələr balansının pozulması ilə müəyyən edilir. İttifaqın süqutu, həmçinin dövrü gözləmələr böhranı keçmiş SSRİ-n, Mərkəzi, Orta və Cənub Şərqi Asiya ərazisində eksponsiyanın qeyri hərbi metodlarının aktivləşdirilməsi və bir sıra ölkələrin yüksək iqtisadiinkişaf tempinə səbəb oldu. Bu ölkələrin iqtisadiyyatının intensiv inkişafı yeni keyfiyyət formasında – hər bir ölkənin tələbatı artıran malların ixracını artırmaq üçün imkan tapdığı hər məkanda əhəmiyyətli dərəcədə tutumlu bazarın artmasındadır. Bu idxala kömək etdi və stimullaşdırdı. Hazirki situasiya göstərirkiölkələr öz tələbatını kifayyət qədər yüksək səvviyədə gizlədə bilmirsə, istehsal o qədərdə xarici bazarın xidmətinə yönəlir – tərəfdaşölkələrin iqtisadiyyata qarşılıqlı əlavələri baş verdi.

# Fəsil 4. Azərbaycan dövlətinin İqtisadi siyasəti və onun reallaşması istiqamətləri

## 4.1 Azərbaycan dövlətinin Xarici ticarət konsepsiyası və xarici ticarət siyasəti.

Xarici ticarət konsepsiyası və xarici ticarət siyasəti Azərbaycanın xarici siyasəti həm ikitərəfli formada, həm də beynəlxalq təşkilatlar

çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Bizim strateji xəttimiz var və bu xəttə sadiqik. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir. (Cədvəl -3; 4.)

**Xarici ticarət dövriyyəsi (faizlə)**
***Foreign trade turnover** (per cent)*

| İllər *Years* | | | Dövriyyə *Turnover* | İdxal *Import* | İxrac *Export* |
|---|---|---|---|---|---|
| | | **əvvəlki ilə nisbətən faktiki qiymətlərlə** ***current prices, as per cent to previous year*** | | | |
| 2006 | | | 136,0 | 125,1 | 146,6 |
| 2007 | | | 101,1 | 108,5 | 95,1 |
| 2008 | | | 466,6 | 125,5 | 788,3 |
| 2009 | | | 37,9 | 85,4 | 30,8 |
| 2010* | Statistika məlumatı[1] | *Data of Statistics[1]* | 106,5 | 105,0 | 106,9 |
| | Gömrük məlumatı[2] | *Data of Customs[2]* | 120,0 | 105,0 | 125,3 |
| 2011* | Statistika məlumatı[1] | *Data of* Statistics[1] | 104,0 | 145,3 | 92,6 |
| | Gömrük məlumatı[2] | *Data of Customs[2]* | 103,9 | 145,3 | 88,7 |
| 2012 * | Statistika məlumatı[1] | *Data of Statistics[1]* | 95,5 | 96,9 | 95,1 |
| | Gömrük məlumatı[2] | *Data of Customs[2]* | 89,3 | 96,9 | 86,2 |
| 2013 * | Statistika məlumatı[1] | *Data of Statistics[1]* | 102,7 | 109,1 | 100,7 |
| | Gömrük məlumatı[2] | *Data of Customs[2]* | 106,3 | 109,1 | 105,1 |
| 2014 * | Statistika məlumatı[1] | *Data of Statistics[1]* | 95,7 | 85,4 | 99,0 |
| | Gömrük məlumatı[2] | *Data of Customs[2]* | 94,1 | 85,4 | 98,0 |
| 2015 * | Statistika məlumatı[1] | *Data of Statistics[1]* | 99,8 | 99,5 | 99,9 |
| | Gömrük məlumatı[2] | *Data of Customs[2]* | 96,6 | 99,5 | 95,4 |

**Xarici ticarət dövriyyəsi (mlyn. ABŞ dolları)**
***Foreign trade turnover*** *(mln. US dollars)*

| İllər *Years* | | | Dövriyyə *Turnover* | İdxal *Imports* | İxrac *Exports* | Saldo *Balance* |
|---|---|---|---|---|---|---|
| | | | **mlyn. ABŞ dolları** ***mln. US dollars*** | | | |
| 2006 | | | 11638,9 | 5266,7 | 6372,2 | 1105,5 |
| 2007 | | | 11771,7 | 5713,5 | 6058,2 | 344,7 |
| 2008 | | | 54926,0 | 7170,0 | 47756,0 | 40586,0 |
| 2009 | | | 20824,5 | 6123,1 | 14701,4 | 8578,3 |
| 2010 | Statistika məlumatı[1] | *Data of Statistics*[1] | 33160,7 | 6600,6 | 26560,1 | 19959,5 |
| | Gömrük məlumatı[2] | *Data of Customs*[2] | 27960,8 | 6600,6 | 21360,2 | 14759,6 |
| 2011 | Statistika məlumatı[1] | *Data of Statistics*[1] | 44161,7 | 9756,0 | 34405,7 | 24649,7 |
| | Gömrük məlumatı[2] | *Data of Customs*[2] | 36326,9 | 9756,0 | 26570,9 | 16814,9 |
| 2012 | Statistika məlumatı[1] | *Data of Statistics*[1] | 43813,5 | 9652,9 | 34160,6 | 24507,7 |
| | Gömrük məlumatı[2] | *Data of Customs*[2] | 33560,9 | 9652,9 | 23908,0 | 14255,1 |
| 2013 | Statistika məlumatı[1] | *Data of Statistics*[1] | 43554,1 | 10712,5 | 32841,6 | 22129,1 |
| | Gömrük məlumatı[2] | *Data of Customs*[2] | 34687,9 | 10712,5 | 23975,4 | 13262,9 |
| 2014 | Statistika məlumatı[1] | *Data of Statistics*[1] | 39407,5 | 9187,7 | 30219,8 | 21032,1 |
| | Gömrük məlumatı[2] | *Data of Customs*[2] | 31016,3 | 9187,7 | 21828,6 | 12640,9 |
| 2015 | Statistika məlumatı[1] | *Data of Statistics*[1] | 25781,0 | 9221,4 | 16559,6 | 7338,2 |
| | Gömrük məlumatı[2] | *Data of Customs*[2] | 20645,9 | 9221,4 | 11424,5 | 2203,1 |

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkələrin bir-birindən asılılığının getdikcə güclənməsi, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq meydana çıxan problemlərin mürəkkəbləşməsi, hər şeydən əvvəl, milli iqtisadiyyatın formalaşması və ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı respublikanın xarici iqtisadi fəaliyyətinin konseptual əsaslarının işlənib hazırlanmasından asılıdır. Qeyd etmək lazımdır ki, müasir dünya təcrübəsinin və bütövlükdə, BIM-in nəzəri əsaslarının sistemli təhlili yuxarıda qeyd olunanların obyektiv xarakter daşıdığını göstərir. Xarici ticarət xarici iqtisadi əlaqələrin realizasiyasının əsas mexanizmi kimi çıxış edir. BİM sistemində sərhədlərin getdikcə silinməsi, texnologiya,

nəqliyyat və rabitə sferalarında baş verən əsaslı kefiyyət dəyişiklikləri nəticəsində geniş təkrar istehsal sferasının başlıca bazaları olan istehsal və mübadilənin daha da dərinləşməsi prosesini sürətləndirməklə real fakt kimi meydana çıxmışdır. Bu gün istehsal edilmiş mal və xidmətlərin əsas hissəsi xarici ticarət vasitəsi ilə bazara çıxarılır, ya da həmin məhsulların istehsalında xarici komponentlərdən istifadə olunur. Son 40 il ərzində beynəlxalq mal dövriyyəsi 15 dəfə, istehsal isə cəmi 6 dəfə artmışdır. Azərbaycan Respublikasının potensial imkanları baxımından «kiçik ölkə» olduğunu, yəni nəinki dünya bazarında, hətta regional bazarlarda belə mövcud situasiyaya təsir etmək imkanının yoxluğunu, əksinə, özünün bütövlükdə iqtisadi fəaliyyətinin təşkili və inkişafında real vəziyyətə uyğunlaşmaq məcburiyyətində qaldığını qəbul ediriksə, onda ölkənin xarici ticarət konsepsiyasının formalaşdırılmasında göstərilən cəhətləri nəzərə almaq və onu qlobal kontekstdə araşdırmaq lazım gəlir. (Cədvəl - 5. )

**Əsas sosial-iqtisadi göstəricilər** (əvvəlki ilə nisbətən, faizlə)

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|
| Əhalinin sayı, (ilin sonuna) | 101,3 | 101,3 | 101,3 | 101,3 | 101,1 |
| İqtisadi fəal əhalinin sayı[1)] | 100,3 | 100,5 | 100,9 | 100,8 | 101,2 |
| Məşğulluq xidmətlərində işsiz statusu verilmiş şəxslərin sayı | 100,7 | 95,6 | 94,0 | 87,8 | 92,4 |
| Ümumi daxili məhsul | 126,4 | 134,5 | 125,0 | 110,8 | 109,3 |
| Sənaye məhsulu | 133,5 | 136,6 | 124,0 | 106,0 | 108,6 |
| Kənd, meşə və balıqçılıq təsərrüfatı məhsulu | 107,5 | 100,9 | 104,0 | 106,1 | 103,5 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 117,2 | 108,1 | 119,8 | 131,8 | 81,6 |
| Nəqliyyat sektorunda yük daşınması | 109,4 | 113,5 | 115,1 | 109,3 | 104,0 |
| Nəqliyyat sektorunda sərnişin daşınması | 104,8 | 106,3 | 108,0 | 108,2 | 106,9 |
| İnformasiya və rabitə xidmətləri | 138,1 | 123,0 | 127,3 | 129,8 | 113,5 |
| Pərakəndə ticarət dövriyyəsi | 113,0 | 113,2 | 114,9 | 115,5 | 108,7 |
| İaşə dövriyyəsi | 126,1 | 128,3 | 135,7 | 134,9 | 117,1 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər | 126,1 | 142,1 | 133,8 | 129,7 | 112,5 |
| Sərəncamda qalan real gəlirlər | 112,6 | 115,5 | 122,6 | 120,2 | 109,6 |
| Əhalinin gəlirləri[2)] | 122,3 | 126,5 | 142,7 | 142,4 | 109,0 |
| Son istehlak xərcləri[3)] | 117,8 | 124,2 | 136,4 | 141,7 | 113,3 |
| Orta aylıq nominal əmək haqqı | 124,3 | 120,6 | 144,8 | 127,2 | 108,6 |
| **Statistika məlumatı:** | | | | | |
| İxrac (cari qiymətlərlə) | - | - | - | - | - |
| İdxal (cari qiymətlərlə) | - | - | - | - | - |
| **Gömrük məlumatı:** | | | | | |
| İxrac (cari qiymətlərlə) | 120,2 | 146,6 | 95,1 | 788,3 | 30,8 |
| İdxal (cari qiymətlərlə) | 119,8 | 125,1 | 108,5 | 125,5 | 85,4 |

Bu baxımdan xarici ticarət konsepsiyası inkişaf mərhələlərinə uyğun olaraq iki dövr üçün işlənib hazırlanmalıdır.

1). Keçid dövrünün xarici ticarət konsepsiyası.

2). Real bazar dövrünün xarici ticarət konsepsiyası.

1. Keçid dövrü öz mahiyyəti etibarı ilə respublikada bazarın formalaşması və həmin keyfiyyət aspektində real bazar münasibətlərinin təşəkkülü ilə başa çatmalıdır.

2. Real bazar münasibətlərinin təşəkkülü prosesi başa çatdıqdan sonra ölkədə həm iqtisadi bazisin sosial iqtisadi mahiyyətində, həm də

cəmiyyətin siyasi təşkilində köklü keyfiyyət dəyişiklikləri baş verməklə ölkənin dünya iqtisadiyyatına funksional inteqrasiyası baş verəcəkdir. Göründüyü kimi, xarici ticarətin konseptual əsasları ölkənin inkişaf mərhələlərinə uyğun şəkildə formalaşdırılmalı və metodoloji prinsiplərin tarixi səciyyə daşıdığı birmənalı şəkildə qəbul olunmalıdır. Ölkənin xarici ticarət konsepsiyası bütövlükdə iqtisadi təhlükəsizlik konsepsiyasının tərkib elementi kimi nəzərdən keçirilməli və formalaşdırılmalıdır. Belə ki, dövlətin iqtisadi təhlükəsizlik sisteminin yaradılması və möhkəmləndirilməsi başlıca olaraq ticarətin təşkili və inkişafından birbaşa asılıdır. Belə ki, iqtisadi münasibətlərin getdikcə dərinləşməsi ölkənin həm iqtisadi təhlükəsizlik konsepsiyasında, həm də xarici ticarətdə əsaslı dəyişikliklər tələb edir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkələrin inkişaf yollarının seçilməsi son dərəcə mühüm məsələlərdən biridir. Ümumiyyətlə, milli iqtisadiyyatın xarici amillərlə sıx əlaqəliliyi və qarşılıqlı asılılığı baxımından 3 inkişaf modelini fərqləndirmək olar:

1) İqtisadiyyatın ixrac yönümünün yüksəldilməsini nəzərdə tutan inkişaf modeli;

2) İdxalı əvəz edəcək istehsal sahələrinin inkişaf modeli;

3) İqtisadi inteqrasiya modeli. Bu modellərdən hər hansı birinin seçilməsi öz mahiyyəti etibarı ilə xarici ticarət konsepsiyasının formalaşdırılması deməkdir.

Buna görə də Azərbaycanın mövcud potensialı baxımından bunların hansının daha mütərəqqi və məqsədə uyğun olduğunu araşdırmaq zəruridir. Beləliklə, ixrac yönümlü inkişaf müasir beynəlxalq iqtisadi münasibətlər sistemində mühüm yer tutan modellərdən biridir və milli iqtisadiyyatın göstərilən istiqamətdə inkişafını tələb edir. Lakin Azərbaycan Respublikasının bu modeli tətbiq etməsi üçün aşağıda göstərilən bir sıra problemlərin həlli vacibdir: 1. Dünya bazarında yaranmış vəziyyət məhsul və xidmətlərin ixracında tamamilə yeni

amillərə və parametrlərə əsaslanmağı tələb edir. Belə ki, müasir texnika və texnologiyanın tətbiqi, yeni mallar istehsal artımının və rəqabətin qeyri-müəyyənliyi dünya standartlarına cavab verməyən məhsullar istehsal edən Azərbaycanın ixrac imkanlarını xeyli məhdudlaşdırır; 2. İxrac yönümlü inkişaf rəqabətə davam gətirməyi, yəni üstünlüklər yaratmağı tələb edir. Yəni, infrastruktura, marketinq və yeni texnologiyaların əldə edilməsi məqsədi ilə fasiləsiz olaraq investisiya qoyuluşları həyata keçirilməlidir. Aydındır ki, müasir şəraitdə maliyyə-valyuta resursları, hətta minimal tələbləri ödəmək iqtidarında olmadığı bir dövrdə göstərilən istiqamətlərdə iri həcmli kapital qoyuluşlarının həyata keçirilməsi mümkün deyildir; 3. Hətta, bütün imkan və vasitələrin mövcudluğu şəraitində belə, ixrac yönümlü inkişaf modelinin tətbiqi və onun rolunun yüksəldilməsi istənilən nəticəni verə bilməz. Belə ki, milli iqtisadiyyatın ixrac yönümünün gücləndirilməsi xarici bazarlardan ixrac asılılığı yaradır və nəticədə daxili sosial-iqtisadi situasiyaya güclü təsir göstərir. Aydındır ki, mənəvi tərəf müqabillərində də iqtisadi situasiyanın pisləşməsi zəncirvari reaksiya doğurmaqla ölkədə staqflyasiyanı sürətləndirməklə böhranlı vəziyyət yaradır. Buna görə də ixracat prosesinin əsas hissəsinin yönəldiyi xarici bazarlara əməli yardım edilməsi problemi meydana çıxır ki, bu da qlobal qarşılıqlı asılılığı yeni keyfiyyət aspektləri kimi səciyyələndirə bilər. Ölkənin xarici ticarət konsepsiyasının ağırlıq mərkəzi kimi idxalı əvəz edəcək istehsal sahələrinin təşkili modelinin də bir sıra nöqsanları var. Əlbəttə, iqtisadi təhlükəsizliyi baxımından bir sıra mal və mal qrupları üzrə idxal asılılığına son qoyulması mühüm problemlərdən biridir. Lakin bütün məhsul və xidmətlər üzrə idxalı əvəz edəcək istehsal sahələrini inkişaf etdirmək həm mövcud protensial, həm də sosial-İqtisadi səmərəliliy baxımından qeyrimümkündür. Idxalı əvəz edəcək istehsal sahələrinin təşkili iri həcmli investisiya qoyuluşları tələb edir, digər tərəfdən, ölkənin müxtəlif istehsal amilləri ilə təchizi dərəcələri arasındakı fərq

öz-özlüyündə xarici ticarətin strukturunu müəyyənləşdirmək imkanı verir ki, bunun da heç bir əsas olmadan dəyişdirilməsi xarici ticarət sferasında böyük itkilərlə nəticələnə bilər. Bazar İqtisadiyyatına keçid dövrü ərzində Azərbaycanın xarici ticarət konsepsiyasının əsas metodoloji prinsipi müqayisəli üstünlüklərdən ibarət olmalıdır. Buna görə də, bütün məhsul növləri üzrə idxalı əvəz edəcək istehsal sferalarının təşkili istənilən səmərəni verməyəcəkdir. Ölkənin xarici ticarət konsepsiyasının əsas istinad bazası regional iqtisadi inteqrasiya çərçivəsi daxilində yaradılan azad ticarət blokları ola bilər. Avropa Azad Ticarət Assosiasiyası tipli ticarət zonalarının təşkili həm keçid dövrü ərzində, həm də perspektivdə daxili və xarici iqtisadi fəaliyyətin optimal uyğunluğuna əsaslanan xarici ticarət konsepsiyasını formalaşdırmağa və tətbiq etməyə imkan verərdi. Aydındır ki, Azərbaycan keçid dövrünün spesifik xüsusiyyətləri baxımından regional iqtisadi inteqrasiyaya funksional qoşulması qeyrimümkündür. Məhz buna görə də, azad ticarət bloklarına daxil olmaq birbaşa müasir gerçəklikdən doğan nəticədir. Hal-hazırda Azərbaycan Avrasiya məkanında yeganə ölkədir ki, eyni zamanda 5 regional qruplaşmada iştirak edir: 1. Müstəqil Dövlətlər Birliyi (MDB) 2. İqtisadi Əməkdaşlıq Təşkilatı (IƏT) 3. Qara dəniz hövzəsi ölkələrinin İqtisadi əməkdaşlıq təşkilatı 4. Türk dövlətlərinin iş birliyi şurası 5. GUÖAM (Gürcüstan, Ukrayna, Özəbkistan, Azərbaycan, Moldova). Azərbaycanın xarici ticarət konsepsiyası bütövlükdə ölkənin İqtisadi təhlükəsizlik sisteminə, ilk növbədə milli rəqabət üstünlüklərinin formalaşdırılması və inkişafına əsaslanmalıdır. Göstərilən tərzdə xarici ticarət konsepsiyasının istinad nöqtəsi müəyyənləşdirilərək, onun istiqamətlərini aşağıdakı kimi formalaşdırmaq olar: I. Strateji istiqamətlər: ixracın dövlət həvəsləndirilməsi sisteminin təşkili; bazar subyektlərinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məqsədi ilə dövlət proqramlarının hazırlanması; daxili bazarın milli mənafelərə uyğun qorunması. II. İxrac fəaliyyəti: ölkənin ixrac potensialının

formalaşdırılması və inkişaf etdirilməsi; ixrac strukturunun təkmilləşdirilməsi, əsas ağırlıq mərkəzinin hazır məhsul və xidmətlər üzərinə keçirilməsi; ölkənin ixrac potensialının müqayisəli üstünlük prinsipi əsasında qiymətləndirilməsi; texnologiya tutumlu məhsulların ixracının artırılması; ixrac yönümlü istehsalın inkişafı və modernləşdirilməsində xarici investisiyaların aktiv surətdə cəlb edilməsi. III. İdxal sferası üzrə: mühüm məhsul növlərinin daxili tələbatı ödəmək səviyyəsində istehsalının təşkili; ölkənin iqtisadi asılılığının azaldılması; idxalın strukturuna nəzarət. Aydındır ki, Azərbaycanın xarici ticarət konsepsiyası göstərilən istiqamətlərin üzvi vəhdətinə əsaslanmaqla formalaşdırılmalı və ölkənin xarici ticarəti bu prinsiplər bazasında həyata keçirilməlidir. Xarici ticarət siyasəti dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Hətta, son dövrlərdə İEÖ-in xarici siyasət idarələri də beynəlxalq İqtisadi əlaqələrdə, xüsusi ilə xarici ticarət əlaqələrinin tənzimlənməsində yaxından iştirak edirlər.

## 4.2 Xarici ticarət təşkilatlarının xarakteristikası və quruluşu

Xarici ticarət təşkilatlarının xarakteristikası və quruluşu sərbəst ticarət və gömrük ittifaqı haqqında olan razılaşma dünya ölkələri arasında daha geniş yayılmağa başlamışdır. Beynəlxalq iqtisadi sistemdə rəqabətin artdığı şəraitdə, öz iqtisadi vəziyyətini yaxşılaşdırmağa çalışan dövlətlər digərləri ilə malların, kapitalın və onlarla bağlı xidmətlərin sərbəst hərəkətini təmin edən sazişlər imzalayırlar. Əksər belə müqavilələr beynəlxalq, dövlətlərarası və ya regional xarakter daşıyır. Belə təşkilatlara Ümumdünya Ticarət Təşkilatını (ÜTT), Ümumdünya Gömrük Təşkilatını (ÜGT), Avropanın Sərbəst Ticarət Assosiasiyasını

(ASTA), Sərbəst Ticarət Haqqında Şimali Amerika Razılaşmasını (NAFTA), Cənubi-Şərqi Asiya Dövlətlərinin Assosiasiyasını (ASEAN), Mərkəzi Avropanın Sərbəst Ticarət Assosiasiyası (MASTA), OPEK-i və başqa bir sıra regional təşkilatları aid etmək olar. Bu təşkilatların əsas məqsədi bağlanmış müqavilə əsasında sərbəst ticarət siyasəti yürütmək şərtilə, xarici ticarətdə maneçilik törədən amillərin aradan qaldırılmasıdır. Bunun da əsas xüsusiyyətləri aşağıdakılardır: ticarətin gömrük və digər məhdudiyyətlərdən azad olunması; gömrük rüsumları və qeyri-tarif məhdudiyyətlərinin qarşılıqlı şəkildə tədricən aradan qaldırılması; birtərəfli qaydada gömrük rüsumlarının qaldırılmasının mümkün olmaması; yeni ticarət məhdudiyyətlərinin tətbiq olunması. Göstərdiyimiz bu şərtlər dövlətə, xarici iqtisadi fəaliyyət sistemini təkmilləşdirməyə və beynəlxalq ticarət təcrübəsini daha yaxşı mənimsəməyə imkan verir. Sərbəst ticarət zonasında fəaliyyətin tənzimlənməsi həmişə heç bir dövlətüstü idarəetmə sistemi yaradılma-dan həyata keçirilir. Bütün qərarlar iştirakçı dövlətlərin iqtisadi strukturlarına (maliyyə, xarici ticarətlə bağlı olan və s.) rəhbərlik edən şəxslər tərəfindən birilkdə qəbul edilir. Bu qərarları tərəflər şərtsiz yerinə yetirir və XİF sahəsindəki öhdəliklər və kordinasiya təminatının icrasını məcbur edir. Lakin sərbəst ticarət zonaları mənfi cəhətlərdən də xali deyildir. Bu özünü yerli istehsal mllarının daha keyfiyyətli idxal malları ilə rəqabətdə tab gətirməməsi faktorunda göstərə bilər. Nəticədə isə, xarici mallar yerli istehsal mallarını daxili bazardan sıxışdırıb çıxarır. Bu isə həmişə dövlət tənzimlənməsi ilə aradan qaldırıla bilən iqtisadi bir problemdir. Sərbəst ticarət zonasına ən yaxşı nümunə kimi NAFTA, EFTA və s. göstərmək olar. Bu zonalar daxilində vahid xarici tarif dərəcəsi yoxdur. Sazişin əsas xüsusiyyəti ondan ibarətdir ki, iştirakçı ölkələr arasında ticarət zamanı gətirilən mallara vergi, rüsum və digər məhdudiyyətlər tətbiq olunmur. İkinci dünya müharibəsindən sonra dünya ölkələri beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində «sivil» oyun

qaydalarına böyük ehtiyacın olduğunu dərk edirlər. Müharibədən sonrakı Beynəlxalq İqtisadi və maliyyə sisteminin əsası 1944-cü ildə çağırılan «Bretton Woods» konfransında qoyulmuşdu. Konfransın nəticəsində iki təşkilatın qurulmasına qərar verildi. 1. Dünya Bankı. 2. Beynəlxalq Valyuta Fondu. Dünya Bankı Avropa İqtisadiyyatının dirçəlməsinə yardım etmək, BVF isə beynəlxalq pul və maliyyə sisteminin durğun bir şəkildə işləməsini təmin etməlidir. Beynəlxalq ticarət əlaqələrinin tənzimlənməsi üçün ÜTT-nin yaradılması cəhdi müvəffəqiyyətsizliyə uğradı. Bu təşkilatın Nizamnaməsi olan «Havana Xartiyası» qəbul olunmadı. Lakin az ölkə bu xartiya əsasında 1947-ci ildə Ticarət və Tarif üzrə Baş Saziş imzaladılar. Bu saziş digər ölkələr üçün açıq saxlınıldı. Tədricən bir sıra ölkələrin bu sazişə qoşulması, faktiki olaraq dünya ticarət problemlərini müzakirə edən və ticarət-siyasi xarakterli mübahisələri həll edən beynəlxalq təşkilata çevrilməsi ilə nəticələndi. Bu təşkilatın üzvləri 1994-cü ilə qədər raund adlanan ticarət danışıqları aparmışdır. İlkin olaraq bu danışıqlar zamanı gömrük rüsumlarının azaldılması haqqında öhdəlik qəbul olunmuş, sonra isə beynəlxalq ticarətdə qeyri-tarif tədbirlərinin (kvotalaşdırma, lisenziyalaşdırma və digər inzibati tədbirlər) aradan götürülməsi məsələləri həll edilmişdir. Uruqvay raundunda TTBS əsasında ÜTT yaradıldı (1986-1994-cü illər). 1994-cü il aprelin 15-də Mərakeşdə imzalanan yekun aktı ÜTT-nin təsis edilməsi haqqında Sazişin imzalanması üçün yol açdı. ÜTT TTBS-in varisidir və öz fəaliyyətinə 1995-ci ilin yanvarın 1-dən başlamışdır. Mənzil qərargahı Cenevrədə yerləşir. ÜTT ticarət sazişləri spektrində daha geniş nəzarəti həyata keçirir və mübahisəli məsələlər üzrə bir sıra qərarların qəbulu qaydalarının təkmilləşdirilməsi ilə əlaqədar daha geniş səlahiyyətə malikdir. TTBS çərçivəsində keçirilən raundların gedişində ardıcıl olaraq üzv dövlətlərin gömrük tarif dərəcələrinin aşağı endirilməsi, həmçinin xarici ticarətin nizama salınmasında qeyri-tarif tənzimlənmələri, mülki aviasiya texnikasının və toxuculuq mallarının

ticarətinə aid mühüm məsələlərə aid Sazişlər işlənib hazırlanmış, 8-ci raundda əsas mülkiyyətin mühafizəsi və xidmət ticarəti kimi (bank, sığorta, nəqliyyat və s.) yeni sahələrin genişlənməsi məsələlərinə baxılmışdır. ÜTT-nin əsas məqsədi ticarətdə idxal rüsumlarının səviyyəsinin ardıcıl olaraq aşağı salınması, kəmiyyət və digər qeyri-tarif maneələrinin aradan qaldırılması və başlıca olaraq tarif üsullarından istifadə etməklə beynəlxalq ticarətin liberallaşdırılmasına nail olmaqdır. ÜTT-nin əsas prinsip və qaydaları aşağıdakılardır: - ticarətdə qarşılıqlı surətdə daha əlverişli şəraitin yaradılması; - xarici mənşəli mal və xidmətlərə mülki recimlərin tətbiqi; - ticarət mübahisələrinin danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilməsi. ÜTT-nin funksiyalarına aşağıdakılar aiddir:  a) Uruqvay raundunun bütün sazişlərinin və gələcəkdə imzalanması nəzərdə tutulan sazişlərin qəbul edilməsi və yerinə yetirilməsinin təşkili; b) beynəlxalq imzalanmış və Nazirlər Konfransında daha geniş problemlərə aid olan məsələlər üzrə ÜTT üzvləri arasında danışıqların təşkili; c) ÜTT üzvləri arasında mübahisələrə və münaqişəli vəziyyətlərə baxışın təmin edilməsi; ç) ÜTT-yə üzv dövlətlərin ticarət siyasətinə mütəmadi nəzarətin təşkilinə təminat. ÜTT-nin bütün üzv dövlətləri «çoxtərəfli ticarət sazişləri» adı altında birləşən sazişlərin və digər sənədlərin yerinə yetirilməsi üzrə öhdəlikləri qəbul edirlər. ÜTT-yə üzv olan 145 ölkə dünya ticarətinin 97%-dən az olmayaraq öz əllərində cəmləmişdir. ÜTT-də 180-dən çox dövlət iştirak edir. 20-dən çox dövlət Baş Sazişə qoşulma mərhələsindədir. Tacikistan istisna olmaqla, bütün MDB dövlətləri təşkilata üzv olmaq prosesinin müxtəlif mərhələlərindədirlər. ÜTT-nin strukturu bir sıra bölmələrdən ibarətdir. ÜTT-nin ali orqanı bütün iştirakçı dövlətlərin nümayənədələrini birləşdirən Nazirlər Konfransıdır. Konfransın sessiyaları Uruqvay raundunun sazişi ilə əlaqədar prinsipial məsələlər üzrə qərarların müzakirəsi və qəbulu üçün iki ildə bir dəfədən az olmayaraq çağırılır. Konfrans aşağıdakı komitələri təsdiq edir: -

ticarət və inkişaf üzrə; - ödəmə balansının tarazlığını təmin etmək məqsədilə məhdudlaşdırma üzrə; - büdcə, maliyyə və inzibati; - ətraf mühit və ticarət üzrə. Konfrans ÜTT-nin Baş Direktorunu təyin edir. O da öz növbəsində ÜTT katibliyi şöbələrnin əməkdaşlarını təyin edir və Nazirlər Konfransının qəbul etdiyi müddəalara uyğun olaraq onların xidməti şərtlərini və vəzifələrini müəyyən edir. ÜTT-nin qərarları konsensus yolu ilə qəbul edilir. Əgər konsensus olmazsa qərarlar əksər səs çoxluğu ilə qəbul olunur. Ticarət, xidmət, əqli mülkiyyət hüquqları, qəbul edilmiş öhdəliklərdən azad olmaq üzrə sazişlərin müddəaları şərti səs çoxluğu ilə qəbul edilir. Nazirlər Konfransının sessiyalararası dövründə onun funksiyasını Baş Şura həyata keçirir. Bundan başqa Baş Şura mübahisələrin nizama salınması üzrə Orqanın və Ticarət siyasətinə nəzarət üzrə orqanın fəaliyyətini həyata keçirir.

## 4.3 Azərbaycanın xarici iqtisadi təşkilatlarla əməkdaşlığının müasir vəziyyəti

Azərbaycanın xarici iqtisadi təşkilatlarla əməkdaşlığının müasir vəziyyəti Milli İqtisadiyyatın sivil təsərrüfatçılıq sisteminə inteqrasiya olunması, ticari-iqtisadi münasibətlərdə baş verən müsbət keyfiyyət və kəmiyyət dəyişikliklərinə, ilk növbədə, tam hüquqi-iqtisadi, idarəçilik baxımından qanunvericilik aktlarının qəbul edilməsi, bazar infrastrukturlarının formalaşdırılmasının və onların çevik fəaliyyət mexanizminin yaradılması əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Respublikamızın ticarət əlaqələrinin genişləndirilməsində və dərinləşdirilməsində ölkənin bir çox beynəlxalq iqtisadi təşkilatlarda iştirakı, regional iqtisadi-ticarət əməkdaşlığa qoşulması və ayrı-ayrı ölkələrdə bağlanmış ticarət müqavilələri müstəsna əhəmiyyət kəsb edir. İƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı) ilə Azərbaycan arasında əlaqələrin

təhlili əsasən ticarət sferasında aparılır. Çünki Azərbaycan bu beynəlxalq təşkilata cəmi 14 ildir ki, üzv olmuşdur və ölkəni əhatə edən sazişlər nisbətən təzə qəbul edildiyi üçün (preferensial tariflər haqıqnda, tranzit ticarət haqqında və s.) onların praktiki nəticələri barədə danışmaq hələ tezdir, digər tərəfdən, Azərbaycanın iştirak etdiyi bəzi İƏT layihələri (elmi fond, gəmiçilik təşkilatı, sığorta təşkilatı, ticarət və investisiya bankı və s.) bağlanmış niyyət protokolları şəklindədir. (Cədvəl -6)

**İqtisadi fəaliyyət növləri üzrə ən mühüm məhsulların istehsalı**
***Production of major industrial products by types of economic activity***

| Məhsullar | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 | Products |
|---|---|---|---|---|---|---|---|
| | | | **Mədənçıxarma sənayesi** *Mining* | | | | |
| Neft (qaz kondensatı da daxil olmaqla), min ton | 22214 | 50838 | 43375 | 43457 | 42076 | 41628 | *Oil (including gas condensate),thsd.ton* |
| ondan əmtəəlik | ... | 50693 | 42982 | 43163 | 41952 | 41570 | *of which commodity* |
| Qaz-cəmi, mlyn. kub m | 5732,1 | 26312 | 26796 | 29245 | 29555 | 29175 | *Gas-tolal, mln.m³* |
| ondan əmtəəlik | ... | 16673 | 17242 | 17895 | 18827 | 19236 | *of which commodity* |
| o cümlədən: | | | | | | | *including:* |
| təbii qaz | 1877,1 | 13943 | 13217 | 15301 | 15610 | 15512 | *natural gas* |
| ondan əmtəəlik | ... | 11875 | 12759 | 14601 | 14990 | 14895 | *of which commodity* |
| səmt qazı | 3855,0 | 12369 | 13579 | 13944 | 13945 | 13663 | *casing-head gas* |
| ondan əmtəəlik | ... | 4798 | 4483 | 3294 | 3837 | 4341 | *of which commodity* |
| Tikinti qumu (ümumi), min ton | 662,4 | 1178,0 | 2211,4 | 2138,6 | 1420,2 | 752,7 | *Mason's sand, thsd. ton* |
| Çınqıl, qırma daş, xırda çay daşı və çaxmaq daşı (əmtəəlik), min ton | 552 | 3468 | 3442 | 1392 | 1869 | 862,2 | *Gravel, peble, flint and crashed stone, thsd. tons* |
| İnşaat üçün əhəng daşı, min ton | 704,5 | 456,8 | 415,9 | 443,9 | 458,5 | 402,1 | *Calcareous building stone, thsd. tons* |
| Duz, ton | 11202 | 11633 | 28550 | 32021 | 35156 | 39461 | *Salt, ton* |
| ondan əmtəəlik | ... | 4449 | 5345 | 6268 | 5173 | 4743 | *of which commodity* |
| Qızıl, kq | - | 2092 | 1562 | 1619 | 1873 | 2229 | *Gold, kg* |

Tədqiqatda Azərbaycanın İƏT ilə əlaqələrinə, bu təşkilatın ixrac ehtiyatında yerinin öyrənilməsinə, ticarət əlaqələrinə və onun yaxşılaşdırılmasına üstünlük verilməsini məqsədəuyğun hesab etmək olar. Qeyd etdiyimiz kimi, respublikamızın xarici ticarət dövriyyəisndə İƏT yeddinci yerdədir. Təhlil göstərir ki, 2005-ci ildə 1999-cu ilə nisbətən Azərbaycanın IƏT ilə ticarət dövryyəsi 286726,9 mln.dollar artmış (409306,1 mln.dollardan 696036 mln. dollara çatmışdır), Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində İƏT ölkələrinin payı isə 28,5% artmışdır. Ümumilikdə İƏT ölkələri ilə ticarət dövriyyəsi 30% artmışdır. Bu da Azərbaycanın İƏT üzv ölkələri ilə əlaqələrinin genişlənməsinin göstəricisidir. 2005-ci ilin yeknlarına görə İƏT Azərbaycanın idxalında 22% xüsusi çəki ilə İƏT (49,9%), Qara dəniz İƏT (37,8%), Asiya-Sakit Okeanı İƏT (36,6%), MDB (32%), İslam Konfransı Təşkilatı (26,1%), ixracında isə 8,7%, xüsusi çəki ilə İƏİT (71,7%), Avropa Birliyi (60,4%), Qara dəniz İƏT (19,3%), MDB (13,5%), İslam Konfransı Təşkilatından (9,76%) geri qalmaqla hər iki göstərici üzrə altıncı yerdə durur (G.Gənciyev: BİM: müasir vəziyyət və inkişaf problemləri). Ölkənin 2001-2005-ci illər ərzində ixracında İƏT üzvü olan 5 dövlət (Türkiyə, Özbəkistan, İran, Qazaxıstan, Türkmənistan), idxalında isə İƏT üzvü olan 4 dövlət (Türkiyə, İran, Qazaxıstan, Türkmənistan) ilk 25 ölkə sırasnıda yerləşmişlər. İƏT üzvü olan ölkələrlə respublikamızın ticarət-iqtisadi münasibətlərinin dinamikasının təhlili və inkişaf meylləri aydın göstərir ki, bu dövlətlərin Azərbaycanın ixrac ehtiyatlarından istifadə edilməsində rolu getdikcə artır. Azərbaycanla İƏT ölkələrinin iqtisadi əməkdaşlığının dərinləşməsinə təkan verəcək ən mühüm səbəblərdən biri onların çoxunun yüksəliş dövründə olması, arasıkəsilmədən orta və yüksək inkişaf templəri göstərməlildir. Həm də İƏT üzvlərinin makroİqtisadi göstəricilərinin xeyli hissəsinin yaxınlığı, iqtisadi durumlarının, problemlərinin oxşar olması müxtəlif sahələrdə (proteksionizm və ya

təşkilat daxilində liberallaşma, antiinflyasiya, xarici ticarət, valyutakredit) uyğunlaşdırılmış iqtisadi siyasət yeridilməsini və çətinliklərin birgə aradan qaldırılmasını daha asanlıqla mümkün edir. Respublikamızın bu ölkələrlə idxal-ixrac əməliyyatlarının strukturuna baxsaq görərik ki, Azərbaycanın İƏT ölkələrindən idxalında hazır məhsulların payı 26%-dən çox olduğu halda, Azərbaycanın bu ölkələrə ixracında hazır məhsulların payı 5,9% təşkil edir. Onlardan ümumiyyətlə ölkəyə idxal olunan məhsulların əsas hissəsini elektrik enercisi, buğda unu, un məmulatları, şəkər, sement, soyuducu, rabitə aparatları, onlara ixrac olunan məhsulların əsas hissəsini isə neft və neft məhsuları, alüminium oksidi, plastik kütlələr, pambıq lifi təşkil edir. İƏT ölkələrindən idxalın 8,6%-i, ixracın 1,5%-i istehsal təyinatlı avadanlıq və maşınlardır. 54 Eyni zamanda, Azərbaycanın hazırda istehsal etdiyi məhsulların əksəriyyətinin keyfiyyəti və rəqabət qabiliyyəti, dünya bazarlarında təklif olunan analoci əmtəələrin keyfiyyəti, İƏT ölkələrinin bazarlarının tələbi, alıcılıq qabiliyyəti nəzərə alınarsa, bu təşkilatla inteqrasiya əlaqələrinin gücləndirilməsi ölkəmiz üçün daha cəlbedici olar. Çünki ölkəmizdə istehsal olunan məhsulların çoxu (xüsusilə qeyri-neft sektorunda) öz keyfiyyətinə görə əsasən İƏT-ə üzv dövlətlərin daxili bazarlarının tələblərinə cavab vermək iqtidarındadır. Bütün bunları ümumiləşdirərək Azərbaycanın İƏT ilə əməkdaşlığının aşağıdakı 4 istiqamətini əsaslandırmaq olar:

1. İqtisadiyyatın müxtəlif sahələrində birgə müəssisələrin yaradılması.

2. Qarşılıqlı nəqliyyat-kommunikasiya və ticarətin bütün növlərinin inkişaf etdirilməsi üçün əməkdaşlıq.

3. Regional statusa malik azad İqtisadi zonaların yaradılması.

4. Elmi-texniki əməkdaşlıq. Milli ticarət sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, bu sahədə iqtisadi-ticari əməkdaşlığının

genişləndirilməsi baxımından beynəlxalq səviyyədə əməkdaşlıq mühüm rol oynayır.

Bu baxımdan Azərbaycan Respublikasının Ümumdünya Gömrük Təşkilatına üzvlüyü mühüm əhəmiyyət kəsb edir. 1992-ci ildən bugünə qədər Azərbaycanın xarici və daxili ticarət siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin həyata keçirilməsi sayəsində ölkənin beynəlxalq əlaqələri daha da genişlənmiş və keyfiyyətcə yeni səviyyəyə çatmışdır. Ticarət qaydalarının sadələşdirilməsi məqsədilə Azərbaycanla ÜGT arasında XİF əmtəə namenklaturası (ƏN) əsasında vahid gömrük tarifinin işlənib hazırlanması, gömrük rüsumlarının alınması, tətbiq edilməsi, malların mənşə ölkəsinin təyin edilməsi, gömrük məqsədləri üçün malların qiymətləndirilməsi barədə razılaşmalar əldə edilmişdir. ÜGT-nin Baş Katibi Mişel Danenin müraciət məktubuna əsasən Azərbaycan «Malların təşkili və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında Beynəlxalq Konvensiya»-ya qoşulmaq barədə təklif almışdır. Bu təklif qəbul olunmuş və artıq ölkəmiz öz ticarət əlaqələrində bu konvensiyanın müddəalarını tətbiq edir. Fərəhləndirici haldır ki, 2001-ci ilin yanvarından respublikamız bu konvensiyaya qoşulan 101-cü dövlətdir. ÜGT-nin Brüssel şəhərində keçirilən sessiyalarında Azərbaycan ÜGT-nin Maliyyə Komitəsinə üzv seçilmişdir. ÜGT-nin bir sıra proqramları çərçivəsində DGK-nin əməkdaşları üçün narkotiklərin müəyyən edilməsi, riskin təyin edilməsi, yükün nəzarətdən keçirilməsi və gəmilərin yoxlanılması, hava və dəniz limanlarında, dəmir yolunda, gömrük sərhədlərində nəqliyyat vasitələrinə nəzarətə dair, nəzəri və praktiki seminarlar təşkil olunmuşdur. Artıq ölkəmiz ÜGT-nin Siyasi Komissiyasında təmsil olunur ki, bu da AR DGK-nin mühüm nailiyyətidir. 2000-ci il 6-8 iyulda ÜGT-nin sessiyasında təşkilatın mötəbər ali orqanı olan Siyasi Komissiyaya üzv seçilməsinin özü ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasının təzahürüdür. Məhz Siyasi Komissiyanın 17

üzvündən birini Azərbaycan Gömrük Təşkilatı təmsil edir. Bu isə həm milli, həm də beynəlxalq sahədə tərəqqi və təkan olmaqla beynəlxalq əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi məqsədi ilə ölkəmizin artan nüfuzunun bariz nümunəsi kimi məqsədyönlü gömrük siyasəti aparmaqla ölkə İqtisadiyyatının iqtisadi suverenliyinə təminata, iqtisadi təhlükəsizliyə və beynəlxalq inteqrasiyaya xidmət edir.

## 4.4. Azərbaycanın Beynəlxalq ticarət əməkdaşlığın perspektivləri

Azərbaycan Respublikası dövlət suverenliyi əldə etdikdən sonra onun xarici iqtisadi fəaliyyət sahəsində sərbəst, müstəqil siyasət yeritməsi obyetiv zə- rurətə çevrilmişdir, digər tərəfdən isə bunun üçün zəruri zəminlər yaranmışdır. Ölkə SSRI-nin tərkibində olduğu illər ərzində xarici ölkələrlə, hətta sabiq müttəfiq respublikalarla öz mənafeyini, ehtiyac və imkanları baxımından müstəqil iqtisadi əlaqələr həyata keçirmək imkanına malik deyildi. Azərbaycanın xarici ticarət əlaqələrinin təhlili göstərir ki, son illərdə başlanmış meyl – ticarət əlaqələrinin liberallaşdırılması, idxal və ixracın strukturu və coğrafiyasının genişləndirilməsi, ölkəmizin xarici ticarət təşkilatlarında iştirakı və bu təşkilatların qayda və metodlarını öz xarici ticarət siyasətinə tətbiqi və s. ticarət sferasında müsbət meyllər əmələ gəlmişdir. Azərbaycan, demək olar ki, dünyanın bütün qitələri

ilə ticarət - iqtisadi əlaqələrə malikdir.

(Cədvəl -8)




Lakin istehsal olunan məhsulların rəqabət qabiliyyətinin dünya bazarlarında aşağı olduğuna görə, respublika əsasən xammal ixrac edir. Son vaxtlarda dünya ölkələri arasında iqtisadi inteqrasiya güclənmişdir. Artıq hər 60 bir ölkənin iqtisadiyyatının inkişafı milli sərhədlərdən çıxaraq dünya iqtisadiyyatına qovuşur. Deməli, elə etmək lazımdır ki, ölkə dünya əmək bölgüsündə hazır məhsulla daha çox təmsil olunsun. Sənaye cəhətdən inkişaf etmiş ölkələr dünya bazarına əsasən hazır mhsul, qabaqcıl mütərəqqi texnologiya, daha zox elm tutumlu məhsullar çıxarır. Həmin texnologiyanı alan ölkələr isə tez bir zamanda onu tətbiq edərək, milli İqtisadiyyatın formalaşdırılması və inkişafını sürətləndirirlər. Azərbaycanın idxal və ixrac balansının təhlili göstərir ki, ölkəyə Avstraliya, Belçika, Bolqarıstan, Çin, Çexiya, Fransa, Almaniya, Macarıstan, Iran, Israil, Cənubi Koreya, Polşa, İsveçrə, Suriya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, ABŞ kimi güclü inkişaf

etmiş ölkələrdən texniki tərəqqinin əsasını təşkil edən sənaye sahələrinin məhsulları ilə bərabər, Azərbaycanda inkişafı və istehsalı üçün bütün imkanlar və amillər olan sənaye və kənd təsərrüfatı məhsulları da gətirirlər. Yuxarıda göstərilən ölkələrdən Azərbaycana ət, süd məhsulları, quş əti, çay, düyü, günəbaxan yağı, tünd spirtli içkiləri, üzüm, alma, armud, kolbasa, qənnadı məmulatları, meyvə-tərəvəz şirələri, siqaretlər, makaron məmulatları, mineral sular, bir sıra tərəvəzlər, məişət mebelləri, xalça və xalça məmulatları, elektrik cihazları, telefon aparatları, ayaqqabı, pambıq parçalar, kauçuk və rezin məmulatları, elektrik naqilləri və kabellər, sintetik yuyucu vasitələr, boyalar və s. gətirilir. Halbuki, həmin məhsulların istehsalı üçün ölkəmizdə bütün imkanlar və amillər mövcuddur. Həmin məhsulların istehsalı uzaq məsafələrdən səmərəsiz yükdaşımaların qarşısını alar, istehsalın səmərəliliyinin artmasını təmin edər, sosial geriliyi azaldar, milli gəliri artırar. Bütün bunların hamısı birlikdə əhalinin yaşayış səviyyəsinin artmasını təmin edər. Milli İqtisadiyyatımızın inkişafının əsas istiqamətlərindən biri də ictimai əmək bölgüsüdür ki, bunu da təbii-coğrafi, sosial-iqtisadi və milli amillər şərtləndirir. Ticarət əlaqələrinin inkişaf səviyyəsi, ictimai əmək bölgüsünün dərinləşməsi və cəmiyyətin məhsuldar qüvvələrinin inkişafı ilə bilavasitə əlaqədardır. Ticarət əlaqələrinin dinamikliyi İqtisadiyyatın ayrı-ayrı sahələri, müəssiəslər arasında uzun müddətə sabit istehsal əlaqələrinin olmasını tələb edir. Yükdaşımaların ümumi həcmində neft, qara metal, tikinti, meşə, yeyinti məhsulları yüksək xüsusi çəkiyə malikdir. Respublikadan kənara çıxarılan yüklərin strukturu ölkələrarası əmək bölgüsünün xarakterini müəyyən edir. Belə ki, Azərbaycandan kənara göndərilən yüklərin yarıdan çoxu neft məhsullarının payına düşür. İqtisadi-ticari əməkdaşlıq və ictimai əmək bölgüsü ölkə miqyasında əmək məhsuldarlığının artmasının təmin olunması, məhsul istehsalına sərf olunan maddi və əmək məsrəflərini, həmçinin iqtisadiyyatın bütün sahələrində kapital

qoyuluşunun və yüklərin nəql edilməsinə sərf edilən məsrəflərin ixtisar edilməsidir. Bu ictimai əmək bölgüsünün əsas məqsədi və istehsalın səmərəliliyinin əsas göstəricisidir. Ölkəmizin ticarət əlaqələri səmərəli əmək bölgüsünə və istehsalın kooperasiyasına əsaslanmalıdır. Bunun nəticəsində istehsal məsrəfləri azalar və əmək məhsuldarlığı yüksələrsə, ölkələrarası mal mübadiləsi qarşılıqlı faydalı olar. Xarici ticarət əlaqələrinin və onunla bağlı milli iqtisadiyyatın inkişafının tarixi xüsusiyyətləri, müxtəlif təbii və iqtisadi şərait, ölkənin əlverişli nəqliyyat iqtisadi vəziyyəti ilə əlaqədardır. Azərbaycan Avropa ilə Asiyanın kəsişməsində yerləşməklə, məhsuldar qüvvələrin inkişafı və səmərəli nəqliyyat-iqtisadi əlaqələr üçün olduqca əlverişli vəziyyətə malikdir. Azərbaycan ildən-ilə digər ölkə və regionlar üçün nəzərdə tutulmuş məhsullar istehsalında öz xüsusi çəkisini artırır, eyni zamanda ictimai əmək bölgüsü və ölkələrarası əmək bölgüsü daha da dərinləşir, iqtisadiyyatın ixtisaslaşması və kompleks inkişafı güclənir. Azərbaycanın ticarət əlaqələrinin güclənməsi əmək bölgüsünün dərinləşməsi ilə üzvi surətdə əlaqədardır. Əmək bölgüsünün dərinləşməsi təbii sərvətlərin mənimsənilməsini və müxtəlif sənaye sahələrinin yaranmasını təmin etməklə, məhsuldar qüvvələrin yerləşməsində güclü dəyişiklik etmiş, ticarət əlaqələrinin daha da təkmilləşdirilməsi üçün şərait yaratmışdır. Azərbaycan öz tələbatının böyük hissəsini digər respublikalardan alınan xalq istehlakı malları hesabına ödəyir. Ümumiyyətlə, ərzaq məhsullarının 70 faizi digər regionlardan gətirilir. Xalq sənaye istehlak mallarından Azərbaycana avtomobillər, elektrik avadanlıqları, pambıq və yun parça, ayaqqabı və s. daxil olur, yüngül sənaye məhsullarına olan tələbatın 45%-i gətirmə məhsullarla ödənilir. Beləliklə, Azərbaycan ictimai əmək bölgüsünə, ixtisaslaşma və kooperativləşməyə, iqtisadi inteqrasiyaya aktiv daxil olur. Hazırda Azərbaycan güclü inkişaf etmiş yanacaq-energetika, maşınqayırma, neft-kimya ölkəsidir ki, bu sənaye sahələrinin inkişafı

bilavasitə neft və qazın çıxarılması ilə əlaqədardır. Digər tərəfdən isə, xalq təsərrüfatının tələbatını ödəmək üçün qara və əlvan metallurgiya inkiaşf etmişdir. İldən-ilə müxtəlif təbii sərvətləri mənimsəməklə, onların istehsalı və ixracı üzrə ixtisaslaşırıq və bu da milli iqtisadiyyatımızın inkişafına gətirib çıxarır. Azərbaycanın iqtisadi və təbii şəraiti, istehsalın və ərazi təşkilinin xüsusiyyətləri, mühüm məhsul növlərinin istehlakı, nəqliyyat sisteminin inkişafı və formalaşmasına əsaslı təsir edir. Göstərmək lazımdır ki, vahid nəqliyyat sisteminin və ticarət əlaqələrinin inkişafı bir-biri ilə qarşılıqlı əlaqədardır. (Cədvəl – 9; 10)






Bu onunla izah olunur ki, vahid nəqliyyat şəbəkəsi daşımaların həcm və keyfiyyət göstəricilərini müəyyən edir. Vahid nəqliyyat şəbəkəsi geniş ölkələrarası ticarət-iqtisadi əlaqələr yaratmaqla, istehsalın ixtisaslaşması və kooperativləşməsini təmin etməklə təbii sərvətlərdən, bütün təbii-coğrafi və digər ehtiyatlardan tam istifadə etməyə imkan verir. Məhz buna görə də respublikamızda xarici ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi fəaliyyətin səmərəliliyinin təmin olunması üçün aşağıdakı istiqamətlərdə ardıcıl iş aparılmalıdır: ölkənin ixrac potensialının düzgün qiymətləndirilməsi və onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi; idxalın obyektiv tələbat həcminin tapılması; idxal əvəzedici sahələrin inkişaf imkanları və pesrpektivlərinin araşdırılması; xarici maliyyə-kredit resurslarının ölkəyə cəlb olunması; iqtisadi təhlükəsizlik konsepsiyasının işlənməsi və reallaşdırılması; inteqrasiya proseslərinin tənzim edilməsi və təkmilləşdirilməsi və s. Qeyd etmək lazımdır ki, hazırda Azərbaycanın xarici ticarət təşkilatlarında iştirakı imkanları genişlənir. Belə ki, hazırda Azərbaycanda sərbəst bazar iqtisadiyyatına keçid, mülkiyyətin çoxnövlüyü, iqtisadiyyatın tədricən liberallaşdırılması, xarici ticarətin və bütövlüklə xarici iqtisadi əlaqələrin sərbəstləşdirilməsi, «açıq qapı» siyasətinin həyata keçirilməsi, müxtəlif gömrük rüsumlarının və gömrük məhdudiyyətlərinin ləğv edilməsi və s. istiqamətində dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Bazar iqtisadiyyatı sahibkarlığın inkişafı, azad iqtisadi ticarət zonalarının təşkili, xarici ticarət üzərində dövlət inhisarının qaldırılması və beynəlxalq əmək bölgüsündə ölkənin müqayisəli üstünlüklərdən səmərəli istifadə etməsi üçün əlverişli şərait yaradır. Respublikamızda xarici iqtisadi fəaliyyət prinipcə yeni normativ hüquqi bazaya və dövlət tənzimlənməsi mexainzminə əsaslanmaqla, bazar iqtisadiyyatının tələblərinə cavab verməli, ölkənin dünya təsərrüfat sistemində inteqrasiyasını təmin etməlidir. İnteqrasiya da əsasən ölkənin beynəlxalq iqtisadi-ticari təşkilatlarda iştirakı ilə şərtlənir. Bu da beynəlxalq əmək

bölgüsünün daha da dərinləşməsinə, mövcud resurslardan səmərəli istifadə edilməsinə, elmi-texniki əməkdaşlığın həyata keçirilməsinə və əhalinin tələbatının hərtərəfli ödənilməsinə əlverişli şərait yaradır. Keçid iqtisadiyyatı dövrünü yaşayan, inkişaf etməkdə olan ölkələrin və dövlətlərin beynəlxalq ticarət sistemində inteqrasiyası, onların inkişaf strategiyasının vacib komponenti olub, onların öz xarici ticarətini inkişaf etdirmək, öncədən bəlli və stabil ticarət mühiti yaratmaq hüququ var. Xarici ticarətin beynəlxalq normalar səviyyəsində təşkilini təmin etmək məqsədilə Azərbaycan ÜTT-yə üzv olmaq niyyətindədir.

## 4.5. Xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri

Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sistemində iştirakı əsasən xarıci ticarət və kapitalın idxalı üzrə baş verir, xarici iqtisadi fəaliyyətin digər mütərəqqi formalarından (elmi-texniki əməkdaşlıq, xarici turizm, SİZ-lərdə əməkdaşlıq, konsessiya sazişləri əsasında əməkdaşlıq və s.) ya zəif istifadə olunur və yaxud ya heç istıfadə olunmur. Belə ki, neft və neft məhsulları istisna olmaqla, digər məhsullar üzrə xarici ticarətdə mənfi saldo ilbəil artır. Qeyri-neft sektorunda sağlamlaşdırma və yenidənqurma işləri gücləndirilməzsə yaranmış mənfi meylin davam edəcəyi gözlənilir. Son dövrdə ixracda xammal və aralıq məhsulların xüsusi çəkisi 85%-i keçmiş, son məhsulların xüsusi çəkisi müvafiq olaraq azalmışdır. İdxalda isə, əksinə, son məhsulların, xüsusilə, istehlak mallarının, maşın və avadanlıqların xüsusi çəkisi artmışdır. Qeyd etmək lazımdır ki, xarici ticarət əlaqələrinin coğrafi quruluşunu da qənaətbəxş hesab etmək olmaz. Belə ki, 2008-ci ildə Azərbaycanın 150-ə yaxın dövlət ilə tıcarət əlaqəsinə girməsinə baxmayaraq, xarici ticarət dövriyyəsinin 75,0%-dən çoxu

cəmi 10-dan az sayda dövlətin payına düşür. Bu isə müəyyən hallarda bu dövlətlərin ölkəmizə siyasi və iqtisadi təzyiq göstərməsinə imkan verir. Azərbaycanın isə iqtisadiyyatının dünya bazarından asılılığı çox yüksəkdir. Xarici ticarət şərtləri hər il Azərbaycanın xeyrinə dəyişsə də, bunu birmənalı şəkildə müsbət hal kimi qiymətləndirmək olmaz. (Cədvəl -11;12)







Belə ki, bu müsbət dəyişmə əsasən ölkə iqtisadiyyatının idxalyönümlülüyü nəticəsində idxal qiymətləri indeksinin aşağı düşməsi, son illərdə isə neft və neft məhsullarının dünya bazar qiymətlərinin artması ilə əlaqədar olaraq ixrac qiymətləri indeksinin kəskin şəkildə artması hesabına olmuşdur. Son illərdə ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu ümumi investisiya qoyuluşunun əsas hissəsini təşkil etmişdir. Lakin bununla belə, bu investisiya qoyuluşunun mütləq

əksəriyyəti neft sektorunu və qismən də xidmət sahələrini əhatə etmişdir. Qeyd etmək lazımdır ki, son dövrdə istehsalın texniki və texnoloji səviyyəsinin dünya standartlarından xeyli aşağı səviyyədə olması ilə əlaqədar olaraq istehsal olunan malların istər dünya bazarında və istərsə də daxili bazarda rəqabətə davamlı olması istiqamətində xeyli işlər görülmüşdür. Bu baxımdan yeni texnika və texnologiyalar Azərbaycana gətirilir. Ölkənin beynəlxalq əmək bölgüsündəki üstünlüklərinin reallaşdırılması, inteqrasiya və kooperasiya əlaqələrinin yaratdığı imkanlardan tam və səmərəli istifadə etmək üçün konkret proqramlar hazırlanması və həyata keçirilməsi istiqamətində işlər uğurla davam etdirilir. Ölkədə həyata keçirilən iqtisadi inkişaf siyasətinin elmi əsaslarını hazırlayarkən nəzərə almaq lazımdır ki, müvafiq sahədə mütərəqqi dünya təcrübəsinə əsaslanaraq, bu qənaətə gəlmək olar ki, perspektiv dövrdə Azərbaycan Respublikasının Xarici İqtisadi əlaqələr strategiyası müasir qloballaşma şəraitinin tələblərinə uyğun olaraq beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə, o cümlədən ÜTT-nin tələblərinə əsaslanmaqla yanaşı, ölkədə keçid dövrünün xüsusiyyətlərini və mövcud sosial-iqtisadi durumu nəzərə almalı və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunmuş açıq milli iqtisadi sistemin formalaşdırılması məqsədinə xidmət etməlidir. Belə hesab edirik ki, həmin strategiyanın həyata keçirilməsi üsulu kimi isə struktur-investisiya və xarici iqtisadi siyasətlərin sintezi çıxış etməlidir. Bu nöqteyi-nəzərdən ölkədəki mövcud durumun araşdırılması göstərir ki, aşağıdakı üç problemi eyni zamanda həll etmək zərurəti qeyd edilən strategiyanın reallaşdırılması baxımından Azərbaycanın qarşısında duran vəzifələri mürəkkəbləşdirir: sistem transformasiyasının həyata keçirilməsi zərurəti; dövlət müstəqilliyinin bərpası və bazar münasibətlərinə keçidlə əlaqədar olaraq iqtisadiyyatın struktur yenidən qurulmasının zəruriliyi; müasir dövrün tələblərinə uyğun olaraq milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə

inteqrasiyasının təmin olunmasının zəruriliyi. Məlum olduğu kimi, artıq birinci və üçüncü problemlərin həlli istiqamətində müəyyən nailiyyətlər əldə edilmişdir. Sistem transformasiyasının həyata keçirilməsi istiqamətində xeyli işlər görülmüş və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması istıqamətində mühüm addımlar atılmışdır. Lakin bunun müqabilində struktur yenidən qurulması sahəsində isə, demək olar ki, nəzərəçarpacaq nailiyyətlər əldə olunmamışdır. Nəticədə həmin üç problemin həlli sürətlərinin müxtəlifliyinin təsirilə iqtisadiyyatdakı struktur disproporiyalarının daha da dərinləşməsi baş vermiş, bu isə əvvəlki bölmələrdə göründüyü kimi ölkənin xarici iqtisadi əlaqələrində də öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanın dünya bazarlarında mövqelərinin zəifliyi əsasən milli istehsalın rəqabətqabiliyyətinin aşağı səviyyədə olması ilə yanaşı, ölkənin qeyri-neft sektorunda ixrac potensialının inkişafının və ixracın stimullaşdırılması üzrə məqsədyönlü və ardıcıl siyasət tədbirlərinin həyata keçirilməsinə də lazımi diqqət yetirilmir. Bu isə, xarici iqtisadi əməkdaşlıq sferasında vəziyyətin daha da mürəkkəbləşməsinə gətirib çıxara bilər. Belə ki, bu vəziyyət xarici investorlar üçün maraqlı olan yanacaqxammal kompleksinin birtərəfli qaydada inkişafına, xarici iqtisadi əməkdaşlığın “müstəmləkə” strukturunun möhkəmlənməsinə yol açа bilər. Qeyd etmək lazımdır ki, ixracın iqtisadi artıma stimullaşdırıcı təsiri əldə edilən gəlirlərin artım potensialı yüksək olan sahələrin canlandırılmasına və qabaqcıl texnologiyalı yeni istehsalların qurulmasına yönəldilməsi şərti daxilində baş verə bilər. Başqa sözlə desək, sırf xarici iqtisadi tənzimləmə tədbirləri vasitəsilə dünya təsərrüfatına inteqrasıyanın struktur problemlərinin həll edilməsi mümkün deyildir. Həmin vəzifənin icrası sahə-struktur prioritetlə rinin reallaşdırılmasını hədəfləyən sənaye siyasətinə əsaslanmalıdır. Yəni, ölkəmizin qarşısında duran vəzifə nəyin bahasına olursa-olsun beynəlxalq iqtisadi əməkdaşlığı genişləndirmək deyil, mövcud

potensialımıza uyğun olaraq dinamik müqayisəli üstünlüklərə əsaslanaraq, qlobal təsərrüfata üzvi şəkildə qovuşmaq olmalıdır. Belə ki, müasir dövrdə xarici iqtisadi əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi problemi ölkə iqtisadiyyatının struktur yenidən qurulmasının həyata keçirilməsi ilə qarşılıqlı şəkildə həll edilməlidir. Həm də bu zaman struktur siyasəti daha ön mövqeyə çıxarılmalıdır. Tamamilə aydındır ki, qısa və ortamüddətli dövrdə iqtisadi siyasətə bu cür yanaşma xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə proteksionizm elementlərinin daxil edilməsini zərurətə çevirmiş olur. Bu zaman iqtisadiyyatın sistem transformasiyasının başa çatdırılmasını da diqqətdən kənarda qoymaq olmaz. Məhz bu vəzifənin yerinə yetirilməsi əsl bazar və səmərəli rəqabət mühitinin formalaşmasını təmin edə bilər ki, bu da öz növbəsində düşünülmüş proteksionizm tədbirlərinə əsaslanan xarici iqtisadi siyasətin təsirini artırmış olur. Əks təqdirdə, daxili bazarın himayəsi yalnız səmərəsiz istehsal şəraitinin qorunmasına, ölkənin istehsal bazasının zəifləməsinə və yenə də xarici bazarlardan asılılığın güclənməsinə gətirib çıxara bilər. Çünki struktur prioritetləri düzgün müəyyənləşdirilmədiyinə görə inkışaf elementləri zəif olan sahələrə proteksionizm tədbirləri çərçivəsində maliyyə və digər yardımların edilməsi hər hansı bir effekt verməz və əksinə ağır nəticələrə gətirib çıxara bilər. Eyni zamanda, nəzərə almaq lazımdır ki, bazar münasibətlərinə uyğun olaraq həyata keçirilən struktur yenidənqurulmasına təkcə indiki mərhələnin məqsədi kimi baxılmamalıdır. Bu proses sənayecə inkişaf etmiş bütün ölkələrdə daimi xarakter daşıyır və müasir dövrdə iqtisadi tərəqqinin zəruri minimum şərti kimi çıxış edir. Mövcud durumu nəzərə alsaq, əsas diqqət, fikrimizcə, dünya təsərrüfatına struktur uyğunlaşma vəzifəsi üzərində cəmləşdirilməlidir. Məqsəd ayrı-ayrı rəqabətqabiliyyətli istehsalların qurulması deyil, özünü inkişaf qabiliyyətinə malik və bütövlükdə rəqabətqabiliyyətli milli təsərrüfat sisteminin formalaşdırılması

olmalıdır. Dövlət tənzimlənməsi miqyasının azaldılması və xarici iqtisadi əlaqələrin daha da liberallaşdırılması yalnız bu məsələ həll edildikdən sonra gündəliyə çıxarıla bilər. Bu baxımdan, Asiyanın Yeni Sənaye Ölkələrinin təcrübəsini öyrənmək və nəzərə almaq əhəmiyyətli olardı. Belə ki, bu ölkələrin dünya iqtisadiyyatına inteqrasiyası idxalın liberallaşdırılması yolu ilə deyil, ixracın stimullaşdırılmasından başlanmışdı. İxracatçılar mütəmadi olaraq mövcud duruma uyğunlaşdırılan bir sıra güzəştlərdən istifadə edirdilər.

## Fəsil 5. Ölkənin maliyyə sabitliyinin təmin edilməsi.

### 5.1.Azərbaycanda maliyyə sabitliyinin formalaşması prosesi.

Azərbaycanda maliyyə sabitliyinin formalaşması prosesi İqtisadi inkişafın səviyyəsi artdıqca, dövlətin İqtisadiyyatı tənzimlənməsinin inzibati üsullarının rolu azalır, İqtisadi tənzimlənmənin əhəmiyyəti isə yüksəlir. Qeyd etmək lazımdır ki, bazar mexanizmi qeyri-təkmil xüsusiyyətə malik olduğu üçün, dövlət müdaxiləsinin varlığı zəruridir. Çünki əslində bazarın əbədi olaraq qeyri-təkmil xarakterli olması iqtisadiyyatı fəallaşdırır və səmərəli fəaliyyətini şərtləndirir, eyni zamanda stimullaşdırır. İngilis filosofu Ceremi Bentama görə: «… sabitlik prinsipi – istənilən obyektin ləzzət, fayda və xoşbəxtlik gətirmək və ya ağrıdan, əzabdan və yamanlıqdan qorumaq xüsusiyyətidir».” Dünya iqtisadiyyatında gedən liberallaşdırma prosesi və SSRİ-nin dağılması ilə əlaqədar olaraq respublikaların dövlət suverenliyi əldə etməsi XİF-in hüquqi tənzimlənməsi sahəsində köklü dəyişiklikləri zəruri edib. Belə olan halda keçid dövründə bütün müstəqil dövlətlərdə xarici iqtisadi əlaqələrin tənzimlənməsinin milli qanunvericilik bazası işlənməyə başlandı. Şübhəsiz ki, XİF-in miqyasları müstəqil dövlətlərin

ərazilərində müəyyən olunmuş hüquqi normaların, onların fəaliyyətinə verilən iqtisadi təminatların çərçivəsində həyata keçirilməlidir. Bu çərçivədə Azərbaycanda da XİF-in sferanın hüquqi tənzimlənməsi prosesi gedir. Azərbaycanda bazar münasibətlərinin təşəkkülü və bu münasibətlərə əsaslanan xarici iqtisadi əlaqələrin inkişafı hər şeydən əvvəl işgüzar fəaliyyət üçün zəruri ilkin şərtlərin yaradılmasını tələb edir ki, bunun da ən vacib tərkib hissələrindən biri iqtisadiyyatın bazar modelinə uyğun hüquqi mexanizminin yaradılmasıdır. Bundan başqa, məqsəd respublikamızda ilk növbədə xüsusi mülkiyyətə əsaslanan özəl bölmə üçün dəqiq və geniş qanunvericilik bazasının formalaşması, iş adamlarının, təsərrüfat subyektlərinin, xarici investorların sahibkarlıq fəaliyyəti üçün hüquqi təminatın yaradılması, habelə sahibkarlığın dövlət tərəfindən tənzimlənməsinin və maliyyə sabitliyinin möhkəmlənməsinin hüquqi əsaslarının qorunmasıdır. Azərbaycanda xarici investisiya qoyuluşunun bazasının formalaşdırılması sahəsində dünya təcrübəsinə və ölkəmizin spesifik şəraitinə əsaslanaraq son dərəcədə əhəmiyyətli işlər görülmüşdür. Milli Məclis tərəfindən iqtisadi islahatlarla bağlı çoxlu qanunlar, müvafiq qanunvericilik sənədləri qəbul edilmişdir ki, bunların da xeyli hissəsi xarici iqtisadi fəaliyyət və xarici iqtisadi əlaqələr ilə bu və ya digər səviyyədə əlaqədardır. Xarici iqtisadi əlaqələr və sahibkarlıq fəaliyyəti ilə bağlı olan qanunlara «Antiinhisar fəaliyyəti haqqında», «Haqsız rəqabət haqqında», «Girov haqqında», «İnvestisiya fəaliyyəti haqqında» və digər qanunları aid etmək olar. Xarici iqtisadi əlaqələrin iştirakçıları olan sahibkarlıq subyektlərinin fəaliyyətin tənzimləyən qanunlar: «Müəssisələr haqqında», «Səhmdar cəmiyyətləri haqqında», «Banklara və bank fəaliyyəti haqqında», «Kəndli fermer təsərrüfatı haqqında» və s. Bundan əlavə, bu qrupa sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyətinin nəticələri ilə bilvasitə əlaqədar olan «Müflisləşmə və iflas» haqqında qanunu da aid etmək olar. Ölkədə əmtəə bircalarının yaradılması, həmçinin qiymətli kağızlar bazarının

formalaşması xarici iqtisadi əlaqələrin inkişafının zəruri şərtlərindən biridir. Bu baxımdan «Əmtəə birjası haqqında». «Qiymətli kağızlar və fond birjaları haqqında» qanunlar da sözü gedən hüquqi bazaya aid edilməlidir. Son illər Azərbaycanda xarici iqtisadi əlaqələrin bir forması olaraq beynəlxalq lizinq sürətlə inkişaf edir. Xüsusi ilə aqrar sektorda, tikinti sektorunda iri şirkətlər xarici ölkələrdən idxal edilmiş texnika və avadanlıqları uzunmüddətli lizinqə təklif edirlər. Bu fəaliyyəti isə «Lizinq xidməti haqqında» qanun tənzimləyir. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsində vergi qanunvericiliyi də mühüm rola malikdir. Bu istiqamətdə xüsusilə «Vergi Məcəlləsi», «Hüquqi şəxslərin mənfəətindən və gəlirlərinin ayrı-ayrı növlərindən vergilər haqqında», «Fiziki şəxslərdən gəlir vergisi haqqında», «Əlavə dəyər vergisi haqqında», «Aksizlər haqqında» və s. qanunlara diqqət yetirilməlidir. Qeyd edilən qanunlar sistemində elələri də vardır ki, respublkada xarici iqtisadi fəaliyyəti tənzimləmək baxımıdan fundamental xarakter daşıyırlar, yəni digər xüsusi qanunlar üçün fəaliyyət həddini, normativ sərhədləri müəyyənləşdirirlər. Fikrimizcə, belə qanunlara hər şeydən əvvəl, «Sahibkarlıq fəaliyyəti haqqında», «Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında». «Müəssisələr haqqında», «Torpaq islahatı haqqında», «İnvestisiya fəaliyyəti haqqında» və bir sıra belə xarakterli hüquqi sənədləri aid etmək olar. Milli qanunvericilik aktlarının qəbulu xarici İqtisadi fəaliyyətin hüquqi bazasının konseptual əsaslarını təşkil edir. Bu əsaslar əsasən aşağıdakı tələblər üzərində qurulmuşdur: Azərbaycan Respublikasının xarici-iqtisadi, o cümlədən valyuta-kredit siyasəti; valyuta-gömrük tənzimlənməsi qaydaları; xarici iqtisadi fəaliyyətlə məşğul olan xarici investisiyalı müəssisə və birliklərin, onların filiallarının, nümayəndəliklərinin, birgə müəssisələrin yaradılması və qeydiyyat prosedurası; XİF-lə məşğul olan Azərbaycan Respublikasının müəssisə və təşkilatlarının, vətəndaşlarının maddi maraqlarının təminatı; respublika ərazisində fəaliyyət göstərən XİF-lə

məşğul olan xarici investorların əmlak, mülkiyyət və investisiya hüquqlarının nəzərə alınması və s. müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu prinsiplər əsasında xarici İqtisadi siyasət yeritməsi yerli müəssisə və təşkilatların, firma və şirkətlərin sərbəst və bərabər hüquq şəraitində digər dövlətlərə vasitəsiz olaraq iqtisadi əlaqə və münasibətlər yaratmaq, təsərrüfat suybektlərinin iqtisadi maraqlarının təmin və eləcə də bütün bunların öz növbəsində xarici tərəf müqabilindən tələb edilməsi baxımından önəmlidir. Azərbaycanda xarici iqtisadi fəaliyyət strategiyasının formalaşmasında dünya təcrübəsi ilə yanaşı, milli iqtisadiyyatın spesifik xüsusiyyətləri, beynəlxalq əmək bölgüsünün tələbləri, yaxın və uzaq ölkələrlə ticarət rejiminin optimallığı da nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, Azərbaycanda xarici iqtisadi fəaliyyət strategiyası bir tərəfdən sərbəst iqtisadiyyatın, normal gömrük və valyuta rejiminin formalaşmasına xidmət etməklə ölkənin ixracat potensialının arıtırlmasına istiqamətlənməlidir. Bu strategiya milli bazarın formalaşdırılmasını sürətləndirməklə yanaşı, həm də onun rəqabət qabiliyyətini yüksəldə bilər. Belə ki, istehsal potensialının genişləndirilməsi və onun texniki modernləşdirilməsinə nail olmaq üçün xarici kapitalın milli bazara cəlb edilməsinin kompleks sistemini formlaşdırmaq lazımdır. Bundan əlavə, idxalı əvəz edən yerli istehsalın təşkili sahəsində idxalın səmərəliliyini yüksəltməklə idxal siyasəti iqtisadiyyatın tələblərinə uyğunlaşdırılırmalı və xarici investisiya, kredit və yardımlardan istifadə olunmasının mexanizmi yaradılır.

## 5.2. Maliyyə sisteminin səmərəli fəaliyyətində bankların maliyyə sabitliyinin təmin edilməsi.

Respublikamızda maliyyə sabitliyinin birqərar olması və möhkəmləndirilməsi yönəmində aparılan tədbirlər sırasında valyuta tənzimlən-

məsi istiqamətində aparılan işləri xüsusi qeyd elmək lazımdır. Məlum olduğu kimi Azərbaycan Respublikasında valyuta tənzimlənməsinin hüquqi bazasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanunu, Azərbaycan Respublikasının Milli Bankı haqqında Qanunu, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və digər müvafiq nomrativ aktlar təşkil edir. Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanunu 21 oktyabr 1994-cü ildə qəbul edilmişdir. Haqqında danışılan qanun Azərbaycan Respublikasında valyuta əməliyyatlarını həyata keçirilməsi prinsiplərini, valyuta tənzimi və valyuta nəzarəti orqanlarını səlahiyyətlərini və funksiyalarını tənzimləyir. Bundan əlavə, hüquqi və fiziki şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək sahəsində hüquqlarını və vəzifələrini təsbit edir. Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanun eyni zamanda valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti də müəyyən edir. Göründüyü kimi nəzərdən keçirilən qanun valyuta tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının ən əsas qanunlarındandır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə valyuta əməliyyatları valyuta sərvətlərinə mülkiyyət hüququn və digər hüquqların keçməsi ilə əlaqədar əməliyyatlar, o cümlədən ödəniş vasitəsi kimi xarici valyutadan və xarici valyutada ödəniş sənədlərindən istifadə edilməsinə deyilir. Bundan əlavə, valyuta əməliyyatlarına valyuta sərvətlərinin ölkəyə gətirilməsi və göndərilməsi, eləcə də çıxarılması və göndərilməsi daxil edilir. «Azərbaycan Respublikasının Valyuta Tənzimlənməsi haqqında Qanunu»nda xarici valyuta sərvətləri ilə aparılan əməliyyatlar cari və kapitalın hərəkəti ilə bağlı valyuta əməliyatlarına bölünür. Bu tədiyyə balansının müvafiq hesablarına uyğun olaraq edilmişdir. Belə ki, Azərbaycan Respublikasının valyuta qanunvericiliyə görə malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə

180 gündən arıtq müddətdə ödəniş möhlətinin verilməsi və alınması kapital hərəkəti ilə bağlı valyuta əməliyyatlarına aid edilir. Bütün bunlarla yanaşı, əsas anlayışlar maddəsində müvəkkil banklar anlayışı da müəyyənləşdirilmişdir. Qanuna görə müvəkkil banklar valyuta əməliyyatlarının aparılması üçün Milli Baknın lisenziyasını almış banklar və digər kredit təşkilatlarıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının ərazisi vahid valyuta ərazisidir və bu ərazidə milli valyuta kimi manatın alıcılıq qabiliyyəti möhkəmləndirilməsini təmin edən pul-kredit və valyuta siyasəti yeridilir. Azərbaycan valyuta ehtiyatları isə dövlət büdcəsinin valyuta gəlirləri və sabitləşdirmə fondunun hesabına formalaşır. Valyuta məhdudiyyətlərinə gəldikdə göstərmək lazımdır ki, bu qanuna görə hüquqi şəxs olan rezidentlər tərəfindən cari valyuta əməliyyatlarının həyata keçirilməsi üzrə heç bir məhdudiyyət qoyulmur. Fiziki şəxs olan rezidentlər tərəfindən Azərbaycan Respublikasının ərazisinə gətirilən valyuta sərvətlərinin məbləği 50 min ABŞ dolları ekvivalentindən artıq olduqda gömrük orqanları müvafiq məlumatı Milli Banka təqdim etməlidir. Valyuta tənzimlənməsi sahəsində böyük əhəmiyyətə malik olan digər qanun Azərbaycan Respublikasının Milli Bankı haqqında Qanunudur. Bu qanun 10 iyun 1996-ci ildə qəbul edilmişidr. Qanunda göstərir ki, Milli Bankın əsas funksiyalarına başqa funksiyalarla yanaşı pul-kredit və valyuta münasibətləri sahəsində dövlət siyasətini yetirmək, valyuta tənzimlənməsini həyata keçirmək, xarici dövlətlərlə hesablaşmaların aparılması qaydasını müəyyənləşdirmək və xarici valyuta ehtiyatlarını idarə etmək daxildir. Bundan əlavə, Milli Bankın valyuta münasibətləri sahəsində əsas vəzifələrinə manatın sabitliyini təmin etmək, onun alıcılıq qabiliyyətini və xarici valyutaya nisbətən məzənnəsini tənzimləmək üçün tədbirlər görmək aiddir. Qanunun 15-ci maddəsində göstərilir ki, Milli Bankın pul-kredit siyasətinin əsas metodlarından biri vayluta müdaxiləsi və mübadilə məzənnələri siyasətinin həyata keçirilməsidir

Maliyyə sisteminin səmərəli fəaliyyətində bankların maliyyə sabitliyinin təmin edilməsi son illər ölkəmizdə bank sisteminin inkişafı sahəsində həyata keçirilən tədbirlər nəticəsində bankların aktivləri və kapitalı yüksək templə artmış, resurs bazası isə xeyli genişlənmişdir. Belə ki, 2006-cı ilin əvvəlinə banklarda kreditlərin ÜDM-ə nisbəti 2004-cü ilin müvafiq dövründəki 8,3%-dən 11,8%-ə, cəlb edilmiş depozitlərin nisbəti isə uyğun olaraq 10,5%-dən 12,1%-ə çatmışdır. Onu da qeyd edək ki, 2004-cü ildə 2003-cü ilə nisbətən bank aktivlərinin artım tempi ÜDM-in artım tempini 5-6 dəfə üstələdiyinə görə, bank aktivlərinin ÜDM-də xüsusi çəkisi 14,2%-dən 19,9%-ə qalxmışdır. 2005-ci ildə isə bank aktivlərinin artım tempi 2004-cü illə müqayisədə bir qədər zəifləmiş və nəticədə 2006-cı ilin əvvəlinə onun ÜDM-ə nisbəti 19,0% təşkil etmişdir. 2005-ci ildə 277 bank sisteminin kapitalının ÜDM-ə nisbəti isə 2004-cü illə müqayisədə 0,1faiz bəndi artaraq 2,9%-ə çatmışdır. Respublikanın bank sisteminin inkişafında baş verən müsbət meyllər son illərdə bankların kapitallaşma dərəcəsinin, apardıqları əməliyyat növlərinin və həcminin artırılması və s. hesabına daha da güclənmiş, ölkə iqtisadiyyatında bankların vasitəçilik rolu xeyli artmışdır. AR Milli Bankının hesabat məlumatlarına görə, 2005-ci ildə bank aktivləri 2004-cü illə müqayisədə 577 milyon manat və ya 34,5% artaraq 2006- cı ilin əvvəlinə 2252 milyon manata çatmışdır. Araşdırmalar göstərir ki, bankların kredit əməliyyatlarının inkişafında mühüm meyl istehlak kreditlərinin həcminin kəskin artımı olmuşdur. Belə ki, 2004-cü ildə fiziki şəxslərə verilmiş kreditlərin həcmi 81,7% artaraq 274,4 mln. manat, 2005-ci ildə isə 44,7% artaraq 369,5 mln. manat təşkil etmişdir. Qeyd edilənlərdən göründüyü kimi, son vaxtlar əhalinin kreditləşməsi bank xidmətlərinin mühüm hissəsinə çevrilmək-dədir. Belə ki, 2004-2005-ci illərdə bu kreditlər cəmi kredit portfelinin 26-28 faizi civarındadır. Bank sisteminin inkişafının digər mühüm istiqamətlərindən biri ticarət və xidmət sektoru ilə əlaqələrin xeyli

güclənməsidir. 2005-ci ildə bu kreditlərin həcmi 66,4 faiz artaraq 2006-cı ilin əvvəlinə 361,2 mln. manat təşkil etmişdir ki, bunun da nəticəsində cəmi bank kreditlərində ticarət və xidmət sektoruna verilmiş kreditlərin payı müvafiq olaraq 24%-dən 25,8%-dək artmışdır. Son vaxtlar banklar tərəfindən real sektora yönəldilmiş kreditlərin həcmi də əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, təkcə 2005-ci ildə energetika, kimya və təbii ehtiyatlar sektoruna verilmiş kreditlərin məbləği təxminən 8 dəfə artaraq 2006-cı ilin əvvəlinə 181,4 mln. manat təşkil etmişdir. Həmin kreditlərin cəmi kredit qoyuluşlarında xüsusi çəkisi isə müvafiq olaraq 2,5%-dən 12,9%- dək artmışdır. Aqrar sahəyə yönəldilmiş kreditlərin həcmi 2004-cü illə müqayisədə 2 dəfəyə yaxın artmaqla 94,8 mln. manat təşkil etmişdir. Onu da qeyd edək ki, bankların və bütövlükdə maliyyə sisteminin mövcudluğunun əsasını bankların likvidlik göstəricisi, onların hansı səviyyədə ödəmə qabiliyyətli olması sayılır. Likvidlik bankın passivlər üzrə pul formasında öz öhdəliklərinin yerinə yetirilməsini təmin etmək qabliyyətidir. İqtisadi ədəbiyyatda likvidlik anlayışına fərqli baxışlar mövcuddur. Bəziləri likvidliyi hesablaşmalar və depozitlər üzrə cari əməliyyatları həyata keçirmək üçün zəruri olan pul ehtiyatı, bəziləri az likvidli aktivlərin daha likvidli aktivləri çevrilməsini təmin edən pul axınları, digərləri isə bankın aktiv əməliyyatlarınn riskli dərəcəsi üzrə qiymətləndirilmiş axınlar kimi şərh edirlər. Bankın maliyyə sabitliyinin idarə edilməsi pul axınlarının likvidliyi və onların yerləşdirilməsi, gəlirliliyin idarə edilməsi ilə bağlıdır. Təcrübədə bankın maliyyə sabitliyinin idarə edilməi dörd nəzəriyyəyə, daha doğrusu, kommersiya borcu, yerləşdirmə, gözlənilən gəlir və passivlərin idarəedilməsi nəzəriyyəsinə əsaslanır. Fikrimizcə, bazar iqtisadiyyatı şəraitində bankın maliyyə sabitliyinin idarə edilməsi maliyyələşdirmə mənbələrinin və öhdəliklərin balanslaşdırılmış sistemli qiymətləndirilməsini, pulun hərəkəti və gəlirliliyin artımı baxımından risklərin diversifkasiyasını tələb edir. Likvidlik əmsalları normal səviyyə çərçivəsində müddəti üzrə

resursların yerləşdirilməsini və təminatlılıq dərəcəsini göstərir. Bankın maliyyə vəziyyətini normallaşdırmaq məqsədilə qəbul edilən qərarların əsaslandırılması üçün bu göstəricilərin təhlili zəruridir. Belə ki, verilmi° kreditlər və cəlb edilmi° vəsaitlərin nisbətinin təhlili bankın kredit siyasətinin xarakterini müəyyən edir. Əgər bunun qiyməti vahiddən kiçik olarsa onda bank konservativ kredit siyasəti həyat keçirir, vəsaitləri fəal kreditə yönəltmir ki, bu da faiz gəlirlərinin aşağı düşməsinə gətirib çıxara bilər. Digər halda qeyd edilən əmsalların dinamikada təhlili pul axınlarının idarə edilməsinin daha dəqiq və çevik strategiyasnı işləyib hazırlamağa kömək edir. Müasir şəraitdə bankın maliyyə vəziyyətinin möhkəmləndirilməsi üzrə aktiv və passivlərinin idarəedilməsinin balanslaşdırılmıs strategiyası likvidli aktivlərin və cəlbedilmiş passivlərin proporsionallığını tələb edir. Aktiv və passivlərin balans-laşdırılmış idarəedilməsi metodu pul resurslarına məcmu tələb və təklifin təhlilinə əsaslanır. Bu isə öz növbəsində İqtisadi inkişafın vəziyyətindən, bankların xidmət göstərdiyi İqtisadiyyat sektorlarının və sahələrinin, bankların iri müştərilərinin perspektiv inkişafından asılıdır. Banklar inkişaflarının strateci planını işləyib hazırlayarkən ölkənin sosial – iqtisadi inkişaf strategiyanı əhalinin gəlirlərindəki, maliyyə bazarındakı mümkün dəyişiklikləri nəzərə almalıdırlar. Araşdırmalar göstərir ki, bankın maliyyə sabitliyini onun kapitallaşma səviyyəsi, mənfəətliliyi və likvidliyi müəyyən edir. Bankın xüsusi kapitalı onun aktiv əməliyyatlarının artırılmasının əsasıdır. O, bankın maliyyə sabitliyinə və mənfəətliliyinə, iqtisadiyyat sahələrinin kreditləşdirilməsinin investisiya potensialına təminat verən amillər məcmusunda mühüm rol oynayır.

Kapitalın artım mənbələri ötən ildəki bölüşdürülməmiş mənfəət, bankın ehtiyatları, əlavə emissiya edilmiş qiymətli kağızların yerləşdirilməsi ola bilər. Bankın əldə etdiyi mənfəət nə qədər çox olarsa, onun kapitallaşma səviyyəsi də bir o qədər yüksək olur. Kapitalın artımının ikinci mənbəyi bank idarələrinin emissiya fəaliyyəti və açıq

bazar əməliyyatlarıdır. Respublikamızda İqtisadi islahatların uğurla həyata keçirilməsi üçün əsas problemlər arasında bank sisteminin sabitliyinin təmin edilməsi, milli valyutanın möhkəmləndirilməsi, daxili ehtiyatlardan maksimum istifadə edilməsi, bank sektorunun real iqtisadiyyatın kreditləşdirilməsinə istiqamətləndirilməsi mühüm yer tutur. Bu zaman bankların möhkəmləndirilməsi vasitəsilə bank sisteminə inamın artırılması və tənzimləmək yolu ilə onların fəaliyyət səmərəliliyinin yüksəldilməsi vacibdir. Eyni zamanda bank fəaliyyətinin tənzimlənməsi vasitələri dövlətin pul-kredit siyasətinin vasitələri kimi qəbul edilir. Respublikada bank sisteminin tənzimlənməsinin normativ hüquqi bazasının formalaşdırılmasının müəyyən səviyyəsinə nail olunmuşdur. Belə bir məsələyə diqqət yetirilməlidir ki, gələcəkdə bank sisteminin sabitliyini təmin etmək və investorların inamını yüksəltmək məqsədilə bankların tənzimlənməsinə dair çevik strategiyanın və adekvat pul - kredit siyasətinin həyata keçirilməsi zəruridir. Müasir dövrdə bankın sabitliyinin möhkəmləndirilməsi və bank sisteminə inamı yüksəltmək üçün daxili resursların cəlb edilməsi prioritetlik təşkil etməlidir. Deməli, şəxsi kapitalın və onun adekvatlığının qiymətləndirilməsi üsulları, likvidlik göstəriciləri və digər normativlər bank fəaliyyətinin tənzimlənməsinin çevik vasitələridir. Ölkədəki ümumi siyasi və iqtisadi vəziyyət bank əməliyyatlarının inkişafına və bank sisteminin uğurlu fəaliyyətinə zəmin yaratmaqla, bankların fəaliyyətinin sabit iqtisadi əsasını təmin edir, yerli və xarici investorların banklara inamını möhkəmləndirir. Zəruri şərtlər olmadan banklar sabit depozit bazası yaratmağa, əməliyyatların rentabelliyinə nail olmağa, öz aktivlərinin keyfiyyətini yüksəltməyə, idarəetmə sistemini təkmilləşdirməyə qadir deyil. «Milli Bank haqqında» Azərbaycan Respublikasının Qanunu kredit təşkilatlarının fəaliyyətini və likvidliyini tənzimləmək üçün bir sıra iqtisadi normativlərin (nizamnamə kapitalının minimum həcmi; kapitalın kifayətlilik normativi; likvidlik normativləri;

bir borcluya yaxud, borclular qrupuna düşən riskin maksimum həcmi; iri kredit risklərinin maksimum həcmi; bir kreditora riskin maksimum həcmi; əhalidən cəlb edilən pul əmanətlərin (depozitlərin) maksimum həcmi və s.) tətbiqini nəzərdə tutur. Beləliklə, bankların maliyyə sabitliyinin idarəedilməsi gəlirliliyin və bütün mümkün risklərin idarəedilməsi ilə sıx bağlıdır. Perspektivdə ölkənin iqtisadi artmının maliyyələşdirilməsi əhəmiyyətli dərəcədə daxili əmanətin və investisiyanın vəziyyətindən asılı olacaqdır. Milli əmanətin yüksək norması iqtisadiyyatın real sektorlarının qısamüddətli və uzunmüddətli kreditləşdirilməsini təmin edəcəkdir. Bu isə əhəmiyyətli şəkildə bankların maliyyə sabitliyi ilə şərtlənir. Belə bir məsələyə diqqət yetirmək lazımdır ki, Azərbaycan kommersiya banklarının investisiya fəaliyyəti təcrübəsində risk probleminin xüsusi əhəmiyyəti, verilən investisiya krediti alıtnda likvid girovunun tələb olunması investisiya layihələrini kreditləşdirən bank riskinin minimuma endirilməsinin daha əlverişli yollarından birinə çevrilməkdədir. Lakin bu zaman riskin minimumlaşdırılmasının məhz bu yolundan istifadə ilə əlaqədar obyektiv məhdudiyyətlər mövcuddur. Belə ki, müəssisələrin çox az qismi bankın tələblərinə cavab verən girov təqdim etmək vəziyyətindədir. Hal-hazırda dövlət tərəfindən dövlət qiymətli kağızlarına qoyuluşun gə- lirliliyinin məhdudlaşdırılması siyasətinin aparılmasına başlandığı, eləcə də ölkənin kommersiya bankları üçün valyuta məzənnəsinin nisbətən sabitləşdirilməsi şəraitində dövlət qısamüddətli istiqrazlarına (DQİ) qoyuluşlar və valyuta alverçiliyi hesabına gəlirin alınması imkanlarının xeyli azaldılması. Bu vəziyyətdə özündə məhz həm sərmayələri, həm də yüksək səmərəli investisiya layihələrini birləşdirən əsaslandırılmış kredit portfeli banklar tərəfindən dayanıqlı gəlirin alınmasının əsas mənbələrindən birinə çevrilir. Kommersiya banklarının investisiya kreditləşdirilməsi sahəsində investisiya fəallığının yüksəldilməsi, yenidən maliyyələşdirmə

dərəcəsinin aşağı salınması, DQİ-yə və digər dövlət qiymətli kağızlarına gəlirliliyin aşağı salınmasından xeyli asılıdır. Qeyd etmək lazımdır ki, korporativ qiymətli kağızlara vəsaitlər qoymaq yolu ilə investisiya siyasətinin reallaşdırılması sahəsində kommersiya banklarının investisiya fəallığının yüksəldilməsi üçün, yuxarıda qeyd edilənlərlə yanaşı, aşağıdakı hallar da mühüm əhəmiyyət kəsb edir. Burada əsas vasitələrdən biri səhmlərə, istiqrazlara və konkret layihənin reallaşması altında buraxılan qiymətli kağızlara qoyuluş vasitəsilə investisiya layihələrinin maliyyələşdirilməsi üçün vəsaitlərin cəlb olunması sayılır. Bundan əlavə, dövlətin prioritetləri sisteminə daxil olan investisiya layihələrinin maliyyələşdirilməsi üçün vəsaitlərin cəlb edilməsi məqsədilə emitentləşdirilən qiymətli kağızlar (səhm və istiqrazlar) üzrə dövlət zəmanətləri sisteminin inkişafı olduqca vacibdir.

## 5.3 Xarici iqtisadi əlaqələrin tənzimlənməsi ilə maliyyə sabitliyinin təmin edilməsinin qarşılıqlı əlaqəsi.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsi ilə maliyyə sabitliyinin təmin edilməsinin qarşılıqlı əlaqəsi Bazar İqtisadiyyatı yolu ilə gedən Azərbaycanda həyata keçirilən uğurlu islahatlar dünya dövlətləri ilə xarici iqtisadi əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Ötən illər ərzində Azərbaycanda həyata keçirilən xarici ticarət siyasətinin obyektiv nəticəsi kimi ölkə beynəlxalq mübadilə sferasında yalnız kəmiyyət baxımından müəyyən irəliləyişlərə nail olmuşdur. Bundan başqa, milli iqtisadiyyatın inkişafı xarici amillərdən yüksək dərəcədə asılı olduğu üçün ÜDM-də daxili bazarın rolu getdikcə azalır. Son illərdə həyata keçirilən idxal-ixrac əməliyyatlarının əmtəə strukturunu nəzərə alsaq, ixracda xammal və yarımfabrikatların, daha doğrusu, yanacaqenerji məhsullarının, idxalda isə ərzaq və yüksək səviyyəli emal məhsullarının,

maşın və avadanlıqların üstünlük təşkil etdiyini görərik. İdxal-ixrac siyasətindəkit bu cür meyl Azərbaycan iqtisadiyyatının mövcud strukturu ilə bağlıdır. Respublikada ixracın əmtəə strukturunun təhlili aşağıdakı nəticələr çıxarmağa imkan verir: Azərbaycanın ixracında yanacaq-enerci məhsulları və kənd təsərrüfatı xammallarının xüsusi çəkisi tərəddüdlə artmaqda davam edir ki, bu da dünya ixracının inkişaf meylləri ilə tam ziddiyyət təşkil edir.

1. Hazır məhsul ixracında müəyyən qədər sabitləşmə müşahidə olunur (3-5%) ki, bu da dünya ixracının əmtəə strukturuna uyğun gəlmir.

2. Ölkə ixrac etdiyindən daha çox ərzaq malları idxal edir. Bu isə o deməkdir ki, ərzaq mallarına olan daxili tələbatın ödənilməsi üçün potensial imkanlardan istifadə olunmur. Azərbaycanın ixrac strategiyasının formalaşma xüsusiyyəti haqda danışarkən xarici investisiyaları mütləq nəzərə almaq lazımdır. (Cədvəl-13)




Belə ki, ixrac siyasətinin təhlili zamanı neft amilinin rolunu xüsusi qeyd etmək lazımdır. Neft sərmayələri respublikanın dünya iqtisadiy-yatına inteqrasiyasının başlıca amilidir. Xarici investisiyalar təkcə maliyyə resurslarının fiziki axını olmayıb, bu həm də qabaqcıl

texnologiya, nou-hou, idarəetmənin ən yeni təcrübələri və potensial bazarlara çıxış deməkdir. Neft amliinin ixrac siyasətinə digər təsiri valyuta rejiminin liberallaşdırıması və valyutaların sərbəst köçürülməsinə şərait yaradılması ilə əlaqədardır. Neft amili ixrac strategiyasının təkmilləşdirilməsində mühüm rol oynasa da, ölkənin potensial imkanları nöqteyi-nəzərindən bu sahədəki çatışmazlıqlar hələ də çoxdur. Bu ən əsası ölkənin ixrac siyasətində neftin üstün rola malik olması ilə əlaqədardır. İxracın strukturunda yanacaq-enerci, xüsusilə, neft və neft məhsullarının xüsusi çəkisinin yüksək olması xarici ticarət kəsirinin dünya yanacaq bazarındakı qiymət dəyişmələrindən asılılığına səbəb olmuşdur. Bu özünü 1998-ci ildə daha kəskin şəkildə bildirdi. İxracın neftlə bağlılığı illər üzrə artaraq 2001-ci ildə 78,7% olmuşdur. Digər mənfi hal ixracda xam neftin xüsusi çəkisinin yüksək olması ilə bağlıdır. Ümumiyyətlə ölkənin ixrac strategiyasında neftin rolu aşağıdakı səbəblərlə izah edilir: respublika bu məhsulların hasilatı və emalı üzrə kifayət qədər müqayisəli üstünlüyə malikdir; neft sektorunun texnoloji bazası digər sahələrə nisbətən müasir vəziyyətdədir. Sənaye istehsalının nisbətən cüzi hissəsi xarici bazarlarla təmasda olur. Milli sərhədlər çərçivəsindən kənara çıxmayaraq belə istehsal sahələrinə maşınqayırma, yüngül və yeyinti sənayesi aiddir. İnteqrasiya proseslərində yaxından iştirak edən və ixracda xüsusi payı yüksək olan sahələr neft hasilatı və emalı sənayesidir. Onu da qeyd etmək vacibdir ki, ölkənin emal sənayesinin beynəlxalq əmək bölgüsü prosesində iştirakı müəyyən qədər sahələrarası səviyyədə həyata keçirilir. Yəni, respublika özünün milli əmtəə bazarlarının tədricən daha çox hissəsini xarici istehsalçılara vermək məcburiyyətindədir. Azərbaycan Respublikasının ixrac strategiyasının indiki vəziyyətini belə izah etmək olar: ixracda yüksək inhisarlaşmanın ləğv olunması, ixracla məşğul olan subyektlərin sayının artması; ixracın tənzimlənməsində iqtisadi rıçaqların (vasitələrin) gömrük tariflərinin rolunun ön plana çəkilməsi; ixracın dövlət

maliyyələşdirilməsinin rolunun azalması, ixracın valyutakredit hesablaşmalarına kommersiya banklarının (həm milli, həm də xarici valyuta ilə) rolunun artması. Bütün bunlara baxmayaraq ölkədə xarici ticarətin liberallaşdırılması və dünya iqtisadi sisteminə inteqrasiyasının təmin olunması istiqamətində mühüm addımların atılmasını inkar etmək olmaz. Son 3-4 ildə xarici ticarətin tənzimlənməsində əsas ağırlıq mərkəzi inzibati metodlardan gömrük-tarif tənzimlənməsinə yönəldilmişdir. Əgər 1992-ci ildə ixracı lisenziyalaşdırılan malların sayı 30-dan çox idisə, hazırda bu tədbir 3-4 mal üçün, həm də icazə şəklində tətbiq olunur. Mərkəzləşdirilmiş nəzarət ayrı-ayrı orqanların nəzarəti ilə əvəz olunmuşdur. Bütün bunlar isə, xarici ticarətin liberallaşdırılması, sərbəst bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirilən tədbirlərin mühüm tərkib hissələridir. Qeyd etmək lazımdır ki, Azərbaycan kimi keçid dövründə olan ölkələrdə idxalı əvəzetmə siyasətinə daha böyük ehtiyac vardır. Azərbaycanda idxal əvəzləyici və ixracın genişləndirilməsi siyasətinin həyata keçirilməsi bir sıra məsələlərin həlli ilə birbaşa əlaqəlidir: 1. Sənaye istehsalı üçün gərəkli olan maliyyə vasitələri hansı mənbələr hesabına əldə ediləcək və əsas istehsal gücləri məhz hansı - dövlət, yaxud özəl bölmədə yaradılacaq; 2. Xarici investisiyalar bu sahələrə hansı şərtlər əsasında cəlb olunacaq; 3. Sənayeləşmə prosesi sosial-İqtisadi strukturda hansı irəliləyişlərlə müşayiət olunacaq; 4. İnvestisiya resurslarının səmərəli nisbəti (daxili və xarici mənbələr) necə müəyyən olunacaq. Respublikanın xarici ticarət siyasətində idxaləvəzləyici, yaxud ixracın genişləndirilməsi istiqamətlərinə üstünlük verilməsi aşağıdakı amillərin komlpeks uçotunu tələb edir: ölkənin iqtisadi inkişafının ümumi səviyyəsi; İqtisadiyyatın maliyyə-material resursları ilə təmin olunma dərəcəsi; peşəkar kadrların mövcudluğu; xarici sərmayədarlar tərəfindən maddi-texniki yardımın perspektivləri. Hazırda Azərbaycanın bu və ya digər inkişaf strategiyasının seçimi hər iki istiqamət üzrə müəyyən əlverişli və əlverişsiz

cəhətlərlə səciyyələnir. Həm idxaləvəzləyici, həm də ixracyönümlü sənaye kompleksi yaratmaqdan ötrü ölkə aşaığdakı üstünlüklərə malikdir: - zəngin təbii ehtiyatlar; - yaxın qonşularla uzun illərdən bəri mövcud olmuş təsərrüfat əlaqələri; 283 - ucuz əmək resurslarının mövcudluğu. Beynəlxalq təcrübədə ixrac yönümlü istehsalın inkişafının stimullaşdırılması məqsədilə müxtəlif dövlət tədbirləri sistemi istifadə olunur. Müasir şəraitdə müxtəlif maliyyə güzəştləri sistemi formalaşmışdır, bu güzəştlər sistemi yerli istehsalçılara daxili və xarici bazarlarda rəqabət qabiliyyətliliyin yüksəldilməsi məqsədilə təqdim edilir. Onlara ixrac mükafatları formasında birbaşa dotasiyaları aid etmək olar. Bundan başqa, ixracın stimullaşdırılmasının digər üsullarına güzəştli şərtlərlə ixrac kreditlərini, dövlət sığortasının, müxtəlif zəmanətlərin təqdimi, müxətlif vergi güzəştləri və s. aid etmək olar. Dövlət səviyyəsində maliyyə resurslarının səfərbər olunmasında və maliyyə sabitliyinin yaranmasında dövlət büdcəsinin xüsusi rolu vardır. Azərbaycanda da dövlət büdcəsinin gəlir hissəsi formalaşdıqca, gəlirlərin həcmi artdıqca iqtisadi inkişafın səviyyəsi durmadan artır, inflyasiyanın səviyyəsi azalır. Məhz maliyyə resurslarının səmərəli təşkil olunmasından asılı olaraq dövlət öz üzərinə düşən funksiyaların yerinə yetirilməsi səviyyəsini müəyyən edir. Azərbaycanda bazar münasibətləri tələblərinə uyğun dayanıqlı və tarazlı iqtisadiyyatın formalaşması respublika iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiya etməsi üçün öncə ölkədə maliyyə sabitliyinin təmin olunması lazımdır. Bununla əlaqədar olaraq istehlak bazarında tələb və təklifin tarazlaşdırıl- ması məqsədilə iqtisadi durumun dayanıqlılığına və ümumi sabitliyə, o cümlədən, inflyasiyanın qarşısının alınması və milli valyutanın möhkəmlənməsinə nail olunması belə amillərdəndir. Bu göstərilənlərlə bərabər maliyyə sabitliyinin yaradılmasının mühüm məsələlərindən biri də büdcə kəsirinin (yaxud xərclərin gəlirlərlə örtülməyən hissəsinin)

aradan qaldırılmasına nail olunmasıdır. İqtisadi inkişaf strategiyasının bəhrələridir.

## 5.4. Beynəlxalq maliyyə institutlarının Azərbaycan İqtisadiyyatının inkişafında rolu.

Beynəlxalq maliyyə institutlarının Azərbaycan iqtitsadiyyatının inkişafında rolu və bu qurumlarla əməkdaşlığın səmərəliliyinin artırılması istiqamətləri Azərbaycan müstəqillik əldə etdikdən sonra, respublikamızda iqtisadiyyatın bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirilməsi, bazar münasibətlərinə keçidin təmin edilməsi ən aktual məsələlərdən birinə çevrildi. Bazar münasibətlərinə keçidin təmin edilməsi və milli iqtisadiyyatın inkişaf etdirilməsi üçünsə investisiya resurslarının cəlb edilməsi zəruri idi. Lakin bunun yalnız daxili imkanlar hesabına edilməsi mümkünsüz idi. Bunun üçün xarici investisiyaların ölkəyə cəlb edilməsinə böyük zərurət yaranmışdır. Xarici investisiyaların cəlb edilməsinin sürətləndirilməsi üçünsə milli iqtisadiyyatın dünya qtisadiyyatına inteqrasiyası səmərəli qurulmalı, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq təşkil edilməli idi. Artıq ötən illər ərzində respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq qurumlarla əməkdaşlıq istiqamətində xeyli işlər görülmü° və müsbət nəticələr əldə edilmişdir. Tədqiqatlar göstərir ki, Azərbaycan Respublikası İqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasında aşağıdakı istiqamətlər xüsusi əhəmiyyət kəsb edir: beynəlxalq maliyyə institutları və beynəlxalq İqtisadi təşkilatlar ilə əməkdaşlıq; müxtəlif ölkələr ilə ikitərəfli əməkdaşlıq; müxtəlif qurumlar çərçivəsində çoxtərəfli əməkdaşlıq; Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi kimi iqtisadi inteqrasiya və s. Qeyd etməliyik ki, Azərbaycanın dünya İqtisadiyyatına, beynəlxalq maliyyə institutlarının hökumətimizlə əməkdaşlığa maraq göstərməsində

1994-cü ildə Xəzər dənizinin Azərbaycana məxsus sektorunda yerləşən bir sıra yataqların işlənilməsi üzrə Hasilat Pay Bölgüsü Sazişinin («Əsrin müqaviləsi») imzalanması və onun icrasına başlanılması müstəsna rol oynamışdır. Bu saziş çərçivəsində Azərbaycanın neft sektoruna 30 il ərzində 60 milyard dollar investisiya qoyulması razılaşdırılmışdır. Neft sənayesinə belə irihəcmli sərmayənin yatırılması qeyri-neft sektoruna da digər şirkətlərin investisiya yatırmalarını, həmçinin maliyyə qurumlarının irihəcmli kredit tranşları açmalarını stimullaşdırmışdır. Beynəlxalq maliyyə qurumları tərəfindən Azərbaycanın təhsil sektoruna da investisiyalar yönəldilmişdir. Bu sıradan ilk saziş 1999-cu ildə Beynəlxalq İnkişaf Assosasiyası ilə imzalanmışdır. «Təhsil islahatı» adlanan layihədə tədris planının təkmilləşdirilməsi, pedaqoqların təkrar hazırlığı, bu sahədə görülən işlərin monitorinqi və qiymətləndirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Layihənin reallaşdırılması üçün Bakı, Sumqayıt, Gəncə, Naxçıvan və Lənkəran şəhərlərində fəaliyyət göstərən 22 orta məktəb, Bakıda Redaqoji kadrların Bakı İxtisasartırma və Yenidənhazırlanması İnstitutu və onun Lənkəran filialı, Gəncə və Naxçıvanda Müəllimlərin İxtisasartırma Institutları, Təhsil Problemləri üzrə Elmi-Metodiki Mərkəz və Elmi-Tədqiqat İnstitutu pilot variantlar kimi seçilmişdir. 1999-2003-cü illərdə bu pilot məktəb və institutların pedaqoqları ABŞ-da, Böyük Britaniyada, Almaniyada və digər xarici ölkələrdə ixtisas-artırma kursları keçmişlər və Hollandiyanın SITO mərkəzinin əmək-daşları seminarlar aparmaq üçün respublikaya dəvət edilmişlər. Layihə çərçivəsində 2000-2003-cü illərdə bütün pilot məktəblər və institutlar üçün 466 kompüter, 64 printer, 93 televizor, 208 stereomaqnitafon, 91 videomaqnitafon, 184 multimedia və diaproyektor, 29 surətçıxarma aparatı, 27 faks aparatı, 27 videokamera, 6 min ədəd məktəb partası, 470 yazı lövhəsi, 1900 ədəd akt zalı üçün kreslo və başqa avadanlıqlar alınmışdır. BIA tərəfindən layihəyə ayrılmış 5 mln. dolların 97,08 %-i, yaxud 4,972 mln. dolları xərclənmişdir. Bunun 1,154

mln. dolları məqsədli işlərə, 1,816 mln. dolları məsləhət xidmətlərinin haqqının ödənilməsinə, 622,577 min dolları treyninqlərə, 1,307 mln. dolları materialların alınmasına sərf edilmiş, 70,860 min dolları isə əməliyyat xərcləri təşkil etmişdir. Bu layihə başa çatdıqdan sonra BİA Azərbaycanın təhsil sistemində yeni və iri bir layihənin reallaşdırılmasına qərar verdi. 2003-cü il sentyabrın 19-də BİA ilə Azərbaycan Hökuməti arasında kredit sazişi imzalandı. «Azərbaycanın təhsil sistemində islahatın aparılması» adlı bu layihə 3 mərhələdən ibarətdir: 2003-2007- ci illər, 2007-2010-cu illər və 2010-2013-cü illər. 10 il müddətində həyata keçiriləcək bu layihə məktəblilər, müəllimlər və təhsil sahəsində çalışan məmurlar daxil olmaqla 1,6 milyon nəfəri əhatə edəcək və onun ümumi dəyəri 60 mln. dollar təşkil edir. Layihənin icrasında əsas məqsəd kimi aşağıdakı göstərilir: tədris proseslərinə yeni standartlar tətbiq etməklə mövcud tədris sistemini təkmilləşdirmək əsasında Azərbaycanda ümumi və orta təhsilin keyfiyyətini yüksəltmək. Layihənin I mərhələsində – 2007-ci ilin sonuna qədər həyata keçiriləcək tədbirlər beş istiqamətdə quruplaşdırılmışdır. Onlar aşağıdakılardır: ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi; təhsilin maliyyələşdirmə sisteminin səmərəliliyinin artırılması və islahat işlərinin sürətləndirilməsi; məktəblərdə qrant proqramlarının reallaşdırılması; idarəetmə, planlaşdırma və monitorinq işlərinin təşkili; layihənin kordinasiyasının və monitorinqin həyata keçirilməsi. Birinci istiqamət üzrə aşağıdakı tədbirlər həyata keçirilməlidir: kurrikumların islahatı – 1,28 mln. ABŞ dolları; 308 - hazırlıq, müəllimlərin təkrar hazırlığı və onların ixtisasının artırılması – 2,57 mln. ABŞ dolları; məktəblərin mütaliə materialı ilə təmin edilməsi və dərsliklərin yaradılması – 3,27 mln. ABŞ dolları. İkinci istiqamət üzrə həyata keçiriləcək «Maliyyələşdirmə və büdcə islahatları» tədbirlərinə 450 min ABŞ dolları, məktəblərin maddi-texniki bazasının gücləndirilməsinə 8,42 mln. dollar vəsait xərclənməsi nəzərdə tutulub. Bu layihənin üçüncü

istiqamətidir. Dördüncü istiqamətə aşağıdakı tədbirlər aiddir: şagirdlərin biliyinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi – 1,12 mln. ABŞ dolları;  təhsilin idarə edilməsi üzrə informasiya sisteminin qurulması – 700 min ABŞ dolları; idarəetmə və planlaşdırma imkanlarının artırılması – 510 min ABŞ dolları. Təhsilin idarə edilməsinin informasiya sisteminin qurulması birinci mərhələdə Təhsil Nazirliyini, rayon təhsil şöbələrini, ali və orta ixtisas məktəblərini, ikinci mərhələdə isə respublikanın bütün məktəblərini əhatə edəcək. Bununla təhsil sisteminin vahid informasiya bazası yaradılacaq ki, bunun vasitəsi ilə hər bir şagird və müəllim haqqında zəruri məlumatları almağa, müxtəlif məktəblərin, yaxud rayon və regionların təhsildəki uğurlarının statistikasını əldə etməyə imkan olacaq. Beşinci istiqamət üzrə isə - 1,87 mln. ABŞ dollarının xərclənməsi planlaşdırılıb. DB-nin kreditinin 1,7 mln. ABŞ dolları 846 min nüsxə «Uşaq ensiklo- pediyası» nəşr edilmiş və 2005-ci ildə ölkənin bütün məktəblərində paylanılmışdır. 2003-cü ilin avqust ayında Səudiyyə İnkişaf Fondu Azərbaycanda, Bakı şəhərində 5 min 948 yerlik beş müasir ümumtəhsil məktəbinin tikintisi üçün 9,75 mln. ABŞ dolları kredit ayırmışdır. Fond bu krediti 20 il müddətinə, illik 2 %-lə vermişdir. Mütəxəssislərin fikrincə, beynəlxalq maliyyə qurumlarının təhsil sisteminə ayırdığı kreditlər Azərbaycan üçün ona görə sərfəlidir ki, ayrılan vəsait təhsil sisteminin inkişafına yardım edən mühüm vəzifələri vaxtında həll etməyə, həm də krediti uzun illərdən sonra qaytarmağa imkan verir. Təhsil Nazirliyinin mütəxəssislərinin hesablamalarına görə Azərbaycanın təhsil sistemində islahatların aparılması üçün 250 mln. dollar vəsait tələb olunur. Bunun üçünsə beynəlxalq maliyə qurumlarının kreditdləri mühüm əhəmiyyətə malik-dir. Qeyd etmək lazımdır ki, təhsil daim islahat tələb edən sahədir. Təhsil ölkənin gələcəyi, inkişaf perspektivlərini müəyyən edən ən başlıca amildir. Dövlət büdcəsindən bu sahəyə vəsaitin qoyuluşu ilbəil artaraq 1,1 milyard manata çatmışdır. Heydər Əliyev Fondunun

prezidenti, millət vəkili, 309 YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ölkəmizdə təhsilin inkişafına böyük qayğı göstərir. Respublikamızda 1400 yeni məktəb tikilmiş, kompüterləşdirilmiş, 2008-ci ildə isə birinci sinfə gedən bütün şagirdlərə pulsuz dərs vəsaitləri təqdim olunmuşdur. 2005-2008-ci illər üçün Dövlət Proqramına (Elektron Azərbaycan) uyğun olaraq «Elektron hökumət»in, «Elektron məktəbin»in və bilik iqtisadiyatının formalaşması prosesləri inkişaf etdirilir və genişləndirilir. BİA Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hazırladığı, ümumi dəyəri 24,5 mln. ABŞ dolları olan «Təxirəsalınmaz ekoloji investisiyalar layihəsi»nin maliyyələşdirilməsi üçün 20 mln. ABŞ dolları dəyərində kredit ayırmışdır. Layihə çərçivəsində aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulmuşdur: Neftçalada yeni balıqyetişdirmə zavodunun inşası hesabına körpə nərələrin çoxaldılması işinin bərpası – 9,1 mln. ABŞ dolları; Hədsiz çirklənmiş bir ərazinin zərərsizləşdirilməsi hesabına civə təmizləmə texnologiyası və metodikasının nümayişi, Sumqayıtda radiaktiv tullantıların basdırılması üçün poliqonun tikilməsi – 8,0 mln. ABŞ dolları; Abşeron yarımadasında bir sahilyanı neft yatağında çirklənmənin mövcud səviyyəsinin aşağı salınması – 5,1 mln. ABŞ dolları; Ekoloji idarəetmənin hüquqi və nizamlayıcı bazasının yenidən nəzərdən keçirilməsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin potensialının inkişafı. Neftçalanın Xıllı qəsəbəsində yerləşən, sözügedən zavod layihə çərçivə- sində müasir texnologiya ilə təchiz edilmiş və 2003-cü ilin oktyabr ayında işə salınmışdır. Bu zavodda ildə 15 mln. körpə nərə balığı yetişdirilməsi gücü təmin olunmuşdur. 2004-cü ildə bu zavodda nərəkimilər cinsindən 5,8 mln. körpə balıq yetişdirilib dənizə buraxılmışdır. Layihə çərçivəsində Sumqayıt şəhərində fəaliyyət göstərən, «Azərkimya» Dövlət Şirkətinin tabeliyində olan Səthi Aktiv Maddələr Zavodunun civə ilə çirklənmiş ərazilərinin zəhərli

tullantılardan təmizlənməsi həyata keçirilmiş, tullantıların basdırılması üçün 50 hektarlıq sahədə poliqon tikilmişdir.

### 5.5. Beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın- səmərəliliyinin artırılması istiqamətləri.

Keçid iqtisadiyyatı şəraitində hər bir ölkə üçün beynəlxalq maliyyə qurumları ilə, eləcə də digər kreditorlarla əməkdaşlığın yarada biləcəyi başlıca problem xarici borcun artması və onun milli iqtisadiyyat üçün ağır yükə çevrilməsidir. Buna görə də bu mövzuda tədqiqat işi yerinə yetirilərkən xarici borclanma məsələsinə diqqət yetirilməsi vacibdir. Ümumiyyətlə, xarici borclanmada dövlətin iştirakı əsasən iki formada olur. Birinci variantda dövlət kredit vəsaitinin alıcısı kimi bilavasitə çıxış edir. İkinci halda isə dövlət borc vəsaitinin alınması üçün yalnız zəmanətçi rolunu oynayır. Bu baxımdan Azərbaycanın beynəlxalq maliyyə qurumları və digər maliyyə təsisatları ilə münasibətdə yaranmış xarici dövlət borcunu iki qrupa ayırmaq olar: birincisi, bilavasitə hökumətin aldığı kreditlər, ikincisi isə hökumətin zəmanəti ilə müxtəlif təşkilatlar tərəfindən alınan kreditlər. Adətən beynəlxalq maliyyə qurumları tərəfindən hökumətin bilavasitə aldığı kreditlər əsasən aşağıdakı istiqamətlərə xərclənir: büdcə kəsirinin maliyyələşdirilməsi; vaxtı keçmiş dövlət borclarının ödənişi; tədiyyə balansında tarazlığın təmin edilməsi; iqtisadi subyektlərin kredit ehtiyaclarının ödənilməsi və s. Dövlət zəmanət verdiyi kredit üzrə əməliyyatda üçüncü tərəf kimi iştirak edir. Bu zaman dövlət ilə kreditor arasında zəmanət sazişi bağlanır. Bir qayda olaraq dövlət zəmanəti ölkənin iqtisadi inkişafı baxımından strateji hesab edilən sahələrdə fəaliyyət göstərən müəssisələrin aldığı kreditlərə verilir. Beynəlxalq maliyyə qurumundan alınmış kreditlərə verilən dövlət zəmanəti əsasən bu şərtlər əsasında

təqdim olunur: maliyyə orqanı ilə təsərrüfat subyektinin hesablaşma və ya depozit hesablarından vəsaitləri çıxarmaq hüququ verən qarşılıqlı müqavilənin bağlanılması; subyektlər arasında girov müqaviləsinin bağlanılması; müvafiq icra hakimiyyəti orqanlarına təsərrüfat subyektinin bank hesablarına şərtsiz nəzarət etmək hüququnu verən razılaşmanın həyata keçirilməsi; təsərrüfat subyektinin onun maliyyə vəziyyətinin qiymətləndirilməsi məqsədilə tələb olunan bütün məlumatları təqdim etməsi.

Son illər Azərbaycanda dövlət zəmanəti ilə alınmış kreditlərdə sahə və istiqamətlərin xüsusi çəkisinə görə ardıcıllığı belə olmuşdur:

I – iqtisadi islahatların və struktur dəyişikliklərinin maliyyələşdirilməsi,

II – yanacaqenerji sektorunda yenidənqurma işlərinin həyata keçirilməsi,

III – nəqliyyat xidmətinin keyfiyyətinin yüksəldilməsi,

IV – sair işlərin maliyyələşdirilməsi,

V – irriqasiya drenac işlərinin görülməsi,

VI – kimya sənayesi sahəsində rekonstruksiya,

VII – kənd təsərrüfatı və aqrar sənaye sahəsi və s.

Tədqiqatçıların fikrincə, Azərbaycanın xarici borcunun makroiqtisadi xarakteristikası onu deməyə imkan verir ki, bu borcun dövlət büdcəsi və qızılvalyuta ehtiyatı üçün yük səviyyəsi beynəlxalq standartların məqbul hesab etdiyi həddədir. Həmçinin bu borcun parametrləri MDB ölkələrinin, Şərqi Avropa ölkələrinin göstəriciləri ilə müqayisədə daha yaxşıdır. Azərbaycanın xarici borcu barədə aşağıdakıları qeyd etmək olar: - bu günə qədər Azərbaycanın beynəlxalq maliyyə qurumlarından, eləcə də digər kreditorlardan aldığı kreditlərin ümumi həcmi 1,6 mlrd. dollardan çoxdur; - xarici borcun 30 %-ə qədəri iqtisadi islahatların həyata keçirilməsinə, 70 %- ə qədəri isə investisiya layihələrinin reallaşdırılmasına sərf edilmişdir; - istifadə olunmuş xarici

kreditlərin 47 %-dən çoxu yanacaq-energetika kompleksinin, 8 %-i kənd təsərrüfatı və meliorasiyanın, 12 %-i nəqliyyat sektorunun payına düşmüşdür; kreditlərin valyuta strukturunda ABŞ dollarının payı 20 %-dir, qalan hissəni isə SDR və Avropa dövlətlərinin valyutaları təşkil edir; dövlət zəmanətilə cəlb edilmiş kreditlərin böyük hissəsi uzunmüddətlidir – 35 ildən 40 ilə qədər; beynəlxalq maliyyə qurumlarının kreditləri 1 mlrd. dollara yaxındır və onlar illik 1,75-1,5 %-lə verilmişdir; kreditlərin qaytarılması məqsədilə 2006-cı ilin dövlət büdcəsindən 201,4 mlrd. manat vəsait ödənilmişdir, bu 2005-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 6 dəfədən də çox olmuşdur və s. Qeyd etmək lazımdır ki, 1993-2005-ci illər ərzində respublikamızın xarici borcu dinamik şəkildə artmışdır. Beynəlxalq standartlara görə xarici borcun ÜDM-ə nisbətən 40-60 % təşkil etməsi normal qəbul edilir. Ancaq diqqət yetirsək görərik ki, Azərbaycanda bu göstərici 2000-ci ildə maksimum həddə olmuş və 23,7 % təşkil etmişdir. Ancaq borcun ixracla müqayisəsi vəziyyətin qənaətbəxş olmadığını göstərir. 2004-cü ildə bu göstərici ixracın 80 %-dən çoxdur. Bu da ixracın artım tempinin arzuolunan şəkildə olmaması ilə bağlıdır. Diqqət yetirsək görərik ki, xarici borcların sürətli artım tempi 1995-1999-cu illərdə müşhidə edilmişdir. Bu 5 il ərzində xarici borc 14 dəfədən çox artmışdır. 1993-2004-cü illərdə isə belə artım 26,7 dəfə olmuşdur. Şübhəsiz ki, ölkənin borclanması özündə bir riski təcəssüm etdirir. Beynəlxalq təcrübəyə əsasən borclu ölkədə bazardakı payını müstəqil genişləndirməyə qabil, tez artan, dəyişilən və rəqabət qabiliyyətli ticarət sektorunun mövcudluğu müsbət hal sayılır.

# Fəsil 6. Azərbaycanın Regional münasibətləri sistemində ikitərəfli iqtisadi siyasət.

## 6.1. Dünya dövlətlərinin Avrasiya siyasəti: region ölkələri və Azərbaycan.

Hər bir ölkənin müstəqil dövlət kimi dünya birliyində tutduğu mövqe və qazandığı nüfuz onun beynəlxalq, regional və milli səviyyələrdə reallaşdırdığı milli inkişaf xəttindən, həyata keçirdiyi geosiyasətin çevikliyindən, səmərəliliyindən və ətraf aləmlə yaratdığı effektiv geosiyasi münasibətlərdən asılı olur. Azərbaycanın region və dünya ölkələri ilə geosiyasi münasibətlərindən və vəzifələrindən söz açan Prezident İlham Əliyevin söylədiyi kimi, ölkənin müstəqilliyini möhkəmlətmək, davamlı inkişafını və suveren dövlət hüquqlarını təmin etmək, beynəlxalq münasibətlərin əksər subyektləri ilə qarşılıqlı faydalı münasibətlərini yaratmaq və milli maraqlarını maksimum qorumaqdan ibarətdir. Azərbaycanın yerləşdiyi region dünya düzümünün formalaşmasına təsir göstərmək gücündə olan geosiyasi məkandır. Dünyanın ən həssas regionlanndan sayılan Qafqaz və Xəzər hövzəsində gedən proseslər və regionda mənafeyi olan mərkəzlərin marağı çərçivəsində deyil, həm də əsrlər boyu burada gedən geosiyasi proseslər prizmasından təhlil etmək doğru olardı.

Müasir dövrdə geosiyasət xalqların, dövlətlərin və regionların inkişafında əsas amillərin birinə çevrilib. Çünki istənilən dövlətin,xalqın taleyi, müxtəlif coğrafi amillərə və geosiyasi güc mərkəzlərinin bu məkanda tutduğu mövqe,atdığı addımlar və yeritdiyi siyasətdən asılıdır. Azərbaycanın regionların formalaşmasına təsir göstərmək gücündə olan geosiyasi məkandır. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geosiyasi, geoiqtisadi və hərbi-strateji mühitinin formalaşmasında

Azərbaycanın yürütdüyü milli, regional və beynəlxalq siyasət vacib amillərdəndir. Ölkənin regionda gedən əksər geosiyasi və geoiqtisadi proseslərdə fəal iştirakının təmin edilməsi isə bu siyasətin əsas istiqamətindən biri və milli maraqlarının qorunmasıdır. Avrasiyanın mühüm əhəmiyyətə malik geosiyasi bölgələrdən biridə Qərb və Şərq əlaqələridə keçid – körpü rolunu oynayan Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqazdır. Avrasiyanın Mərkəzi Asiya hissəsi Avropa və Asiya nəqliyyat kommunikasiya dəhlizinin Asiya hissəsini təşkil edirsə, Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqaz onun Avropa hissəsini təşkil edir. Avrasiyanın Avropa hissəsinin ən böyük dövləti Rusiyadır. Rusiyadan başqa bu bölgədə Azərbaycan, Türkiyə, Ukraniya, Ruminya, Bolqarıstan, Gürcüstan və başqaları yerləşir. Bu ölkələr siyasi inkişafı demokratik transformasiya və Qərbə inteqrasiya baxımından Orta Asiya ölkələrindən daha irəlidədir. Hövzə ölkələrindən Polşa, Ruminya, Bolqarıstan və Türkiyə Şərqi Avropa dövlətləri çərçivəsində artıq bütün parametrləri üzrə Qərbin iqtisadi,siyasi və hərbi təhlükəsizlik sisteminə inteqrasiya olunmuş hesab edilir.

Azərbaycanın xarici siyasət istiqamətləri və proitetləri sırasında Avropa və Asiyanın qovşağında yerləşən subregion ölkələri ilə münasibətlər həmişə xüsusi yer tutub.

Avrasiya geostrateji və geosiyasi əhəmiyyətinə görə dünyanın bütün aparıcı dövlətlərinin, qloballaşma və inteqrasiya mərkəzlərinin, beynəlxalq və regional təşkilatların diqqətini daim özünə cəlb etmişdir.

1. Avropa ilə Asiyanın qovşağında Azərbaycanın yerləşməsi onu dünyanın əsas kommunikasiya (su, quru və hava) dəhlizləri kimi tanıtmış və transmilli bir faktora çevirmişdir;

2. Ərazi xarakteristikası (təbbi xammal mənbələri ilə zənginliyi, mühüm geostrateji əraziləri), əmək resuslarının potensialı (ucuz işçi qüvvəsi, istehsalat, satış bazarları imkanlarının genişliyi, transmilli

inkişafa meyilliyi və s.) dünya enerji və xammal ehtiyatlarının böyük qisminə malik olması və s. onun transmilli geostrateji əhəmiyyətini artırmışdır.

Eyni zamanda beynəlxalq sülh, təhlükəsizlik üçün kəsb etdiyi əhəmiyyət nəzərə alınmaqla bu bölgənin dünya siyasətinin mərkəzinə çıxartmışdır. Bu da müvafiq olaraq ABŞ və onun Avropa müttəfiqlərini (NATO, Avropa İttifaqı), Cənub-Şərqi Asiyanın Çin, Yaponiya, Cənubi Asiyanın Pakistan və Hindistan, regionun Rusiya, İran, Türkiyə kimi böyük dövlətlərini bu bölgədə öz siyasətini yürütməyə sövq etmişdir. Avrasiyanın geosiyasi xarakteristikası, dünya ölkələrinin bölgədə təmsil olunan və toqquşan maraqları, regional münasibətlərin vəziyyəti və inkişaf meyilləri, Rusiyanın geosiyasi maraqları, onun bölgə ölkələri ilə münasibətlərinin xarakteri və s. haqqında məsələləri klassik rus geosiyasətçilərindən tutmuş, "köhnə" və "yeni Avrasiyaçılar" adlanan cərəyanların nümayəndələri də daxil olmaqla əksər rus alimləri öz əsərlərində geniş təhlil etmişdir.

Avrasiyanın dünya siyasətində oynadığı müasir geosiyasi, hərbi-geostrateji və geoiqtisadi rolu ABŞ politoloqu Zbiqnev Bjezinski də çox yüksək dəyərləndirmişdir. Makinder kimi Bjezinski də hesab edir ki, qlobal dünyanın gələcək geostrateji, geoiqtisadi və transmilli siyasi maraqları Avrasiya məkanında həll olunacaqdır. Lakin Makinderdən fərqli olaraq, Bjezinski yeni minillikdə dünyanın taleyinin  hesab olunan Şərqi Avropada" deyil, daha çox Xəzər-Qara dənizləri hövzəsi və Cənubi Qafqazda həll olunduğu qənaətinə gəlir. Müəllif ABŞ-ı və Qərb dünyasını öz əsas güclərini bu bölgəyə yönəltməyə, regionun yeni müstəqil ölkələrinə dəstək verməyə, onları Rusiyanın geosiyasi təsir dairəsindən azad edərək, qərbə inteqrasiya etdirməyə çağırır. Z. Bjezinskinin fikrincə, Qərb ilk növbədə bölgənin Azərbaycan, Ukrayna, Qazaxıstan, Gürcüstan, Özbəkistan kimi müstəqil siyasət yürüdən dövlətlərinin transmilli geosiyasi və geoiqtisadi layihələrini dəstəkləməli

və onların vasitəsilə özünün bu bölgədəki strateji mövqelərini gücləndirməlidir.

## 6.2. Mərkəzi Asiya, Xəzər-Qaradəniz hövzəsi ölkələri müasir dünya siyasətində.

Əlverişli coğrafi, geosiyasi, geoiqtisadi, hərbi-geostrateji mövqelərini; yürütdüyü müstəqil daxili və xarici siyasətini; zəngin təbii ehtiyatlarını, maddi, mənəvi, əmək və insan resurslarını, Şərq-Qərb alternativ nəqliyyat-kommunikasiya, tranzit və enerji dəhlizlərinin yaradılması sahəsində yürütdüyü transmilli siyasəti və tutduğu düzgün mövqeyini; daxili ictimai-siyasi sabitliyi təmin etməsini, demokratik dövlət, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı quruculuğu prinsiplərini rəhbər tutmasını; son on ildə nail olduğu dinamik sosial-iqtisadi inkişafı və gələcək inkişaf potensialını nəzərə alaraq Azərbaycan Respublikasını bölgənin geosiyasi cəhətdən ən əhəmiyyətli və perspektivli ölkəsi hesab edirlər. Bu amillər geosiyasi xarakteristikanın əsas dəyər ölçüləri kimi çıxış edərək ölkənin beynəlxalq aləm üçün tərəfdaşlıq dəyərini, bugünkü dinamik inkişafını şərtləndirmişdir.

Azərbaycanın mühüm geoiqtisadi, geostrateji, geosiyasi bölgələrindən biri Orta (Mərkəzi) Asiyadır. Dünya xəritəsində özünün geniş ərazisi ilə (4 mln kv km) xüsusi seçilən bu regionda ümumi əhalisi 55 mln nəfər olan 5 dövlət – Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Tacikistan yerləşir.

Şərq-Qərb əlaqələrində ən qısa və əlverşli nəqliyyat (quru, su, hava və dəmiryolu), komminikasiya (telefon, rabitə, kabel-optik, enerji daşıyıcıları xəttləri və kəmərləri və s.) imkanları da bu bölgə ölkələrinə məxsusdur.

Orta-Asiya, Cənubi Qafqaz, Qara və Xəzər dənizi hövzəsi təbbi qaynaqları, xüsusən enerji daşıyıcıları (neft, qaz),qiymətli metal (qızıl, mis, uran, alminium, sink və s.) ehtiyatları ilə zəngindir.Bu geostrateji dəyərlər dövlətlərdə Qərb (ABŞ, Avropa dövlətləri), Şərq (Çin, Cənubi Koreya, Yaponiya, Hindistan, Pakistan) və Rusiya arasında maraq mübarizəsini şərtləndirmiş stimullaşdırmışdır.

Avrasiyada xüsusən Orta Asiyada ənənəvi olaraq Rusiyanın mövqeləri və deməli digər ölkələr qarşısında təbbi üstünlüyü mövcud idi.

Orta Asiyanın 5 ölkəsi öz arasında Mərkəzi Asiya Əməkdaşlıq Təşkilatıadlı qrumda yaratmışdılar. Qonşu dövlətlərlə birgə iqtisadi Əməkdaşlıq Təşkilatında iştirak edirlər. Orta Asiya ölkələri bu çoxtərəfli əlaqələrə, beynəlxalq və regional qurumlara üzvülüyə öz müstəqil dövlətçilik maraqlarını təmin etmək, gələcəkdə Rusiya, yaxud digər ölkələr tərəfindən müstəqilliklərinə edilə biləcək qəsdin qarşısını almaq məqsədi ilə qoşulmuşlar. Orta Asiya (Özbəkistan və Qırğızıstan) ərazisində ABŞ qoşunlarının və hərbi bazalarının buraxılmasına müsbət təsir göstərəcək faktor kimi baxırlar.

Hazırda Orta Asiyanın neft və qaz yataqlarının Əfqanstan, Hindistan, Pakistan, Çin, Yaponiya və digər Asiya dövlətləri ilə yanaşı Qərb ölkələri və ABŞ ciddi maraq göstərirlər.Onlar Cənubi Qafqazdan Aralıq dənizinə (Ceyhana) uzanan maqistral neft və qaz kəmərlərinə Qazaxıstan və Türkmənistan karbohidrogen sərvətlərini qoşmaq üçün ciddi səy göstərirlər. Beləliklə, göründüyü kimi Orta Asiya həm Asiyanın, həm də Avropa və Amerikanın həyatı maraqlarının əks olunduğu ən əhəmiyyətli bir regiondur ki, burada ayrı-ayrı maraqların kəsişməsi real və gözlənilәndir. Bu region Cənubi Qafqaz, Qara və Xəzər dənizi ətrafı ölkələrlə birlikdə «Avrasiya» adlanan əhəmiyyətli geosiyasi və geoiqtisadi məkanı təşkil edir.

Orta Asiyada olduğu kimi, Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqazda da bölgənin geosiyasi, geoiqtisadi və strateji hədəfləri uğrun-

da Qərb ölkələri və ABŞ bir tərəfdən, Rusiya, Çin, İran və başqa region dövlətləri isə digər tərəfdən ciddirəqabət aparan NATO-nun və Avropa İttifaqının Şərqə doğru genişlənməsi və Xəzər-Qara dəniz hövzəsi ölkələrinin Qərbin yeni qonşusuna çevrilməsi avtomatik olaraq bu bölgənin Avropanın siyasi, iqtisadi və hərbi maraq dairəsinə düşməsinə səbəb oldu. Rusiya və İran bu bölgədə yeganə ölkələrdir ki, hövzə ölkələrinin Qərbə hərtərəfli inteqrasiyasına mane olmağa və bütün gücləri ilə bu ölkələrin sabit inkişafına əngəllər yaradaraq öz təsirini qorumağa çalışırlar. Onların bu işdə müttəfiqləri  Belarus və Ermənistandır.

Hövzə ətrafında demokratik transformasiya iqtisadiyyatın modemləşdirilməsi və liberallaşma kimi transmilli məsələlərdə Orta Asiya ölkə-ləri və Çin də müəyyən qədər Rusiyanın tərəfini saxlayır və Qərbin irəliyə getməsinə maneçilik törətməyə çalışırlar.Qərbin hövzə maraqları və siyasəti ardıcıl olaraq Türkiyə, Azərbaycan, Ukraniya, Gürcüstan və Moldova tərəfindən dəstəklənir.

## 6.3. Azərbaycan beynəlxalq münasibətlər sistemində

Azərbaycan  müstəqillik qazandığı ilk illərdən etibarən beynəlxalq təşkilatlarla əlaqələr qurmağa və bu əlaqələri dərinləşdirməyə çalışmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında – Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri haqqında 119-cu maddəsində yazilib: “Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;  Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir;

maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir; dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir; dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir; nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir".

Beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı ilk növbədə ölkələrin qarşılıqlı əlaqələrinin genişləndirilməsini tələb edir ki, bu zaman da əsas istiqamətlərdən biri beynəlxalq iqtisadiyyatı tənzimləyən müxtəlif təşkilatlarla əlaqələri genişləndirməkdən ibarət olmalıdır.

Azərbaycan Respublikası 1992-ci ilin 2 mart tarixində BMT-nin üzvlüyünə qəbul edilmiş və 1992-ci il may ayının 6-da Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. BMT ilə əməkdaşlığın birinci günündən başlayaraq, Azərbaycan BMT platformasından beynəlxalq ictimAByyətin diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə və BMT-nin potensial imkanlarından istifadə etməklə sülh sazişinin əldə olunmasına çalışmışdır.(Cədvəl - 14)




Azərbaycan BMT Baş Assambleyasının işi çərçivəsində fəal iştirak edir. Belə ki, 1994 və 1995-ci illərdə BMT BA-nın 49-cu və 50-ci sessiyalarında Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının nümayəndə heyətinə başçılıq etmişdir. Azərbaycan Respublikasının Prezidenti, həmçinin, 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında iştirak etmişdir. Azərbaycan Prezidenti çıxışında qlobalizasiya mövzusuna toxunmuş və qlobalizasiyanın müsbət inkişafı, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd etmişdir. 2003-cü ilin sentyabrında isə Azərbaycan Respublikasının Baş Naziri BMT BA-nın 58-ci sessiyasında milli sosial-iqtisadi inkişaf və regional və beynəlxalq təhlükəsizliyə qarşı təhdidlərlə bağlı çıxış etmişdir.

Azərbaycan BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlıq edir. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin Qaçqınlar üzrə Ali Komissarı, BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və s. qeyd etmək olar.

Azərbaycan və BMT-nin Uşaq Fondu (UNİCEF) arasında olan əməkdaşlıq məcburi köçkün və qaçqın uşaq və yeniyetmələr arasında vəziyyətin yaxşılaşdırılması məqsədilə bərqərar olmuşdur. Azərbaycan UNİCEF-in İcra Heyətinin 1995-1997, 1998-2000-ci illər ərzində üzvü olmuşdur.

Azərbaycan BMT-nin xüsusi qurum və orqanları ilə fəal əməkdaşlıq edir. Azərbaycan Qadınların statusu haqqında Komissiyanın üzvü olmuşdur (2000-2002). Azərbaycan həmçinin Komissiyanın "Hərbi münaqişələr nəticəsində girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında" illik qəbul etdiyi qətnaməsinin əsas sponsorudur.

Azərbaycan BMT-nin xüsusi qurumları qismində BMT-nin İnkişaf Proqramı (BMTİP) və BMT-nin Sənaye İnkişaf Təşkilatı (UNİDO) ilə xüsusi əlaqələrə malikdir. Müxtəlif layihə və proqramlar yaşayış standartlarının yüksəldilməsinə, iqtisadiyyatın struktur tənzimlənməsinin həyata keçirilməsinə xidmət edir. (Cədvəl -15.)

**2015-ci ildə ölkə qrupları və qitələr üzrə idxal və ixrac** (min ABŞ dolları)
***Import and export by the countries and continents in 2015****(thsd.US dollars)*

| | Idxal *Import* | | Ixrac *Export* | | |
|---|---|---|---|---|---|
| | min ABŞ dolları *thsd. US $* | xüsusi çəkisi, %-lə *share.%* | min ABŞ dolları *thsd. US $* | xüsusi çəkisi, %-lə *share.%* | |
| Müstəqil Dövlətlər Birliyi (MDB) | 1961060,7 | 21,3 | 525389,9 | 4,6 | *Commonwealth of Independent States (CIS)* |
| Avropa İttifaqı (Aİ) | 2943312,6 | 31,9 | 6751671,8 | 59,1 | *European Union (EU)* |
| Qara Dəniz İqtisadi Əməkdaşlıq təşkilatı (QDİƏT) | 3088058,4 | 33,5 | 1341170,3 | 11,7 | *Black Sea Economic Cooperation Countries (BSEC)* |
| İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) | 1389861,3 | 15,1 | 620999,3 | 5,4 | *Economic Cooperation Organization (ECO)* |
| Demokratiya və İqtisadi İnkişaf uğrunda təşkilat (GUAM) | 381204,0 | 4,1 | 389879,4 | 3,4 | *Organization for Democracy and Economic Development –( GUAM)* |
| Neft ixrac edən ölkələrin Təşkilatı (OPEK) | 196515,4 | 2,1 | 228345,1 | 2,0 | *Organization of Petroleum Exporting Countries (OPEC)* |
| Islam Konfransı Təşkilatı (İKT) | 1580856,1 | 17,1 | 1608552,5 | 14,1 | *Organization of the Islamic Conference (OIC)* |
| Asiya -Sakit Okean İqtisadi Əməkdaşlıq təşkilatı (ASİƏT) | 3823100,5 | 41,5 | 1898588,5 | 16,6 | *Asia-Pacific Economic Cooperation (ESCAP)* |
| Avropa Azad Ticarət Assosiasiyası (AATA) | 244618,4 | 2,7 | 97953,9 | 0,9 | *European Free Trade Association (EFTA)* |
| Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyası (ASEAN) | 235680,1 | 2,6 | 752589,4 | 6,6 | *Association of Southeast Asian Nations (ASEAN)* |
| İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) | 5820029,4 | 63,1 | 7280341,9 | 63,7 | *Organization for Economic Cooperation and Development (OECD)* |
| Avropa | 5019169,1 | 54,4 | 7384017,0 | 64,6 | *Europa* |
| Asiya | 3096945,5 | 33,6 | 3184053,0 | 27,9 | *Asia* |
| Amerika | 1065332,5 | 11,6 | 561912,9 | 4,9 | *America* |
| Afrika | 13285,1 | 0,1 | 293872,5 | 2,6 | *Africa* |
| Okeaniya | 26670,6 | 0,3 | 621,9 | 0,0 | *Oceania* |

Xüsusilə də, BMT-nin İnkişaf Proqramı Azərbaycanın Bərpa və Yenidənqurma Agentliyinin (ARRA) və ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) imkanlarının inkişaf etdirilməsi və onların maliyyələşdirilməsi yolu ilə münaqişədən sonrakı bərpa prosesinə böyük yardım göstərmişdir. BMT-nin İnkişaf Proqramı ARRA-nı dəstəkləməklə Dünya Bankı, BMTİP, BMT-nin Qaçqınların işi üzrə Ali Komissarı (UNHCR), Avropa Birliyinin (AB) Müstəqil

Dövlətlər Birliyinə Texniki Yardımı (TACİS) proqramı və s. həyata keçirir.

Azərbaycan öz siyasi və iqtisadi sistemini yeniləşdirməklə, ölkənin müasir norma və standartlar çərçivəsində inkişaf etməsini əsas üstünlük hesab edir. Bu prosesin mühüm tərkib hissəsi kimi demokratik infrastrukturun gücləndirilməsi, geniş şəffaflıq, qərar qəbulu və siyasi müzakirələr prosesində ictimaiyyətin inkişafı məsələlərini qeyd etmək olar. Yeni iş yerlərinin açılması və iqtisadiyyatın inkişafı üçün BMTİP həmi siyasi və digər müvafiq tədbirlərin xüsusi sektorda effektiv inkişafı və böyüməsini təmin etmək üçün Azərbaycan Hökumətinə yardım edir. Struktur islahatlarının gücləndirilməsi məqsədləri üçün BMTİP Azərbaycanda xüsusi sektorda proqramın icrası ilə əlaqədar Dünya Bankı ilə əməkdaşlıq edir.

BMTİP Azərbaycanda 1993-cü ildən fəalliyət göstərir. Azərbaycan üzrə iki Ölkə Əməkdaşlıq Çərçivələri sənədi qəbul edilmişdir. Hazırda 2-ci Ölkə Əməkdaşlıq Çərçivələri sənədi (12-23 iyun 2000-ci il) həyata keçirilir. Sənəd 2000-2004-cü illəri əhatə edir və ümumilikdə 26 milyon ABŞ dollarının ayrılmasını nəzərdə tutur.

Azərbaycan Respublikası 1993-cü ildən BMSİT-in (UNIDO) üzvüdür. Təşkilatla Azərbaycanın əməkdaşlıq istiqamətlərini müəyyən edən sənəd kimi BMSİT-lə Azərbaycan arasında imzalanmış Memorandum xüsusi qeyd edilməlidir. Belə ki, 5 iyun 2000-ci ildə tərəflər arasında "Sənaye inkişafı sahəsində əməkdaşlıq haqqında Memorandum" imzalanmışdır. Hal-hazırda təşkilat Azərbaycanda sənaye şəhərciyinin yaradılması layihəsi istiqamətində İqtisadi İnkişaf Nazirliyi ilə əməkdaşlıq edir.

Azərbaycan beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşdirmə prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Azərbaycan BMT-nin XXI əsrdə olacaq təhdid və problemlərə qarşı mübarizə apara

bilməsi üçün BMT çərçivəsində islahatların aparılması ideyasını dəstəkləyir.

Azərbaycan 18 sentyabr 1992-ci il tarixindən BVF-nun üzvüdür. Fonda üzv qəbul edilərkən ilkin kvotamız 117 mln. SDR (168 mln. ABŞ dolları) olmuş, 2000-ci ilin yanvar ayının 28-dən etibarən isə kvotamıza yenidən baxılmış və artırılaraq 160,9 milyon SDR-ə çatdırılmışdır (Bu dövrdə 1 SDR = 1.35 ABŞ dolları olmuşdur).

Respublikamız BVF-na üzv qəbul edilən müddətdən iqtisadi islahatların həyata keçirilməsi istiqamətində Fondun yaxından iştirakı ilə altı proqram hazırlanmış və müvəffəqiyyətlə həyata keçirilmişdir. BVF tərəfindən bu proqramların həyata keçirilməsi üçün ölkəmizə 546.7 milyon ABŞ dolları məbləğində kredit ayrılmışdır.

Azərbaycan Hökuməti Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıqda bir sıra sahələrdə iqtisadi islahatların həyata keçirilməsində mühüm irəliləyişlərə nail olmuşdur, o cümlədən Hesablama Palatası yaradılmış, yeni Büdcə Sistemi haqqında Qanun qəbul edilmiş, Neft Fondu yaradılmış və onun şəffavlığı təmin edilmiş, vergi və gömrük idarəetmə sistemləri təkmilləşdirilmiş habelə bank nəzarəti sistemi gücləndirilmişdir, Hökumət və Milli Bank sağlam pul-kredit və büdcə siyasətlərini həyata keçirməkdədir.

Azərbaycan 1992-ci ilin sentyabrında Dünya Bankına, 1995-ci ilin martında Beynəlxalq İnkişaf Assosiasiyasına üzv olmuşdur. Eyni zamanda, Azərbaycan 1992-ci ildə Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyinə, 1995-ci ildə isə Beynəlxalq Maliyyə Korporasiyasına qoşulub.

1995-ci ildən etibarən Dünya Bankı bazar iqtisadiyyatına keçid üzrə islahat proqramlarının həyata keçirilməsi, makroiqtisadi stabilləşdirmə və neft gəlirlərinin idarə edilməsi, qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə yardım, infrastrukturun (su, irriqasiya, avtomobil yolları) bərpa edilməsi, təhsil və səhiyyə, enerji sektoruna

investisiyaların cəlb edilməsi sahəsində tədbirlər, dövlət sektorunda islahatlar, kənd təssərrüfatında və ümumiyyətlə qeyri-neft sektorunda artım və yeni iş yerlərinin açılması sahələrində Azərbaycana yardım etməkdədir.

Bu günə qədər Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən 22 layihə üzrə 585 milyon ABŞ dolları məbləğində kredit ayrılmışdır. Bunun 392 milyon ABŞ dolları artıq layihələr çərçivəsində istifadə olunmuşdur. Qalan 193 milyon ABŞ dolları isə hazırda icrada olan layihələr çərçivəsində istifadə olunur. Bundan başqa icrası başa

Azərbaycan Respublikası Dünya Bankı qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ilə də əməkdaşlıq edir.

## 6.4. Rusiyanın Avrasiya siyasəti və Azərbaycan

XIX əsrin sonu XX əsrin əvvəlləri Avrasiyanın əhəmiyyətli bölgələrindən hesab olunan Xəzər hövzəsinin Rusiya və dünya üçün xüsusi geosiyasi, geoiqtisadi və hərbi-geostrateji məkana çevrilməsi təsadüf olunur. Bakı neftinin kəşf olunması və neft məhsullarının dünyada kapitalizmin inkişafı məqsədilə istifadəsinin genişlənməsi, SSRİ-nin yaranmasına qədərki dövrdə Bakı və Xəzər hövzəsi zəngin neft yataqları ilə məşhurlaşır və həm Rusiya, həm də dünya geosiyasi güclərinin diqqət mərkəzinə çevrilir. Rusiyanın Avrasiya siyasətində Azərbaycan beynəlxalq münasibətlər sisteminin mövcud olduğu bütün dövrdə mühüm yer tutmuşdur. I Dünya müharibəsi ərəfəsində Xəzər hövzəsi, Bakı nefti və onun dünya bazarlarına daşınmasında istifadə olunan bölgənin Batumi kimi liman şəhərlərinə sahiblik uğrunda mübarizəsi transmilli məsələyə çevrilir.

Hələ Çar Rusiyası dövründə Xəzər dənizinə çıxış, Azərbaycanın işğalı və bu ərazidən İran, Türkiyə və digər Şərq dövlətlərinə müdaxilə

və təsir kimi istifadə edilməsi, rus imperatorlarının fəaliyyətində xüsusi yer tutmuşdur. Rus-iran, rus-türk müharibələri, Qafqazın işğalı və s. hadisələrdə Azərbaycan məsələsi daim diqqət mərkəzində olunmuşdur.

Hazırda Rusiya Azərbaycanın müstəqilliyi və Qafqaz bölgəsinin nüfuzlu, perspektiv imkanlanlar geniş olan dövlət statusu ilə barışmış və onunla praqmatik münasibətlər yaratmaq əzmi nümayiş etdirir.

SSRİ-nin dağılmasından sonra Rusiyanın Xəzər hövzəsində növbəti geosiyasi fəallıq dövrü kı başlayır. 1920-1991-cı illərdə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz tam olaraq SSRİ-nin nəzarətində idi və həm beynəlxalq, həm də regional rəqabətdən kənar məkan hesab olunurdu. Lakin SSRİ-nin dağılmasından sonra bir müddət Rusiyanın bütövlükdə Avrasiya siyasəti, o cümlədən Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsində nümayiş etdirdiyi fəaliyyət həm beynəlxalq, həm də regional dairələrdə ciddi anlaşılmazlıq yaratmışdı. SSRİ- nin dağılması və müstəqilliyinin elan edilməsindən sonrakı dövrdə Rusiyanın xarici və daxili siyasətində onun həm beynəlxalq, həm də regional geosiyasi mövqelərini zəiflədən və siyasi ədəbiyyatda geosiyasi risklər kimi dəyərləndirilən ciddi neqativ hallar müşahidə olunurdu. Tədqiqatçılar həmin dövrdə regionda SSRİ-dən ayrılan bir çox keçmiş müttəfiq ölkələrlə ziddiyyətli münasibətlərin yaradılmasını, daxildə federal hakimiyyətlə regionlardakı muxtar qurumlar arasındakı “mərkəz-region müharibəsi”nin genişlənməsini və iqtisadi, siyasi, sosial məsələlərlə bağlı ciddi anlaşılmazlıqların baş verdiyini və s. halları qeyd edirlər.

Azərbaycanın Rusiya üçün bir neçə xarakteristikasına görə əhəmiyyətlidir. (Cədvəl - 16)

**MDB və digər ölkələrlə idxal və ixrac əməliyyatları**
(milyon ABŞ dolları)
***Export and import operations of CIS and other countries***
*(million US dollars)*

| | 2013 | | | 2014 | | | 2015 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi<br>*Total* | MDB ölkə-ləri<br>*CIS count-ries* | Digər ölkə-lər<br>*Other count-ries* | Cəmi<br>*Total* | MDB ölkələri<br>*CIS count-ries* | Digər ölkə-lər<br>*Other count-ries* | Cəmi<br>*Total* | MDB ölkə-ləri<br>*CIS count-ries* | Digər ölkə-lər<br>*Other count-ries* | |
| | | | | | **İxrac**<br>***Exports*** | | | | | |
| Azərbaycan | 23975,4 | 1509,6 | 22465,8 | 21828,6 | 838,1 | 20990,5 | 11424,5 | 525,4 | 10899,1 | *Azerbaijan* |
| Ermənistan | 1479 | 400 | 1079 | 1519 | 365 | 1154 | 1485,3 | 286,3 | 1199,0 | *Armenia* |
| Belarus | 37203 | 23015 | 14188 | 36392 | 21301 | 15091 | 26660,4 | 14076,2 | 12584,2 | *Belarus* |
| Qazaxıstan | 84700 | 10881 | 73819 | 78238 | 9810 | 68428 | 45955,8 | 7908,3 | 38047,5 | *Kazakhstan* |
| Qırğızıstan | 2007 | 1011 | 996 | 1880 | 890 | 990 | 1676,4 | 771,2 | 905,2 | *Kyrgyzstan* |
| Moldova | 2428 | 923 | 1505 | 2340 | 736 | 1604 | 1966,9 | 492,3 | 1474,6 | *Moldova* |
| Rusiya[1] | 527,3 | 73,9 | 453,4 | 496,9 | 63,6 | 433,3 | 346,0 | 45,3 | 300,7 | *Russia[1]* |
| Tacikistan | 943 | 177 | 766 | 977 | 250 | 727 | 890,6 | 226,7 | 663,9 | *Tajikistan* |
| Ukrayna[1] | 62,3 | 21,6 | 40,6 | 53,9 | 14,8 | 39,0 | 38,1 | 7,8 | 30,3 | *Ukraine[1]* |
| **Cəmi MDB üzrə[1]** | **742,3** | **133,5** | **608,8** | **694,0** | **112,6** | **473,4** | **474,2** | **77,4** | **396,8** | ***Total for CIS[1]*** |
| | | | | | **İdxal**<br>***Imports*** | | | | | |
| Azərbaycan | 10712,5 | 2553,2 | 8159,3 | 9187,7 | 2083,2 | 7104,5 | 9221,4 | 1961,1 | 7260,3 | *Azerbaijan* |
| Ermənistan | 4386 | 1300 | 3086 | 4402 | 1335 | 3067 | 3239,2 | 1096,9 | 2142,3 | *Armenia* |
| Belarus | 43023 | 25209 | 17814 | 40788 | 24488 | 16300 | 30291,5 | 18342,8 | 11948,7 | *Belarus* |
| Qazaxıstan | 48806 | 22672 | 26134 | 41213 | 17425 | 23788 | 30567,7 | 13062,0 | 17505,7 | *Kazakhstan* |
| Qırğızıstan | 5987 | 2944 | 3043 | 5732 | 2780 | 2952 | 4069,5 | 2177,7 | 1891,8 | *Kyrgyzstan* |
| Moldova | 5492 | 1672 | 3820 | 5317 | 1449 | 3868 | 3986,8 | 1018,1 | 2968,7 | *Moldova* |
| Rusiya[1] | 315,0 | 38,6 | 276,4 | 286,0 | 32,0 | 254,0 | 184,8 | 21,3 | 163,5 | *Russia[1]* |
| Tacikistan | 4046 | 1916 | 2130 | 4339 | 2173 | 2166 | 3434,9 | 1818,4 | 1616,5 | *Tajikistan* |
| Ukrayna[1] | 75,8 | 27,7 | 48,0 | 54,3 | 17,2 | 37,1 | 37,5 | 10,5 | 27,0 | *Ukraine[1]* |
| **Cəmi MDB üzrə[1]** | **513,3** | **124,6** | **388,7** | **451,3** | **101,0** | **350,3** | **307,1** | **71,2** | **235,9** | ***Total for CIS[1]*** |

[1] Mlrd.ABŞ dolları *Bln. US dollars*

1. Azərbaycan Şərq və Türkiyəyə çıxış üçün, yaxın və orta Şərqdə baş verən proseslərə təsir imkanlarına görə əhəmiyyətlidir.
2. Azərbaycan Şərq-Qərb nəqliyyat kommunikasiyaları və dəhlizlərin-in mərkəzində yerləşir və bu baxımdan Rusiyanın rəqibidir.
3. Azərbaycanın zəngin karbohidrogen yataqları xüsusən Xəzər dənizində mövcuddur ki, bunların istismarı, istehsalı və ixracı Rusiyanı

biganə qoya bilməz. Bu sahədə də Azərbaycan Rusiyanın dünya bazarında rəqibidir.

4. Azərbaycan Rusiya malları üçün satış bazarı, kənd təsərrüfatı məhsulları ilə isə təminatçı rolunu oynasın.

5. Azərbaycanda çox saylı rus dilli əhali, Rusiyada isə Azərbaycanlılar yaşayır ki, bu faktor da Rusiyanın maraqlarını əks etdirir.

6. Azərbaycanın əraziləri Rusiyanın təhlükəsizliyi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Nəticədə Rusiya Avrasiyanın ən böyük dövləti kimi, həm Mərkəzi Asiyada, Qara-Xəzər dənizi hövzəsində siyasət yürüdür. Bunu regionun bütün ölkələri, o cümlədən də Azərbaycan dərk edir.

Hazırda iqtisadi və təhlükəsizlik maraqları Rusiyanın Avrasiya siyasətinin ana xəttini təşkil edir. (Cədvəl -17)

**MDB və digər ölkələrlə idxal və ixrac əməliyyatlarının ümumi həcmində xüsusi çəkisi** (faizlə)
***Share of the CIS and other countries in total export and import operations*** *(per cent)*

| | 2013 | | | 2014 | | | 2015 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi<br>*Total* | MDB ölkələri<br>*CIS countries* | Digər ölkələr<br>*Other countries* | Cəmi<br>*Total* | MDB ölkələri<br>*CIS countries* | Digər ölkələr<br>*Other countries* | Cəmi<br>*Total* | MDB ölkələri<br>*CIS countries* | Digər ölkələr<br>*Other countries* | |
| | | | | | **İxrac**<br>***Exports*** | | | | | |
| Azərbaycan | 100,0 | 6 | 94 | 100,0 | 4 | 96 | 100,0 | 5 | 95 | *Azerbaijan* |
| Ermənistan | 100,0 | 24 | 76 | 100,0 | 27 | 73 | 100,0 | 18 | 82 | *Armenia* |
| Belarus | 100,0 | 51 | 49 | 100,0 | 62 | 38 | 100,0 | 53 | 47 | *Belarus* |
| Qazaxıstan | 100,0 | 13 | 87 | 100,0 | 13 | 87 | 100,0 | 17 | 83 | *Kazakhstan* |
| Qırğızıstan | 100,0 | 58 | 42 | 100,0 | 51 | 49 | 100,0 | 46 | 54 | *Kyrgyzstan* |
| Moldova | 100,0 | 43 | 57 | 100,0 | 39 | 61 | 100,0 | 25 | 75 | *Moldova* |
| Rusiya | 100,0 | 15 | 85 | 100,0 | 14 | 86 | 100,0 | 13 | 87 | *Russia* |
| Tacikistan | 100,0 | 18 | 82 | 100,0 | 20 | 80 | 100,0 | 25 | 75 | *Tajikistan* |
| Ukrayna | 100,0 | 37 | 63 | 100,0 | 35 | 65 | 100,0 | 20 | 80 | *Ukraine* |
| | | | | | **İdxal**<br>***Import*** | | | | | |
| Azərbaycan | 100,0 | 24 | 76 | 100,0 | 23 | 77 | 100,0 | 21 | 79 | *Azerbaijan* |
| Ermənistan | 100,0 | 31 | 69 | 100,0 | 31 | 69 | 100,0 | 34 | 66 | *Armenia* |
| Belarus | 100,0 | 65 | 35 | 100,0 | 59 | 41 | 100,0 | 61 | 39 | *Belarus* |
| Qazaxıstan | 100,0 | 48 | 52 | 100,0 | 46 | 54 | 100,0 | 42 | 58 | *Kazakhstan* |
| Qırğızıstan | 100,0 | 52 | 48 | 100,0 | 50 | 50 | 100,0 | 54 | 46 | *Kyrgyzstan* |
| Moldova | 100,0 | 31 | 69 | 100,0 | 30 | 70 | 100,0 | 26 | 74 | *Moldova* |
| Rusiya | 100,0 | 14 | 86 | 100,0 | 13 | 87 | 100,0 | 11 | 89 | *Russia* |
| Tacikistan | 100,0 | 55 | 45 | 100,0 | 48 | 52 | 100,0 | 53 | 47 | *Tajikistan* |
| Ukrayna | 100,0 | 41 | 59 | 100,0 | 36 | 64 | 100,0 | 28 | 72 | *Ukraine* |

## 6.5. Rusiya üçün Avrasiya anlayışı

“Tarixin coğrafi oxu” adlı məqaləsində X. Makinder yazırdı ki, tarixin coğrafi oxu Avrasiyadan keçir. İki geosiyasi xətti üzrə - Dneprin axarı boyu Baltik və Qara dəniz hövzəsinə və Volqa çayı vasitəsilə Xəzərə, oradan isə Qafqaza və Orta Asiyaya doğru rusların həmin coğrafi oxun istiqaməti ilə Xəzər dənizi hövzəsinə gəlişi, regionda geosiyasi mövqelərini möhkəmləndirməyə başlaması Moskva

knyazlığının getdikcə güclənməsi və IV İvanın çarlığı illərində ətraf ərazilərin zəbt olunması dövrünə təsadüf edir. 1552-ci ildə Moskva knyazlığının qoşunları Kazan şəhərini, 1556-cı ildə isə Həştərxanı ələ keçirərək, Volqa çayının axarı boyu  Xəzər dənizinin şərq sahillərini işğal edir. Xəzərin şərq hövzəsinə çıxan ruslar burada yeni bir geosiyasi əhatə - İran və Türkiyə ilə qonşuluq şəraitində yaşamaq və "öz cənub sərhədlərinin" təhlükəsizliyi ilə bağlı tədbirlər həyata keçirməyə başlayır. Həmin dövrdən etibarən rusların hərbi hissələri sırasında Cənub sərhədlərinin təhlükəsizliyi keşiyində dayanan kazak hərbi dəstələri yaradılır. I Pyotrun hakimiyyəti illərində Rusiya Ukrayna və Belarusun ərazilərini öz tərkibinə qataraq, Baltik və Qara dənizə çıxış əldə edir. Beləliklə, Rusiya getdikcə Avropanın əsas və aparıcı dövlətlərindən birinə çevrilir. Tədqiqatçılar I Pyotrun hakimiyyətə gəlməsindən ll Aleksandrın hakimiyyətinin sonuna qədərki dövrü (1682-1880) rus tarixinin geosiyasi dövrləşməsinin növbəti mərhələsi kimi dəyərləndirirlər. Həmin dövrdə Rusiya əhalisinin sayı, ərazisinin ölçüləri və digər strateji meyarlarına görə Avropanın güclü imperiyalarından biri olur.

Hazırda Rusiya üçün «Avrasiya» anlayışı əsasən MDB üzvlərini,Türkiyə və İranı əhatə edir. SSRİ dağıldıqdan, Sərqi Avropanın sosialist ölkələri nəzarətdən çıxdıqdan, dünya dövlətlərinə XX əsr boyu davam etmiş təsir mexanizimləri aradan qalxdıqdan sonra Rusiya öz xarici siyasəti qarşısında üç əsas vəzifə qoymuşdur ki, bunun da hər biri Avrasiya ilə bağlıdır:

—ABŞ, Avropa İttifaqı və NATO-nun Şərqə doğru hərəkətinin qarşısını almaq;

— keçmiş sovet məkanında Qərb dövlətlərinin müdaxiləsinə və yeni müstəqil dövlətlərin Qərbə meyillənməsinə mane olmaq;

—Rusiya Federasiyasının bütövlüyünü qorumaq,onun milli təhlükəsizliyini və dövlət maraqlarını bütün vasitələrlə təmin etmək.

Rusiya Cənubi Qafqaz istiqamətində uzun müddət etnik separatizim meyilərindın isifadə edərək, region ölkələrini öz təir dairəsində saxlamaq siyasətini ürütmüşdür. Bundan başqa kremil Cənubi Qafqaz ölkələrinin xüssən Azərbaycanın kənd təsrrüfatı məhsullarının ənənəvi bazarının məhz Rusiya olması, bu ölkələrin vətəndaşlarının müəyyən hissəsinin işçi qüvvəsi kimi məhz Rusiyada yaşamasını da bölgə ölkələrindəki siyasi həyata təsiri göstərmək mexanizmi kimi istifadə etməyə çalışır. Bundan başqa, Orta Asiya, Xəzər hövzəsi, Qara dəniz ətrafı və Cənubi Qafqazı itirməklə Rusiya bütün Avrasiyada, dünya enerji, nəqliyyat-kommunikasiya sistemində öz təsirini itirmiş olur.Odur ki, Rusiya bütün mümkün vasitələrlə öz həyatı maraqlarını təsir dairəsini Avrasiya subregionunda qorumağa və təmin etməyə çalışır. (Cədvəl - 18)

**2015-ci ildə MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər**
(əvvəlki ilə nisbətən faizlə; dəyər ifadəsində göstəricilər daimi qiymətlərlə)

| Göstəricilər | Azərbaycan *Azerbaijan* | Ermənistan *Armenia* | Belarus *Belarus* | Qazaxıstan *Kazakhstan* | Qırğızıstan *Kyrgyzstan* | Moldova *Moldova* |
|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna) | 101,2 | 99,6 | 100,2 | 101,5 | 102,1 | 99,9 |
| İqtisadi fəal əhalinin sayı | 101,5 | 94,3 | 99,2 | 100,3 | … | 101,7 |
| Məşğulluq xidmətlərində işsiz statusu verilmiş şəxslərin sayı (ilin sonuna) | 100,7 | 97,0 | 185,2 | 99,1 | … | 131,4 |
| Ümumi daxili məhsul | 101,1 | 103,0 | 96,1 | 101,2 | 103,5 | 99,5 |
| Sənaye məhsulu | 102,4 | 105,2 | 93,4 | 98,4 | 95,6 | 100,6 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi | 69,4 | 99 | 117 | 80 | 109 | 106 |
| Kənd, meşə və balıqçılıq təsərrüfatı məhsulu | 106,6 | 111,7 | 97,2 | 104,4 | 106,24 | 86,2 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 88,9 | 100,3 | 84,8 | 103,7 | 108,0 | 96,6* |
| Nəqliyyat sektorunda yük daşınması (boru kəmərləri istisna olmaqla) | 100,6 | 102 | 93 | 99,7 | 103 | 82 |
| Nəqliyyat sektorunda sərnişin daşınması | 103,5 | 92 | 93 | 103 | 102 | 103 |
| Pərakəndə əmtəə dövriyyəsi | 110,9 | 90 | 100,2 | 99,6 | 106 | 94 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər | 105,1 | .... | 98 | … | … | 101 |
| İstehlak qiymətlərinin indeksi | 104,0 | 103,7 | 113,5 | 106,6 | 106,5 | 109,7 |
| Əhalinin sərəncamda qalan real gəlirləri | 101,5 | ... | 94 | ... | ... | ... |
| Əhalinin gəlirləri | 105,7 | ... | 107 | ... | ... | ... |
| Orta aylıq nominal əmək haqqı | 105,0 | 108 | 110 | 104 | 109 | 111 |
| Orta aylıq əmək haqqı (real) | 101,0 | 104,1 | 97,2 | 97,6 | 100,3 | … |
| İxrac (cari qiymətlərlə) | 98,0* | 96,0 | 73,9 | 57,8 | 89,0 | 84,1 |
| İdxal (cari qiymətlərlə) | 85,4* | 73,2 | 74,8 | 74,0 | 71,0 | 75,0 |

Müasir dünya və beynəlxalq münasibətlərini yeni tendensiaları dünya siyasətinədə Rusiyanın rolunu xeyli azaltsa da, Avrasiya regionundan onu sıxışdırmaq çox çətindir. Geostrateji və geosyasi xarakteristikasına görə dünyanın ən nəhəng dövlətlərindən hesab olunan bu ölkə zəngin təbii ehtiyyatalara malikdir. Rusiya öz enerji ehiyatları ilə təlabatını 100% ödədiyi halda,Yaponiya bu sahədə 82%, Almaniya və Fransa 50%, ABŞ 23% xarici aləmdən asılıdır. Eyni zamanda Rusiyanın nəhəng hərbı potensialı Avropaya, dünyanın istənilən quru, hava, su keçidlərinə çıxış imkanları var.

MDB ölkələri Rusiya üçün əsas ixracat bazarıdır. Eyni zamanda Rusiyada da MDB ölkələrində istehsal olunan kənd təsərrüfat məhsulları üçün böyük bazar rolunu oynayır və mühüm əmək miqrasiyası məkanıdır. MDB ölkələrinin əhalisi azalmaqda olan Rusiyanın əmək ehtiyaclarının xeyli hissəsini ödəyir.

## Fəsil 7. Elm və texnika sahəsində ölkələrin əməkdaşliği və beynəlxalq münasibətləri

### 7.1. Beynəlxalq elmi-texniki əməkdaşlığın mahiyyəti və onu doğuran səbəblər

XX əsrin ikinci yarısında biznesin inkişafı və dövlətlərarası münasibətlər iqtisadi rəqabətin beynəlmiləşməsinə və qloballaşmasına zəmin yaratdı. İnkişaf etmiş ölkələrdə elmi texniki tərəqqinin inkişaf etməsi nəticəsində kapitalın inhisarlaşması öz yüksək həddinə catmışdır. C.Hiksin modelinə görə, texniki tərəqqinin neytral, əməyə qənaət edən və kapitala qənaət edən formaları mövcuddur.

Dünya elmi texnoloji məkanın formalaşması kimi dünyada elmi innovasiya infrastrukturunun tərkib hissəsi olan standartların, sertifikasiya sisteminin, intellektual mülkiyyət hüquqlarını qorumaq mexanizminin unifikasiyası sahəsində mühüm addımlar atılmışdır. Elmi texniki tərəqqinin beynəlxalq ticarətdə əhəmiyyətli və ən aparıcı amillərdən birinə çevrilməsi, inkişaf etmiş ölkələrin ixracatının artması, həmin sahələrdə qabaqcıl texnologiyanın intensiv tətbiq edilməsinin nəticəsidir. 1961 ci ildə ABŞ iqtisadçısı M.Pozner tərəfindən irəli sürülmüş –Texnoloji uçurum nəzəriyyəsinə görə - malların ilk ixracatçıları zaman keçdikcə texnologiya təqlid yolu ilə sərbəst bir mal statusuna gələrək, mütəmadi olaraq yeni

texnika və texnologiyaların yaradılması başverdiyi üçün texnoloji üstünlük bir maldan başqa mala, bir dövlətdən başqa dövlətə keçir və davam edir.

Bu nəzəriyyənin davamçısı olan Raymond Vernona görə isə texnoloji yeniliklər və yeni malların işlənməsi inkişaf etmiş sənaye ölkələrində baş verir.

Beynəlxalq iqtisadiyyat çərçivəsində texnologiyaya – beynəlxalq ticarət kimi istehsal amilinin beynəlxalq hərəkəti kimi həmçinin, texnologiyaya əməklə yanaşı insan resursu kimi də baxmaq olar.

Praktiki məqsədlərin əldə edilməsi üçün texnologiya elmi metodlardan ibarət olur və bura adətən üç qrup texnologiyalar aid edilir:

1. Məhsul texnologiyası;
2. Proses texnologiyası;
3. İdarəetmə texnologiyası.

Texnologiyanın beynəlxalq hərəkəti həm patentlərlə, lisenziyalarla, həm də, texnoloji tutumlu əmtəələrlə ticarət formasında həyata keçirilə bilər. ikinci halda texnologiyanın bir istehsal amili kimi beynəlxalq hərəkətini digər əmtəələrlə ticarətdən fərqləndirmək statistik baxımdan qeyri-mümkündür.

Elmi-texniki nailiyyətlərin kommersiya və ya ödənişsiz əsasda dövlətlərarası hərəkəti –Texnologiyaların beynəlxalq hərəkəti dir.

Beynəlxalq iqtisadiyyatda texnologiya daşıyıcısı kimi əmtəələr və digər istehsal amilləri çıxış edə bilər:

- əmtəə – yüksək texnologiya əsasında istehsal edilmiş əmtəələrlə beynəlxalq ticarət zamanı;
- kapital – yüksək texnologiya əsasında istehsal edilmiş kapital tutumlu əmtəələrlə beynəlxalq ticarət zamanı;
- əmək – yüksək ixtisaslı elmi-texniki kadrların beynəlxalq miqrasiyası zamanı;

- torpaq – əldə edilməsi üçün ən yeni elmi-texniki nailiyyətlərdən istifadə edilmiş təbii resurslarla ticarət zamanı.

Texnologiyalarla beynəlxalq mübadilə XX əsrin əvvəllərindən etibarən məlumdur, lakin dünya texnologiyalar bazarı 1950-1960-cı illərdə formalaşmışdır. Məhz bu müddətə texnologiyalarla beynəlxalq kommersiya əməliyyatlarının həcmi milli mübadilənin masştabını üstələmişdir.

Beynəlxalq istehsal və elmi-texniki əməkdaşlığı şərtləndirən amilləri şərti olaraq iki qrupa bölmək olar:

- ölkələr səviyyəsində ola amillər;
- firma, müəssisə və təşkilatlar səviyyəsində olan lokal amillər.

Elə buna görə də bütün dövlətlər hər il ümumi milli gəlirin müəyyən hissəsini elmi-texniki işlərin aparılmasına, ilk növbədə məqsədli fundamental tədqiqatların yerinə yetirilməsinə yönəldirlər. Bu yanaşmanı şərtləndirən başlıca səbəb elmi-texniki əməkdaşlığın əsasında cəmiyyətin hərəkət verici qüvvəsi hesab olunan elmidir. Elmin bəşəriyyətin inkişafında həlledici roluna vaxtı ilə Məhəmməd Peyğəmbərimiz (s.a.s.) böyük qiymət verərək qeyd etmişdi ki, alim ölərsə el də ölər. Statistik rəqəmlərdən göründüyü kimi 2005-ci ildə dünyada ETTKİ-nə ayrılan xərclərin dünya üzrə ümumi milli məhsulda payı 2, 75 % təşkil etmişdir. Bu göstərici inkişaf etmiş sənaye ölkələrində 6,1- 8,15 % inkişaf etməkdə olan dövlətlərdə 0,91 %, MDB-də isə 2,8 %-ə bərabərdir. Dünyanın iqtisadi güc mərkəzi hesab olunan ABŞ-da bu göstərici 6-8 %, Rusiyada–3,1 %, Azərbaycanda isə təxminən -0,9-1,0 % təşkil edir. Qeyd etmək lazımdır ki, dünya ölkələrində elmi-tədqiqat və təcrübə konstruktor işlərinə xərclər qeyri bərabərdir. Bu xərclərin təxminən 95–96 %-i sənayecə inkişaf etmiş dövlətlərin payına düşür. Məhz bunun nəticəsidir ki, beynəlxalq səviyyədə elmi-texniki əməkdaşlıq sistemində həmin ölkələr üstün rol oynayırlar. Bu üstünlüyü əldən verməmək üçün həmin dövlətlər ildən-ilə elmi tədqiqatlara

və təcrübə konstruktor işlərinə xərcləri artırırlar. Qeyd edilən amillərin təsiri altında dünya texnologiyalar bazarının bütün seqmentlərinin inkişafı yalnız İEÖ-də deyil, inkişaf etməkdə olan ölkələrdə də baş verir ki, bu da onların milli iqtisadiyyatlarının inkişafında böyük rol oynayır.

Beynəxalq iqtisadi münasibətlərin aparıcı formalarından biri beynəlxalq elmi-texniki əməkdaşlıqdır (BETƏ). Həm də BİM-in bu forması digər formalardan fərqli olaraq bəşəriyyəti düşündürən, həlli bütün dövlətlərin, maddi-texniki, elmi-texniki, informasiya və s. resursların-səylərin birləşməsi yolu ilə qlobal problemlərin həllinə xidmət edir. Problemlər bir ölkənin deyil, dünyəvi problem olduğu üçün onların həlli hazırda harada və hansı dövlətə mənsub olmasından asılı olmayaraq ölkələr arasında elmi-texniki əməkdaşlığın gücləndirilməsini obyektiv tələbata çevirir.

Elmin cəmiyyətdə artan rolunun nəticəsidir ki, XX əsrin ikinci yarısında dünyada yeni bazar-texnologiyalar bazarı əmələ gəlmişdir ki, o da əmək və kapital bazarı ilə yanaşı beynəlxalq səviyyədə fəalliyyət göstərir.

Beynəxalq elmi-texniki əməkdaşlığın inkişafı ilk növbədə müxtəlif ölkələrdə elmi-tədqiqat və təcrübə konstruktor işlərinə ayrılan resursların həcmindən çox asılıdır.

Dünyanın iqtisadi güc mərkəzi hesab olunan ABŞ-da bu göstərici 6-8 %, Rusiyada–3,1 %, Azərbaycanda isə təxminən -0,9-1,0 % təşkil edir.

Qeyd etmək lazımdır ki, dünya ölkələrində elmi-tədqiqat və təcrübə konstruktor işlərinə xərclər qeyri bərabərdir. Bu xərclərin təxminən 95–96 %-i sənayecə inkişaf etmiş dövlətlərin payına düşür. Məhz bunun nəticəsidir ki, beynəlxalq səviyyədə elmi-texniki əməkdaşlıq sistemində həmin ölkələr üstün rol oynayırlar. Bu üstünlüyü əldən verməmək üçün həmin dövlətlər ildən-ilə elmi tədqiqatlara və təcrübə konstruktor işlərinə xərcləri artırırlar.

Məsələn, 1979-cu ildə ABŞ-da bu məqsədlə cəmi-56,6 mlrd. dollar, Yaponiyada -18,2 mlrd. dollar, Almaniyada -12,5 mlrd. dollar, Fransada 8,0

mlrd. dollar, Böyük Britaniyada-8,0 mlrd. dollar xərclənildiyi halda 2005-ci ildə bu göstəricilər dövlətlər üzrə müvafiq olaraq təxminən 305,0; 158,0; 49.3; 39,0; 35,9 mlrd. dollar təşkil etmişdir. Məhz, ETTKİ-nə göstərilən bu diqqətin nəticəsidir ki, ABŞ-da qeyd olunmuş ixtiralar, verilmiş lisenziyalar, verilən patentlər (şəhadətnamələr), yeni əmtəə nişanları və s. digər dövlətlərə nisbətən daha sürətlə artmışdır. Bütün bu məlumatlar ABŞ-ın elmi–texniki əməkdaşlıq və elmi-texniki yeniliklərin kommersiya mənimsənilməsi sahəsindəki böyük üstünlüklərə malik olmasını sübut edir.

İnkişaf etmiş sənaye ölkələrində elmi-texniki fəaliyyətin sürətli inkişafına diqqətin gücləndirilməsinin bir çox səbəbləri vardır. Onlara əsasən aşağıdakılar daxildir:

-dünyada texnologiya sahəsində liderliyi əldə saxlamaq;

- texnoloji gerilikdən çıxmaq marağı;

- istehsal sahələrinin texniki əsasının təkmilləşdirilməsinin zəruriliyi;

- beynəlxalq bazarlara çıxarılan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi;

- milli iqtisadiyyatların elm tutumlu məhsullar istehsalını artırmaqla BƏB-də iştirak etmək istəyi;

- dünya texnologiyalar bazarında aparıcı yer tutmaq marağı;

- elmi-texniki məhsulların ixracı hesabına daha çox mənfəət əldə etmək;

- dünyada güclənən beynəlxalq elmi-texniki mübadilə prosesinin sürətləndirilməsi zərurəti.

## 7.2. Beynəlxalq elmi texniki mübadilə - BİM-in bir formasıdır. Texnoloji tədiyyə balansı

Azərbaycanın iqtisadi artımın inkişaf etməsi, investisiya mühitinin yaxşılaşması və dünya bazarları ilə alqı və satqısı ilə əlaqədar valyuta

daxil olmalarının və kapital axınının genişlənməsi texnoloji tədiyyə balansını əhəmiyyətli dərəcədə yaxşılaşmasına zəmin yaradır. Tədiyyə balansının tərkib hissəsini əməliyyatlar hesabı təşkil edərək, vəziyyəti – valyuta məzənnəsinin dəyişməsinə, valyuta ehtiyatlarına, xarici borclara və ümumiyyətlə iqtisadi siyasətin istiqamətinə təsir göstərir. Azərbaycan Respublikası Mərkəzi Bankının metodoloji izahında göstərilir ki, tədiyyə balansı – başqa ölkələrdən daxıl olan pulun, ümumi məbləği ilə digər ölkələrə pul tədiyyələrinin məbləği arasındakı fərqdir. Tədiyə balansı isə bir termin kimi dövriyyəyə ingilis iqtisadçısı Con Stüart-Mill tərəfindən daxil edilmişdir. Həmin vaxtlarda balans ilk növbədə fiskal rolu yerinə yetirirdi. Özünün müasir formasında isə tədiyə balansı əsas makroiqtisadi siyasət elementlərinin hazırlanması zamanı vacib orientir rolunda çıxış edir. Azərbaycanda tədiyyə balansının strukturu.

Texnologiya və informasiya həm istehsal amili kimi həm də istehsalın nəticəsi kimi BİM-nin xüsusi sferasıdır. Müasir dövrdə bu yeni istehsal amili forması öz əhəmiyyətinə görə həm "kapital", həm "torpaq", həm "əmək" və həmçinin "sahibkar təşəbbüskarlığından" üstündür, çünki onları əlaqələndirən element kimi çıxış edir ki, onlarsız geniş təkrar istehsal baş verə bilməz. Dünya iqtisadiyyatında onların rolu günbəgün artır, şirkətlərin beynəlxalq rəqabətqabiliyyətliliyi onlardan asılıdır. "Texnologiya" termini yunan sözü olan "texne" sözündən əmələ gəlmişdir, mənası ustalıq, incəsənət və bacarıq deməkdir. Texnologiya - müəyyən bir işi müəyyən tərzdə, müəyyən üsullarla yerinə yetirmək və ya hazırlamaq üçün lazım olan bilik və bacarıqdan ibarətdir. Ölkələrin iqtisadiyyatlarının qarşılıqlı asılılığının güclənməsi, makro və mikro səviyyələrdə inteqrasiya proseslərinin inkişafı, dünya təsərrüfatının iqtisadi inkişaf qanunauyğunluqlarından və texnologiyalar mübadiləsinin inkişafından irəli gəlir.

Beynəlxalq iqtisadi inteqrasiyanın əsasında beynəlxalq əmək bölgüsü və təsərüfatçılıq sübyüktinin iqtisadi maraqları dayanır. İqtisadi inteqrasiyanı bir mənalı şəkildə, ancaq kortəbii bazar və yaxud da şüurlü tənzimolunan proses kimi nəzərdən keçirmək olmaz. Texnoloji tədiyyə balansı ölkənin xarici ölkələrlə texnoloji mübadiləsinin kompleks qiymətləndirilməsində mühüm rol oynasa da müəyyən nöqsanlara malikdir. Belə ki, həmin balansın mənfi saldoya malik olması heç də həmin ölkənin iqtisadi inkişaf səviyyəsinin və rəqabət qabiliyyətinin aşağı olduğunu əks etdirmir. Son illər əksər inkişaf etmiş ölkələrdə və yeni sənaye ölkələrində texnoloji tədiyyə balansı üzrə daxil olmaların və ödənişlərin kəsgin artması müşahidə olunur. Texnoloji tədiyyə balansın nəticələri isə bu ölkələrdə müxtəlifdir. ABŞ-dan fərqli olaraq Avropa ittifaqı, hətta Yaponiya texnoloji tədiyyə balansı üzrə son illər mənfi saldoya malikdirlər ki, bu da xaricdən texnologiya gətirilməsini əks etdirir. Beynəlxalq texnologiya mübadiləsində yüksək texnoloji məhsulaların xüsusi çəkisi günügündən artmaqdadır. İqtisadi inkişaf və əməkdaşlıq təşkilatın məlumatlarına əsasən inkişaf etmiş ölkələrdə yüksək texnoloji məhsulların ixracı hər orta hesabla 7% artır. Yaponiya və İrlandiyada yüksək və orta texnoloji məhsullar ümumi ixracın 80% -ni təşkil edir. Böyük Britaniya, ABŞ, Koreya, İsveşrədə ixracının 45% xalis yüksək texnoloji məhsullardan ibarətdir. Bu hal həmin ölkələrdə elmi-texniki inkişafın sürətlə getməsindən irəli gəlmir. Bu ölkələr ABŞ-dan iri həcmli detallar idxal edirlər və onu komplektləşdirərək xarici hazır məhsullar bazarına ixrac edirlər. Yüksək texnoloji məhsulların beynəlxalq ticarəti texnologiyanın beynəlxalq mübadiləsinin forması kimi çıxış edir. Beləki yüksək texnoloji məhsullar yüksək elmi-texniki biliklərin maddiləşmiş forması olaraq bir ölkədən digərinə ticarət yolu ilə ötürülür və belə texnologiya işləmək müəyyən hazırlıq, ixtisaskeçmə kimi əlavə xidmətlərin alınmasını da nəzərdə tutur. Burada alıcı texnologiyanın lahiyələndirilməsi quraşdırılması,

sazlanması və işə salınması və s. əməliyyatları alqı müqaviləsinə daxil edir ki, bu onun dəyərini artırır. Müasir dövrdə beynəlxalq informasiya-texnoloji kooperasiyanın mühüm forması kimi ofşor proqramlaşdırma geniş yayılmışdır. OP milli soft-kompaniyaların (komyütürlərin proqramlarının hazırlanması, yenidən işlənməsi,təkmilləşdirilməsi və yayılması ilə məşğul olan şirkətlər) xarici bazarların proqram təminatı fəaliyyətini həyata keçirməsidir. Bunula belə dövlətlər bu sahəni inkişaf etdirmək məqsədilə belə şitkətlər üçün güzəştli fəaliyyət şəraiti yaradırlar, texnoparklar təşkil edirlər, kömrük rüsumlarısız bu sahə üçün lazım olan avadanlıqların gətirilməsi, gəlir vergisindən azad edilmə və s. Ofşor proqramlaşdırmanın istehlakçıları əsasən inkişaf etmiş ölkələr ABŞ və AB ölkələridir. Onun istehsalçıları isə inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr hesab olunur. Bu sahədə liderlik Hindistan proqramistlərinə məxsusdur. Güclü proqramlaşdırma mərkəzləri Tayvanda, Sinqapurda, Malaziyada, İrlandiyada, Braziliyada fəaliyyət göstərir.

## 7.3. Beynəlxalq elmi-texniki əməkdaşlığın dünya texnologiyalar bazarının inkişafında rolu

Dünya iqtisadiyyatı – beynəlxalq əmtəə mübadiləsi, xidmətlər, texnologiyalar, kapitalın və işçi qüvvəsinin beynəlxalq yerdəyişmələri və beynəlxalq iqtisadi münasibətlərin milli iqtisadiyyatların qarşılıqlı asılılığından və geniş təkrar istehsal prosesinin beynəlmiləlləşməsi nəticəsində beynəlxalq əmək bölgüsü bazasında formalaşaraq, ölkələrin inkişafını şərtləndirir. Texnologiyaların beynəlxalq mübadiləsinə dövlət tənzimlənməsinin və ya nəzarətinin tətbiq edilməsi bir sıra səbəblərdən irəli gələ bilər ki, onların da əsasları dünya bazarında rəqabət mübarizəsi ilə əlaqədardırlar.

Texnologiyaların beynəlxalq mübadiləsinə dövlət tənzimlənməsinin və ya nəzarətinin tətbiq edilməsi bir sıra səbəblərdən irəli gələ bilər ki, onların da əsasları dünya bazarında rəqabət mübarizəsi ilə əlaqədardırlar.

XX əsrin sonunda yeni ixtiralar və kəşflər beynəlxalq iqtisadi münasibətlər sistemini, bazarlarda rəqabətin güclənməsi və resurs bazarlarının məhdudluğu prinsipcə yeni texnologiyalar əsasında iqtisadi artımın optimal yollarını beynəlxalq siyasətin və elmi-texniki əməkdaşlığın aktuallığını artırır. Müasir beynəlxalq texnologiya və informasiya mübadiləsini ona uyğun olan hüquqi, maliyə təşkilati, innovasiya və texniki təminat olmadan həyata keçirilmək mümkün deyildir. Ona görə də dünya iqtisadiyyatında belə mübadilənin səmərəli inkişafı şərtləri aşağıdakılar hesab olunur:

-hüquqi – intellektual mülkiyyətin yerdəyişdiyi xarici ölkədə hüquq və məcmu münasibətlərinin hamısının hüquqi müdafiəsi;

-maliyyə – əldə olunan xarici texnologiya və informasiyanın maliyyə hesablaşmasının səmərəli sxeması,beynəlxalq innovasiya layihələrinin və ETTKİ kreditləşdirilməsi və sığortası;

-insitutsional – beynəlxalq texnologiya və informasiya mübadiləsinə təsir göstərən və onu tənzimləyən ixtisaslaşmış beynəlxlaq və milli təşkilatların fəaliyyəti;

-innovasiya – müvafiq informasiya məhsullarına və təkmilləşdirilmiş yeni texnologiyaya tələbi olan ölkələrinə verilməsi hesabına xaricə verilən texnologiya və informasiyanın keyfiyyətinin və məzmun qiymətinin yüksəldilməsi;

-texniki – müşahidəçi texniki sənədlərin, texnologiya və informasiyanın verilməsi müqavilələrinin şərtlərinin tamlığı və aydın olması; müasir texnologiya və informasiyanın idxalçısının istehsalının vaxtında yeni texnoloji həllərə adaptasiya edilməsi; informasiya və texnologiya mübadiləsinin iştirakçılarının tam qarşılıqlı anlaşması və nizamlı əlaqəsi.

Texnologiyanın beynəlxalq hərəkəti yaxud ötürülməsi elmi-texniki nailiyyətlərin dövlətlərarası hərəkəti başa düşülür. İqtisadi münasibətlərin obyekti kimi bu elmi–texniki yeniliklər bir neçə formada və müxtəlif yollarla dövlətlər arasında yayılır. Ümumi halda bu yayılma iki formada həyata keçirilir:

1. Kommersiya əsasında
2. Qeyri-Kommersiya yolu ilə.

Kommersiya yolu dedikdə texnologiyanın, yaxud elmi məhsulların hansı şəkildə olmasından asılı olmayaraq onu beynəlxalq bazarlarda olan, razılaşdırılmış qiymətlərlə müəyyən məbləğ pul ödəyir.

Qeyri-Kommersiya yolu dedikdə isə dövlətlərarasında pul ödəmələri nəzərdə tutulmur.

Hazırda elmi-texniki biliklərin və yaxud onların bir növü olan texnologiyanın mübadiləsinin ən çox yayılmış forması beynəlxalq lisenziya satışıdır. Buna patent lisenziya razılaşmaları da deyilir. Hər hansı bir dövlət şirkət öz kəşfi, yaxud ixtiraçı barədə olan məlumatı digər ölkəyə və başqa qurumlara satır. Qeyd edək ki, lisenziya ödəmələri bir neçə formada həyata keçirilir. Bunlardan biri royalti müqaviləsi hesab olunur. Royalti müqavilə müddətində ardıcıl olaraq lisenziyanın istifadəsindən əldə edilən mənfəətdən ödəniş nəzərdə tutulur.

İkincisi, pauşal ödənişi müqaviləsidir. Bu müqaviləyə, əsasən istifadə vaxtından asılı olmayaraq lisenziyanı aldığı vaxtdan razılaşdırılmış məbləğ birdəfəlik ödənilir. Üçüncüsü, birləşdirilmiş yaxud uyğunlaşdırılmış ödəniş formasıdır. Zəruri vəsaitin 10-15 %-i birdəfəlik pauşal qaydada, qalanı isə dövrü olaraq royaltı qaydasında ödənilir. Dördüncü forma mənfəətdə iştirak etmək qaydasına əsaslanır. Bu qaydaya əsasən əldə edilən mənfəətin 10- 30 %-i lisenziya satana ödənilir.

Lisenziyaların satışı sistemində mülkiyyətdə iştirakına görə ödəmələrin aparılması formasından da istifadə olunur. Bu formaya görə lisenziyanı alan öz müəssisəsinin səhmlərinin bir qismini lisenziya verənə ödəniş kimi verir.

Son dövrlərdə başqa istehsal amilləri kimi texnologiya sahəsində də idxal və ixracın həcmi genişlənərək, dünya texnologiya bazarının yaranmasını şərtləndirir. Texnologiya bazarının əsas subyektləri-dövlətlər, şirkətlər, universitetlər, müəyyən fondlar, alimlər və mütəxəssislərdən ibarət fiziki şəxslərdir.

Dünya texnologiya bazarının obyektləri isə intellektual mülkiyyət hesab olunur ki, bu bazarı da quruluşuna görə - patent və lisenziyalar verilməsi; elmitutumlu və texnoloji tutumlu məhsullar bazarı; elmi-texniki mütəxəssislər bazarı kimi xarakterizə etmək olar.

Bütünlükdə isə dünya texnologiya bazarının 90 %-i inkişaf etmiş sənaye ölkələrinə məxsusdur. Dünya texnologiya bazarının sahəvi quruluşunda isə dünya üzrə lisenziya satışının 19 %-ni elektrotexniki və elektron sənayesi, 18 %-ni ümumi maşınqayırma sənayesi, 17,4 %-ni kimya sənayesi, 10,2 %-ni nəqliyyat maşınqayırma sənayesi təşkil edir. Beynəlxalq texnologiya mübadiləsinin emal sənayesinin inkişafına olan təsiri bütünlükdə iqtisadiyyata nisbətən 3 dəfə yüksəkdir.

Müasir şəraitdə formalaşmış dünya texnologiya bazarı bir çox cəhətləri ilə səciyyələnir. Bunlardan aşağıdakıları göstərmək olar:

- dünya texnologiya bazarı bütünlükdə dünya iqtisadiyyatının intellektuallaşma səviyyəsini artırır;
- dünya texnologiya bazarında TMK-lar aparıcı subyekt kimi çıxış edirlər.

## 7.4. Beynəlxalq elmi-texniki əməkdaşlığın inkişafında beynəlxalq təşkilatların rolu

Elmi texniki əməkdaşlıq beynəlxalq iqtisadi əməkdaşlığın bir formasıdır. Beynəlxalq elmi- texniki əməkdaşlıq hazırda xarici iqtisadi əlaqələrin ən dinamik inkişaf edən sahələrindən biridir.

Beynəlxalq elmi-texniki əməkdaşlığın inkişafında beynəlxalq və regional təşkilatların böyük rolu vardır. Bu sahədə aparıcı yer BMT və onun ixtisaslaşdırılmış qurumlarına məxsusdur. Xüsusilə, Yunesko, Ümumdünya intellektual mülkiyyət hüquqi təşkilati, BMT-nin ticarət və inkişaf üzrə konfransı (YUNKTAD) və. s beynəlxalq elmi-texniki əməkdaşlığın güclənməsində rolu böyükdür.

Beynəlxalq elmi-texniki əməkdaşlıqda qeyd etdiyimiz beynəlxalq təşkilatların rolunu göstərməkdən qabaq bu problemin «NOU-XAU» proqramının əhəmiyyəti haqqında qısaca məlumat verməyi məqsədəuyğun hesab edirik.

«NOU-XAU» anlayışının hərfi mənası bilirəm-demirəm deməkdir. O, ilk dəfə 1916-cı ildə ABŞ-da ailə zəminində baxılmış məhkəmə prosesində işlədilmişdir. Qeyd etmək lazımdır ki, bütün lisenziya müqavilələrinin 50 %-ə qədəri «NOU-XAU»-nun payına düşür. Beynəlxalq səviyyədə «NOU-XAU» proqramının İEOÖ-lər üçün böyük əhəmiyyəti vardır. Çünki, bu proqramla müxtəlif ölkələrdə vacib elmi-texniki işləri yerinə yetirmək üçün maliyyə təminatı lazımı səviyyədə təmin olunur, əldə edilən nəticədən istifadə edən şirkətin, təşkilatın və s. ünvanı dəqiq göstərilir. Deməli, ideyadan konkret elmi biliyinin əldə edilməsinədək mövcud şəkildə işlər ardıcıl aparıldığına görə innovasiya prosesi sürətlənir, elmi-texniki əməkdaşlığın iqtisadiyyatın nəzərdə tutulan sahəsində verdiyi səmərənin yüksəlməsi üçün şərait yaranır.

Beynəlxalq elmi-texniki əməkdaşlığı tənzimləyən qurumların əsas vəzifələrindən biri intellektual mülkiyyət hüququnun qorunmasıdır.

Qeyd edək ki, hər bir ölkədə mülkiyyət hüququnun milli qorunma sistemi nə qədər güclü olsa, bir o qədər həmin ölkəyə müasir texnologiya axını artıq olar.

Aydındır ki, hər bir ölkədə mülkiyyət hüququ milli qanunvericilik yolu ilə müəyyən edilir. Beynəlxalq münasibətlərdə isə bu hüququn

saxlanılması, qorunması və istifadə edilməsi beynəlxalq razılaşmalara, beynəlxalq kodeksə əsaslanır.

Son 100 ildə kifayət qədər belə razılaşmalar əldə edilmişdir. Bu razılaşmaların əksəriyyəti intellektual mülkiyyət hüququ istiqamətini nəzərdə tutur.

Ümumidünya intellektual mülkiyyət hüququ təşkilatı 1967-ci ildə yaradılmışdır. İqamətgahı Cenevrədə yerləşir. 1974-cü ildən BMT–nin ixtisaslaşdırılmış təşkilati hesab edilir. 156 üzvü vardır. Eləcə də 1994-cü ildə ümumdünya ticarət təşkilatı çərçivəsində intellektual mülkiyyət hüququ üzrə çoxtərəfli razılaşma əldə edilmişdir. 1996-cı ildən qüvvədə olan «intellektual mülkiyyətin ticarəti hüququ» üzrə çoxtərəfli razılaşma fəaliyyət göstərir. Burada inkişaf etməkdə olan ölkələr üçün 2005-2006 illərədək bəzi istisnalar nəzərdə tutulmuşdur.

BMT-nin ticarət və inkişaf üzrə konfransı (YUNKTAD) çərçivəsində texnologiya verilməsi komitəsi, ixraca nəzarət üzrə koordinasiya komitəsi, təhlükəsizlik və texnologiya üzrə mütəxəssislərin müşavirəsi və digər qurumlar intellektual mülkiyyətin qorunmasına zəmin yaradırlar.

## 7.5. Azərbaycan –beynəlxalq elmi texniki əməkdaşlıq sistemində

Dünya ölkələrində beynəlxalq texnoloji mübadilə prosesi dünya təsərrüfatları milli iqtisadiyyatların inkişaf səviyyəsindən asılı olmayaraq, texniki iqtisadi kateqoriya kimi maşınlı sənayeyə əsaslandığı üçün inkişaf etməkdə olan ölkələrdə texniki biliklər inkişaf etmiş ölkələrdəki istiqamətlərdə inkişaf etmişdir. Xaricdən mədaxil olunan texnoloji biliklər zəif inkişaf etmiş ölkələr uçun tərəqqi yoludur. Son onillilərdə dünya əmtəə ticarəti dövriyyəsində ETT-nin yüksək inkişaf templəri xüsusi əmtəənin–elmi texnoloji biliklərin çəkisini sürətlə

artırmışdır. Bu səbəbdən hazırda dünya ölkələri arasında texnoloji mübadilə prosesi gedir ki, bu mübadilə anlayışı iki əsas xüsusiyyət daşıyır: geniş mənada o, ölkələr arasında istənilən elmi-texniki bilik və təcrübənin mübadiləsi kimi, dar mənada isə konkret texnoloji proses üçün nəzərdə tutulmuş elmi-texniki bilik və təcrübənin mübadiləsi kimi başa düşülür. Texnologiya kommersiya və ya qeyri-kommersiya yolları ilə ötürülür. Geniş mənada texnoloji mübadilə qeyri-kommersiya yolu ilə mübadilə olunur:

- elmi-texniki kəşflər;
- sərgi, yarmarka, simpoziumların keçirilməsi;
- kadr mübadiləsi;
- mütəxəssis miqrasiyası;
- tələbə və aspirant hazırlıqları;
- elm və texnika sferalarında əməkdaşlıq üçün beynəlxalq təşkilatların fəaliyyəti və s. vasitəsilə bu mübadilə prosesi yaranır.

Dar texnoloji mübadilə isə əsasən kommersiya vasitəsilə həyata keçirilir:

- ixtiralardan istifadə hüquqlarının lisenziya razılaşmaları vasitəsilə ötürülməsi (patent, nou-hau, əmtəə nişanları, sənaye nümunələri, texniki sənədlər):
- müxtəlif sənaye avadanlıqları;
- texniki kömək göstərilməsi;
- inciniring xidmətləri;
- mütəxəssis xidmətləri;
- elmi-texniki və istehsal kommersiyası və s.

Azərbaycanda mövcud elmi-texniki potensial əsasən 3 bölmə üzrə fəaliyyət göstərir. Bunlara Akademiya elm bölməsi, sahə elmi və ali məktəb elmi aiddir. Bunlardan başqa respublikada zavodların nəzdində elmi bölmələr vardır ki, onlar da cəm halında zavod elm bölməsi

adlandırılır. Bu elmi sektorlarda 123 elmi-tədqiqat institutu, 40-dək dövlət və özəl ali məktəb fəaliyyət göstərir.

Elm və elmə xidmət sahəsində 21 min nəfərdən çox elmi və elmi- pedaqoji kadrlar çalışırlar. Bunlarında 9 min nəfəri elmlər namizədi, 4 mindən bir qədər çoxu elmlər doktorudur. Kifayət qədər keyfiyyət xarakteristikana malik elmi-pedoqoji kadrlar fizika-riyaziyyat, kimya, biologiya, genetika və seleksiya, yer elmləri, ictimai elmlər və s. sahələrdə əsaslı və tətbiqi tədqiqatlar yerinə yetirirlər.

Respublikamız bir çox elm sahələrində MDB məkanında aparıcı yer tutur. Alimlərimizin yarımkeçiricilər, müxtəlif aşqarların hazırlanması və s. istiqamətində apardıqları tədqiqatlar dünya alimlərini maraqlandırır. Bütün bunlar alimlərimizin beynəlxalq elmi-exniki əməkdaşlıqda iştirak etmələri üçün böyük potensiala malik olmalarından xəbər verir.

Bazar iqtisadi münasibətləri şəraitində Azərbaycanda fəaliyyət göstərən elmi təşkilatların, xüsusilə Akademiya elm bölməsinin beynəlxalq elmi-texniki əməkdaşlıqda, «NOU-XAU» proqramlarında iştiraki tədqiqat institutlarının maliyyə və material-texniki bazasının möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Kifayət qədər güclü elmi kadrlar məhz ən yeni cihaz, aparat və avadanlıqlarla yaxşı təchiz olunduqda aparılan tədqiqatlardan alınan nəticələr daha dəqiq, keyfiyyəti xarakterizə edən göstəricilər baxımından mütərəqqi hesab olunur.

Beynəlxalq elmi-texniki əməkdaşlıqda aparıcı rol oynayan elmi kadrların cihazlarla və ümumi halda texnika ilə silahlanmasını diqqətin gücləndirilməsi ixtiraların, kəşflərin və səmərələşdirici təkliflərin çoxalmasına səbəb olur.

Ölkə ərazisində elmi tədqiqatlardan alınan yeniliklərin hesabına elmi məhsullar bazarı yaranır. Bu bazarda lisenziyaların, patentlərin, müəlliflik hüququ təsdiq edən digər sənədlərin elmi məhsullar bazarında satılması respublikada, həmçinin konkret müəssisələrdə və sair iştirakçılar tərəfindən

əlavə valyuta əldə etməsinə imkan verəcəkdir. Digər tərəfdən elmi məhsullar bazarına xarici valyutaların və investorların axını baş verəcək, əgli əməyin məhsuluna tələbat artmaqla Azərbaycanın beynəlxalq texnologiyalar bazarına verdiyi töhfəsi daha da artacaqdır.

# Fəsil 8. Dünya ölkələrinin enerji siyasəti və Azərbaycanın yeni neft strategiyası

## 8.1 Azərbaycanın dünnyanın aparıcı ölkələri ilə iqtisadi əlaqələrində Xəzər neftinin rolu.

Azərbaycan Respublikası əlverişli coğrafi mövqeyi, olan hava, su, dəmiryolu, avtomobil nəqliyyatı, neft və qaz kəmərləri ilə inkişaf etmiş beynəlxalq əhəmiyyətli dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya xüsusiyyətlərinə malikdir. Həmçinin, Azərbaycan mineral-xammal ehtiyatları, məhsuldar torpaq sahələri, əlverişli təbii-iqlim şəraiti ilə xarici investorları cəlb edən regiondur. İqtisadi sistemlər arenasında qarşılıqlı əlaqəni təmin edən əsas xüsusiyyət iqtisadi əlaqələrdi. İqtisadi əlaqələrin 20-dən cox forması mövcuddur. Azərbaycanın dünya müasir iqtisadiyyatında yeri, beynəlxalq təşkilatlarla əlaqələri xüsusilə də xarici şirkətlərlə bağlanmış neft müqavilələri dünyanın siyasi müzakirə obyektinə çevrilib. Son illərin təhlilləri deməyə əsas verir ki, 2005 ci ilə qədər iqtisadi artım əsas fondlara qoyulan kapital qoyuluşu, 2005 ci ildən sonra isə xarici ticarət hesabına əldə olunmuşdur. Azərbaycanda iqtisadi artıma hərəkətverici xüsusiyyətləri belə qruplaşdırmaq olar:

1. Turizm gəlirləri,
2. Manatın xarici valyutalara, xüsusilə ABŞ dolları və avroya nisbətdə məzənnəsinin dəyişməsi;
3. Xarici ticarətin həcminin artması;

4. Xarici investisiya qoyuluşları;

5. Xidmətlər ticarətinin, xüsusilə nəqliyyat daşınmalarının artması.

Neftin dünya qiymətinin artan istiqamətdə dəyişməsi və Azərbaycandan xarici ölkələrə satılmasına görə neft məhsulları ilə, iki struktur – Dövlət Neft Şirkəti və "Azneftyağ" İstehsalat birliyi məşğul olmuşdur. İxrac edilmiş neft məhsullarının təxminən 1,02 milyon tonu (48,19%) Dövlət Neft Şirkətinin Xarici İqtisadi Əlaqələr İdarəsinin, 1,06 milyon tonu isə (50,24%) "Azneftyağ"- ın payına düşmüşdür. Ümumiyyətlə götürdükdə XXI əsrin əvvəllərində xarici iqtisadi əlaqələrlə 7466 hüquqi və fiziki şəxs məşğul olmuşdur. Bunlardan 2789-u dövlət və özəl müəssisə, 4677-i isə fiziki şəxslərin payına düşür. (cədvəl -19)

| ŞİRKƏTLƏR | İnvestitsiya payı |
|---|---|
| Britiş Petroleum (Böyük Britaniya) | 17,12 % |
| Amoko (Amerika Birləşmiş Ştatları) | 17,01 % |
| Yukoyl (Rusiya) | 10 % |
| Penzoil (Amerika Birləşmiş Ştatları) | 4,81 % |
| Eksson (Amerika Birləşmiş Ştatları) | 8,0 % |
| Staboyl (Norveç) | 8, 56 % |
| İtocu Slodzi (Yaponiya) | 3,92 % |
| Remko Enerji (Qrup Böyük Britaniya) | 2,08 % |
| Yunokal (Amerika Birləşmiş Ştatları) | 10,05 % |
| Turkiş petroleum Cor. (Türkiyə) | 6,75 % |
| Delta Nimir Xəzər (Səudiyyə Ərəbistan) | 1, 68 % |
| ARDNŞ (Azərbaycan) | 10 % |

Neftçıxarma sənayesinə və onunla bağlı digər sahələrə 30 milyard ABŞ dolları həcmində investisiya qoyulması haqqında dünyanın Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, İran, Yaponiya, Norveç, Türkiyə, Səudiyyə Ərəbistanı, Rusiya və s. kimi aparıcı dövlətlərinin neft şirkətləri ilə kontranktlar bağlanmış və bu iş indi də davam etməkdədir. Xəzər dənizinin Azərbaycan bölməsi, mütəxəssislərin fikrinə görə dünyanın ən perspektivli neft və qazla zəngin olan hövzələrindən biri sayılır və göstərilir ki, burada neft, qaz və kondensatın ümumi ehtiyatı 8 milyard ton şərti yanacaqdan çoxdur. Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın xarici siyasətinin təməl prinsiplərindən biri kimi ölkəmizin milli maraqlarını və xarici dövlətlərin qarşılıqlı mənafeyini nəzərə almaqla Azərbaycanın neft ehtiyatlarına maraq göstərən hər bir ölkə ilə qarşılıqlı-faydalı əməkdaşığa hazır olduğunu bəyan etmişdi. Əsas məqsəd ölkənin mövcud sərvətlərinə, o cümlədən zəngin neft və qaz yataqlarına sahib olmaq, onlardan dövlətin möhkəmlənməsi, əhalinin həyat səraitinin yaxşılaşması və ölkənin beynəlxalq mövqelərinin güclənməsi istiqamətində düzgün istifadə etmək idi. Azərbaycan rəhbərliyi Respublikanın zəngin karbohidrogen ehtiyatlarının mənimsənilməsinə daha çox ölkəni, xüsusən Qərb dövlətlərini, ABŞ-ı,Yaponiyanı, regionda xüsusi rolu olan Rusiyanı, Türkiyə və İranı cəlb etmək istəyirdi. 1994-1997-ci illərdə 9 iri beynəlxalq neft kontraktı və onlardan ən irisi "Əsrin kontraktı" bağlanmışdır. Bu kontrakt Azəri-Çıraq yataqlarının və Günəşli yatağının dərin su qatlarında yerləşən hissəsinin işlənməsi üçün yeddi xarici ölkələrin neft kompaniyalarını və ümumi şəkildə bu kontraktda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə yanaşı 11 xarici neft kompaniyası iştirak edir. Bu kontrakta görə 30 il müddətinə yataqlardan 500-600 milyon ton neft və 200 milyard kubmetrdən də çox qaz çıxarılacağı proqnozlaşdırılmışdır. "Əsrin kontraktı" 7,5 milyard ABŞ dolları məbləğində vəsait tələb edir. Qoyulan şərtlərə görə

investisiya xərcləri ilk 8-10 il ərzində ödənilməlidir. ABŞ-ın sabiq prezidenti Bill Klintonun 1994-cü il sentiyabrın 20-də göndərdiyi teleqramda deyilirdi: «Birləşmiş Ştatlar tarixində bu tipli sazişlər arasında ən böyüyü olan bu müqaviləni alqışlayır. O, bütün tərəflər üçün mənfəətli olacaq ölkələrimizin arasında artmaqda olan iqtisadi-ticarət əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəkdir». Kontraktdan əldə edilən gəlirin məbləğinin 80 milyard olacağı gözlənilir ki, onun da 50%-i respublikanın sərəncamında qalmalıdır. Çıraq yatağından ilkin neft şimal kəməri ilə Novorossiyski terminalına və oradan da dünya neft bazarına çatdırılmışdır. Bakı-Supsa neft kəməri tikilib istismara verilmişdir. Bu kəmərlərlə ildə 20 milyon ton neft ixrac etmək mümkündür.

Müqavilələr "pay bölgüsü" prinsipinə əsasən bağlanır və hər bir kompaniyanın payı ayrıca olaraq qabaqcadan təyin edilir. Əyanilik üçün aşağıdakı cədvəldə 1994-1997-ci illərdə bağlanmış bir neçə neft müqaviləsinin adı, iştirak edən ölkələrin siyahısı və "məhsulun pay bölgüsü" ündə faizlə payı qeyd edilmişdir. (Cədvəl - 20)

**Azərbaycan Respublikasının 1994-1997-ci illərdə bağlandığı bir neçə neft müqavilələrində xarici kompaniyalar və onların payı (%-lə)**

| Muqavilənin adı və bağlanma tarixi | Olkələr | Kompaniyala | Payları (%-lə) |
|---|---|---|---|
| Azəri, Cıraq, Gunəşli (20.09.94) ("Əsrin muqaviləsi") | Norvec<br>Səudiyyə Ərəbistanı<br>ABŞ<br>ABŞ<br>ABŞ<br>ABŞ<br>Boyuk Britaniya<br>Boyuk Britaniya<br>Turkiyə<br>Rusiya<br>Yaponiya | Statol<br>Delta<br>AMOCO<br>Unocal<br>Exxon<br>Pennzoil<br>BP<br>Remco<br>TPAO<br>Lukoil<br>Itochu | 8,56<br>1,68<br>17,01<br>10,05<br>8,0<br>4,81<br>17,13<br>2,08<br>6,75<br>10,00<br>3,92 |
| Qarabağ (11.10.96) | İtaliya<br>Rusiya və İtaliya<br>ABŞ<br>Rusiya | Agip<br>Luk Agip<br>Pennzoil<br>Lukoil | 5,0<br>45,0<br>30,0<br>12,5 |
| Lənkəran-Dəniz Talış-Dəniz (01.13.97) | Fransa<br>Fransa<br>İran<br>Almaniya | Elf Acquitaine<br>Total | 20,0<br>10,0<br>10,0<br>10,0 |

## 8.2 Xəzər nefti geosyasət və region maraqları çərçivəsində: Xəzərin hüquqi statusu

Xəzərin sahilində XVIII əsrin sonlarından başlayaraq, Azərbaycana məxsus tarixi ərazilər, Dərbənd, Bakı, Rəşt, Mazandərən, Astara kimi şəhər və xanlıq mərkəzləri, türk xalq və etnoslarının məskunlaşdığı xəzərətrafı məkanlar uğrunda – Rusiya, Osmanlı və Böyük Britaniya imperiyaları arasında müharibələr olmuşdur. Xəzərsahili ərazilərin "hüquqi statusu və mənsubiyyəti" ilə bağlı ilk sənəd Rusiya ilə İran arasında rus çarı I Pyoturun 1722-1723-cü illərdə 80 min qoşunla Xəzər hövzəsinə ilk yürüşü və işğalından sonra (Dərbənd, Bakı, Pəşt, Şirvan, Gilan, Mazandərən) Sankt-Peterburqda imzalanmışdır. Xəzərətrafı Azərbaycan torpaqlarının statusu ilə bağlı Rusiya və İran arasında növbəti saziş 1732-ci ildə Rəşt şəhərində imzalanmışdır. Bu sazişə görə, Rusiya İranla 1722-1723-cü illər müharibəsi zamanı ələ keçirdiyi Xəzərin Cənub sahillərini geri qaytarır və əvəzində Xəzər dənizində sərbəst üzmək, İranla məhdudiyyətsiz ticarət aparmaq hüququ əldə edirdi.

1813-cü ildə Gülüstanda, 1921-ci ilin 26 fevralında Rusiya ilə İran arasında (25 mart 1940-cı ildə isə SSRİ ilə İran arasında Xəzər dənizində yalnız Rusiya və İran gəmi saxlaya, sərbəst üzə və balıqçılıqla məşğul ola bilərdilər. Müqavilədə SSRİ-nin Xəzərdəki payı 86%, İranınkı isə 14% müəyyənləşmişdir), 1929-cu ildə Osmanlı imperatorluğu ilə və 1828-ci ildə Türkmənçayda Xəzərin Cənub və Şimal sahilləri də daxil olmaqla iki hissəyə ayrılmasını və bölüşdürülməsini rəsmiləşdirən, onun "hüquqi mənsubiyyətini" müəyyənləşdirən növbəti beynəlxalq sazişlər rəsmiləşmişdir. Xəzərin hüquqi statusu ilə bağlı 1921 ci il Rusiya-İran müqaviləsi SSRİ yaradılandan sonra da, 1931-ci ilə qədər öz hüquqi

qüvvəsini olduğu kimi saxlamış və müvafiq olaraq SSRİ-İran razılaşması kimi fəaliyyət göstərmişdir.

27 oktyabr 1931-ci ildə iki Xəzəryanı ölkə olan SSRİ və İran arasında "Xəzər dənizinə daxil olma, ticarət və gəmiçilik" haqqında imzalanmış Konvensiyanın 16-cı maddəsində qeyd edilir ki, Xəzər dənizi yalnız onun sahillərində yerləşən SSRİ və İrana məxsusdur. Bu səbəbdən də onun sularında yalnız bu ölkələrə məxsus, yaxud onların bayrağı altında üzən gəmilər daxil ola bilərdi.

Mütəxəssislərin fikrinə görə, bu müqavilə faktiki olaraq Rusiya və İranın xarici ölkələrə qarşı birgə mübarizə aparmaq haqda "strateji müttəfiqliyini" təsbit edərək, Xəzəri yalnız iki ölkənin birgə istifadə edə biləcəyi geosiyasi məkana və daxili dənizə çevirirdi. Xəzərin statusu ilə bağlı Rusiyanın 1992-ci ildən sonrakı mövqeyini iki əsas mərhələyə :

–1992-95-ci illərdə "Rusiyanın öz geosiyasi maraqlarını xarici ölkələrin ərazisində axtarması" "post-imperiya" yanaşması.

– 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın Qərbdəki, Qərbin isə Xəzər hövzəsindəki mövqelərinin möhkəmlədərək, rəsmi Bakı Rusiya ilə İranı real geosiyasi vəziyyət qarşısında qoydu.

Xəzər dənizi dünyada mühüm geosiyasi əhəmiyyətinə və zəngin karbohidrogen ehtiyatlarına görə seçilən bölgələrdən biridir.

Xəzərin hüquqi statusuna dair ölkələr arasında uzun müddət qeyri-müəyyən vəziyyətin hökm sürməsində Türkmənistanın nümayiş etdirdiyi rəsmi mövqenin də mühüm rolu olmuşdur. Məlum olduğu kimi, Türkmənistan bölgədə, ilk növbədə, özünün dünya əhəmiyyətli zəngin təbii qaz ehtiyatları ilə tanınır. Xəzərin statusu və Qərb investisiyalarının bölgəyə gəlməsinə münasibətdə Türkmənistanın maraqları və mövqeyi Azərbaycanınkı ilə tam üst-üstə düşür. Düzdür, bu ümumilik yalnız xarici şirkətlərlə birgə iş aparmaq və öz məhsullarını sərbəst şəkildə dünya bazarlarına çıxarmaq ehtiyacında müşahidə olunur.

Türkməninstan Xəzərin hüquqi statusu məsələsində ilk dövrlərdə Rusiya və İranla birləşərək: “Xəzər beş ölkənin daxili gölüdür və burada heç bir xarici dövlət yaxud region ölkəsi təkbaşına, hamının razılığını almadan hər hansı bir iş apara bilməz” bəyanatını vermişdi. Həmin dövrdə Türkmənistan Xəzərdə təkbaşına fəaliyyətin əleyhinə çıxış etməklə yanaşı, 1993-cü ildə ölkənin dövlət sərəhdləri haqqında qəbul etdiyi qanunvericilik aktlarında Xəzərin sahil ərazilərini (“Dəniz hüquqları haqqında” BMT Konvensiyasına əsaslanaraq) “Türkmənistanın milli ərazisi”, orta xəttinə qədər olan digər su hövzəsini isə “iqtisadi zona” elan etmişdi. Bu hadisədən cəmi bir il keçməmiş Rusiya prezidenti B.Yeltsiinin “Xəzərin nə dibi, nə də su səthi heç kim




tərəfindən bölünə bilməz.” fiikrləri Türkmənistan tərəfindən dəstəkləndi.

Rusiya barışmaz aqressiv münasibət mövqeyi nümayiş edərək, bəhs olunan dövrdəki tələbindən belə bir məntiqi nəticə ortaya çıxırdı ki,

Xəzərdə iqtisadi fəaliyyətlə məşğul olmaq istəyən hər bir sahilyanı ölkə öz addımlarını Moskva və Tehranla razılaşdırmalı idi. Beləliklə, Rusiya və İranın xarici ölkələrə qarşı birgə mübarizə aparmaq haqda "strateji müttəfiqliyini" təsbit edərək, Xəzəri yalnız iki ölkənin birgə istifadə edə biləcəyi geosiyasi məkana və daxili dənizə çevirirdi. Razılaşmaya müvafiq olaraq Xəzərin Cənubunda İran, qalan bütün sahillərində isə sovet Rusiyası ətraf ərazilərin və xalqların taleyini istədiyi kimi həll etmək imkanı qazanırdı.

XX əsrin son onilliyində beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər tək qütblü dünya nizamının yaranması, qloballaşma və s. nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünya siyasətinin əsas hədəflərindən birinə çevrilmişdir.

SSRİ-nin dağılması və Azərbaycan, Qazaxıstan, Türkmənistan və Rusiya kimi yeni müstəqil dövlətlərin yaranması ilə Xəzəryanı dövlətlərin sayı beş olmuşdur. Hazırda bu dövlətlər öz iqtisadi və siyasi maraqlarını nəzərə alaraq, Xəzərdən istifadənin özlərinə sərfəli variantlarını irəli sürürlər. Bəzi dövlətlər Xəzər sahiyanı dövlətlərin birgə istifadə etməli olduğunu, digər ölkələr Xəzər dənizinin dünya praktikasına uyğun olaraq sektorlara bölgüsü prinsipini təklif edir. Hazırda Rusiya, Qazaxıstan və Azərbaycan arasında dənizin dibinin milli sektorlara bölgüsü haqqında müqavilə bağlansa da, Xəzərin statusu məsələsi hələ ki, həll olunmayıb. İran və Türkmənistanın Xəzərin hüquqi statusu məsələsində nümayiş etdirdiyifərqli (qeyri konstruktiv) mövqe aradan qalxmamış, bu iki dövlətin dənizin Azərbaycan sektorunda yerləşən bəzi yataqlara olan iddeaları Xəzəryanı dövlətlər arasında münasibətləri bir qədər də gərginləşdirmişdir.

Xəzərin hüquqi statusu beynəlxalq məsələdir və bu müstəvidə ilk növbədə dünyanın aparıcı dövlətləri olan ABŞ və Rusiyanın, Avropa və bəzi Asiya dövlətlərinin, o cümlədən region ölkələrinin maraqları kəsişir.

Xəzərin hazırki statusu fevralın 26-da imzalanmış Rusiya İran dostluq müqaviləsi, həmçinin 1940-cı il martın 25-də SSRİ ilə İran arasında imzalanmış Ticarət və Gəmiçilik haqqında (Sudaüzmə) Sazişə əsasən tənzimlənir. Həmin bölgüdə sərhədləri Astaradan (Azərbaycan) Həsənqulu (Türkmənistan) adlanan yaşayış məskəninə qədər olan düz xətt üzrə İrana 14 % ,SSRİ-yə isə 86% pay düşmüşdür. SSRİ isə öz daxili qaydaları ilə orta xətt prinsipi üzrə xəzər dənizini dörd respublika arasında Rusiya (19%), Qazaxıstan (30%), Azərbaycan (21%) və Türkmənistan (16%) milli sektora bölünmüş və respublikaların su sərhədlərini müəyyən etmişdir.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov – Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Qazaxıstanın paytaxtı Astanada keçirilən görüşündə bildirmişdir: "Ümid edirik ki, çoxillik əməyin nəticəsi Xəzəryanı dövlətlərin qarşılıqlı fəaliyyəti və əməkdaşlığı üçün hərtərəfli hüquqi əsas yaradacaq. Xəzəryanı dövlətlərin əməkdaşlığı üçün hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə ticarət-iqtisadi, nəqliyyat-logistika və ekoloji sahələrdə, həmçinin təhlükəsizlik məsələləri ilə bağlı bir sıra sahəvi saziş layihələri irəli sürülüb. Biz bu layihələrin müzakirəsi və razılaşdırılmasında fəal iştirak edirik, bununla yanaşı müvafiq Konvensiyanın qəbulunadək Xəzər dənizinin hüquqi statusunu əvvəlcədən müəyyən edə bilən müddəalara malik sənəd layihələrinin müzakirəsini vaxtından əvvəl hesab edirik. Biz o nöqteyi-nəzərdən çıxış edirik ki, təklif olunan bütün sahəvi saziş layihələrinin müzakirəsi bütün beş Xəzəryanı dövlətin iştirakı ilə aparılmalıdır".

## 8.3. Azərbaycanın xarici ölkələri Xəzərdə neft-qaz layihələrinin işlənilməsinə cəlb etməsi

Acıq iqtisadiyyat siyasətini həyata kecirən Azərbaycan dövləti iqtisadi böhrandan cıxmaq, inkişafa sabit xarakter vermək ücün doxsanınçı illərdə geniş miqyaslı tədbirlər və iqtisadi islahatlar həyata kecirməyə başladı. Lakin dövlət müstəqilliyini yeniçə əldə etmiş Azərbayçan Respublikasının maliyyə imkanlarının olmaması səbəbindən reallaşdırılan tədbirlər gözlənilən səmərəni vermirdi. Bu istiqamətdə respublikada həyata kecirilən iqtisadi strategiyada böyük keyfiyyət dəyişiklikləri aparmaq ücün səylər güçləndirildi. Beynəlxalq şirkətlərin marağını güçləndirmək ücün, Azərbayçanda xariçi iqtisadi fəaliyyət ücün, əlverişli mühit yaratmaq məqsədilə Ümummilli liderimiz H.Ə.Əliyev tərəfindən tədbirlər görüldü, respublikada dünyanın bütün TMK-ları ücün biznes fəaliyyəti ilə məşğul olmaq sahəsində, iri həçmli investisiyalar qoyulmasına dövlət qarantının olmasını bəyan etdikdən sonra xariçi şirkətlərin ölkəmizə münasibətində dönüş yarandı.

Xariçi şirkətlərlə respublika iqtisadiyyatının müxtəlif sahələri, o çümlədən neft cıxarma sahəsi arasındakı əməkdaşlıq buna çanlı sübutdur. «Əsrin müqaviləsi»nin transmilli korporasiyaların Azərbayçana çəlb edilməsi ilə bağlı məsələləri nəzərdən kecirtməzdən əvvəl, dünyada, həmcinin respublikamızda bu strateji məhsulun ehtiyatları ilə bağlı ümumi məlumatları nəzərdən kecirməyi məqsədə uyğun hesab edirik.

Beynəlxalq ekspertlərin hesablamalarına görə hazırda dünyada neftin potensial ehtiyatları 540 mlrd. tona catır. Bu qədər neftin təxminən 40 %-ə qədəri Yaxın Şərq dövlətlərinin, 22 %-i MDB ölkələrinin payına düşür. Azərbayçanda neft ehtiyatı 3,4 mlrd. ton təşkil edir. Bu dünyada mövçud olan ümumi neft ehtiyatlarının çəmi 0,6 %-ni

təşkil edir. Digər məlumatlara görə respublikamızda neftin ümumi ehtiyatı 8 mlrd. tona bərabərdir.

Mütəxəssislərin hesablamalarına görə ötən müddət ərzində Azərbayçanda 1330 mln. ton neft cıxarılmışdır. Deməli, sənaye üsulu ilə respublikada 150 ilə yaxın neft hasil edilməsinə baxmayaraq Azərbayçanda hələ yerin təkində 2 mlrd. tondan artıq neft, 800 mlrd. $m^3$ – dən cox qaz ehtiyatları vardır.

Müstəqillik əldə etdikdən sonra qarşılaşdığımız iqtisadi cətinliklərin həlli yollarından biri məhz bu sahədə beynəlxalq korporasiyaların investisiyaları hesabına neft və qaz hasilatını artırmaqla dünya bazarlarına cıxmaqdan ibarətdir. Həmin məqsədlə də uzun müddətli danışıqlar və məsləhətləşmələrdən sonra xariçi şirkətlərlə birlikdə 24 sentyabr 1994-çü ildə respublikamızın tarixinə «Əsrin müqaviləsi» kimi daxil olmuş müqavilə imzalandı. Bu tarixi sənəd özünün miqyası, strateci əhəmiyyəti, iqtisadi, siyasi və sosial səmərəsi baxımından analoqu olmayan beynəlxalq kontraktdır.

«Əsrin müqaviləsi»nə əsasən Xəzər dənizinin Azərbayçan sektorunda «Azəri», «Cıraq» və «Günəşli» yataqlarında dünyanın güçlü transmilli korporasiyaları ilə birlikdə neftin cıxarılması işlərinə başlanıldı.

Müqavilənin əsas göstəriçiləri aşağıdakılardan ibarətdir:

kapital qoyuluşunun həçmi- 7,4 mlrd. dollar;

- istismar xərçlərinin ümumi həçmi – 5,9 mlrd. dollar;
- müqavilənin müddəti – 30 il;
- müqavilənin əhatə etdiyi ərazi – 432,4 $m^2$;
- hasil ediləçək neftin miqdarı – 510 mln. ton;
- qaz hasilatı ehtiyatı – 70 mlrd. $m^3$;
- iştirak payının hər faizi üçün xariçi korporasiyalar tərəfindən verilən bonusun həçmi – 300 mln. dollar.

## 8.4. Azərbaycanın neft sənayesində yeni eranın başlanması

XXI əsr tarixə qloballaşma, ölkələrin və xalqların sivilizasiyasının bütövləşməsi kimi daxil olmuşdur. Qloballaşma mədəni, iqtisadi, siyasi və tarixi prosesləri öz cazibəsində saxlayaraq arxasınca aparır. Beləliklə, yeni əsri yeni eranın başlanğıcı hesab etmək olar. Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiyası sürətləndikcə qlobal iqtisadi proseslər də genişlənməkdədir. Son 20 ildə dünyada gedən sosial iqtisadi və siyasi dəyişikliklər bütün sahələrdə olduğu kimi Azərbaycanda da öz təsirini göstərməkdədir. Dünya ölkələrinin iqtisadi inkişafının əsas məqsədi – yaşayış tərzinin yaxşılaşması və iqtisadi durumu inkişaf etdirməkdi. Dünya ölkələrinin təcrübəsindən məlumdur ki, qloballaşma anlayışı bir proses kimi bütün sahələrdə özünün təzahürləri, təsirləri və mahiyyəti ilə insanların beyninə, həyat fəaliyyətinə və yaşam tərzinə nüfuz etməkdədir. Qloballaşma yeni dünya sahmadı da adlanır. Rumın-yanın sabiq prezidenti dunya haqqında fikri olduqca maraq doğurur: "Dünya Allahın adıdır". Fitsceraltd Skottun bir məqaləsində yazdığı kimi "Coxdan anlamaq lazımdır ki, bu dünyada hər şey ümidsizdir, lakin onu dəyişmək üçün qətiyyəti itirməmək lazımdı". XX əsrin sonu XXI əsrin əvvəli qloballaşma problemlərinə diqqət cəlb edir ki, bunun nəticəsində digər ölkələrin milli həyatının bir cox aspektləri ilə ümumdünya kontekstində nəzərdən keçirilir. Azərbaycan üçün yeni eranın başlanması neft sənayesi ilə əlaqədardır.

«Əsrin müqaviləsi»ni bağlamaqla respublikamız beynəlxalq aləmdə nümayiş etdirdi ki, o, dünyanın bütün transmilli korporasiyaları ücün acıqdır. Məhz bu amil beynəlxalq transmilli korporasiyaların respubli-kamıza gəlməsində, iqtisadiyyatın müxtəlif sahələrinə investi-siya qoymalarını marağının son dərəcə güçlənməsində flaqman rolunu oyna-dı. Müqavilə xalqımızın öz sərvətlərinə sahib olduğunu dünyada nüma-yiş etdirdi. «Əsrin müqaviləsi»ni imzalamaqla Azərbayçan respublikası

ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük neft və digər istiqamətli transmilli korporasiyaları arasında sıx əlaqələr yarandı. Azərbayçan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası ücün ilkin əsas yaradıldı. Bu isə son illərdə respublikaya investisiya axını ücün böyük yol acdı, digər sahələrdə calışan şirkətlərin də Azərbayçanda fəaliyyət göstərməsi ücün zəmin yaratdı.

Bu mütərəqqi meyllərin nətiçəsidir ki, 1996-çı ildən etibarən respublika iqtisadiyyatında çanlanma başlandı, ümumi daxili məhsulun istehsalında və digər makro göstəriçilərdə artım özünü biruzə verdi ki, bu vəziyyət 1999-çu ildədə inamla davam etdi və 2006-çı ildə ÜDM-un artımı 34 %-ə catmışdır.

1999-cu ildə bütün mənbələrdən istifadə edilmiş investisiyaların ümumihəçmi 2252,9 mlrd. manat olmuşdur. 2006-çı ildə isə qoyulmuş çəmi investisiyanın həçmi 6,0 mlrd. dollar təşkil edib ki, bunun da təxminən 73 %-i xariçi investorların, o çümlədən transmilli korporasiyaların payına düşür. Qoyulan ümumi investisiyanın 50,9 %-i sənayenin, o çümlədən neft və qaz hasilatına yönəlmişdir ki, bu da əsasən xariçi şirkətlərin hesabına olmuşdur. Azərbayçan prezidenti H.Ə.Əliyev tərəfindən həyata kecirilən iqtisadi siyasətin parlaq nəticəsinin davamı kimi «Əsrin müqaviləsi»ndən sonra 4 xariçi şirkətlə 1995-çi ildə yeni müqavilə bağlandı.bu müqaviləyə görə dünyada tanınan Penzoyl, Lukoyl, LukAÇİP, AÇİP və ARDNŞ-nin iştirakı ilə neft sektorunda, o çümlədən «Qarabağ» yatağının mənimsənilməsi istiqamətində işlər başlandı. Həmin müqaviləyə görə pay bölgüsü aşağıdakı kimi qəbul edilmişdir ( çədvəl- 22 )

**Xariçi şirkətlərin «Qarabağ» yatağında pay bölgüsü (%-lə)**

| № | Şirkətlər | Pay faizləri | Ölkələr |
|---|---|---|---|
| 1. | **Penzoyl** | 30 | **ABŞ** |
| 2. | Lukoyl | 12,5 | Rusiya |
| 3. | ARDNŞ | 7,5 | **Azərbayçan** |
| 4. | LukAÇİP | 45 | Rusiya – İtaliya |
| 5. | AÇİP | 5 | **İtaliya** |

Qeyd etdiyimiz bu iri xariçi şirkətlərdən başqa neft sektoruna investisiya qoyuluşuna BP-Statoyl alyansı, Fransanın Elf Akiten şirkəti, İranın OİES şirkəti, Səudiyyə Ərəbistanının Delta şirkəti, Demineks (Almaniya), Portofina (Belcika), Mitsun (Yaponiya), Repsol (ispaniya), Komonvels (Kanada), Oyl end qaz (Kanada), Yunion (ABŞ), Teksas (ABŞ), Frontera (ABŞ), Resourovs (ABŞ), Monument (Böyük Britaniya), Sentral Fyuel (Rusiya) şirkətləri Azərbayçanda neftcıxarma, onun emalı, nəqli, infrastruktura sahələrinin inkişafında yaxından iştirak edirlər.

Respublikamızda neft sektorunun inkişafında böyük rol oynayan bir necə şirkətin konkret müqavilələr üzrə fəaliyyətini nəzərdən kecirtmək cox yerinə düşər. Məlum olduğu kimi 1996-çı ildə transmilli korporasiyalarla birlikdə «Dan ulduzu» və «Əşrəfi» neft strukturlarının işlənməsi üzrə müqavilə imzalanmışdır. Müqavilənin müddəti 25 ildir. Bu yataqdan 7 mln. ton neft cıxarılaçaqdır. Lakin qiymətləndirmə materiallarına əsasən «Dan ulduzu» və «Əşrəfi» neft strukturlarında 150 mln. ton neft, 60 mlrd. $m^3$ qaz ehtiyatı vardır. Müqavilə üzrə pay bölgüsü aşağıdakı kimi olaçaqdır (çədvəl - 23).

**«Dan ulduzu» və «Əşrəfi» yataqlarından cıxarılan neftin müqavilə üzrə şirkətlər arasında**

| № | Şirkətlər | Paylar | Ölkələr |
|---|---|---|---|
| 1. | *Amoko* | 30 % | ABŞ |
| 2. | Yunokal | 25,5 % | ABŞ |
| 3. | İtocu | 20 % | Yaponiya |
| 4. | ARDNŞ | 20 % | Azərbayçan |
| 5. | Delta | 4,5 % | Səudiyyə Ərəbistanı |

FəaliyyətinitəhliletdiyimizbumüqaviləninilknövbədəABŞücünböyü kəhəmiyyətivardır. Bu marağın yüksək olması ilk növbədə ABŞ-ın transmilli korporasiyalarının payının 50 %-dən cox olmasıdır (iki transmilli korporasiyanın payı 55 % təşkil edir). Bütün bunlar Azərbayçan - ABŞ əlaqələrinin gələçək perspektivlərinə parlaq sübutdur.

Ümumiyyətlə götürdükdə, beynəlxalq şirkətlərin respublikamızla birgə əməkdaşlığı hesabına yalnız neft hasilatında əldə olunaçaq gəlir ümumi mənfəətin 70 %-indən cox olaçaqdır. Müqavilələrdə nəzərdə tutulur ki, investisiya qoyuluşunun həçmi, əməliyyat məsrəfləri cıxıldıqdan sonra qalan karbohidrogenlər 50 % -dən cox ola bilməz. Bu baxımdan xariçi şirkətlərlə hazırki fəaliyyət respublikamız üçün effektli olaçaqdır.

Proqnozlara və ekspertlərin hesablamalarına görə 30 il ərzində neft müqavilələri üzrə gözlənilən 1150 mln. ton neft hasilatının 23-24 %-i və ya orta hesabla 270 mln. tonu maliyyə məsrəflərinin ödənilməsinə yönələçək. Qalan 880 mln. ton neftin təxminən 70 %-i və ya 605 mln. tonu Azərbayçanın, 275 mln. tonu isə podratcıların payına düşür.

Azərbayçan dövləti inteqrasiya əlaqələrində olduğu transmilli korporasiyaların investisiyalarından və beynəlxalq şirkətlərin

bazarlarından baçarıqla istifadə etməklə özünün valyuta təsərüfatını və müdafiə qüdrətini güçləndirməkdə davam edir.

## 8.5. Azərbaycanın qlobal dünya siyasətinə qatılması: BMT əlaqələri və Azərbaycanın Avropa Təhlükəsizlik və Əməkdaşlıq sisteminə inteqrasiyası

Mustəqil dövlət olaraq Azərbaycan, beynəlxalq huququn subyekti kimi muasir dunyanın bir hissəsidir. BMT, ATƏT, Avropa Şurası, İKT, MDB, GUAM, EKO, TDB və digər beynəlxalq və regional təşkilatların uzvudur. Bir sıra beynəlxalq konvensiyalara qoşularaq, sosial-mədəni baxımdan beynəlxalq strukturlara inteqrasiya xətti yürüdərək, ölkənin təhlukəsizlik mühitinə və beynəlxalq imicinə təsir göstərir. 1991 ci ildən Azərbaycan Respublikasının müstəqilliyini əldə etdikdən sonra milli təhlükəsizliyinin əsas məqsədləri, vəzifələri, metodlarının təşkili haqqında muxtəlif dövlət qurumlarında müzakirələrə başlandı. 1993-2003 cu illərdəki ayrı-ayrı cıxışlarında Azərbaycan Respublikasının milli təhlukəsizliyinin əsasları, Konsepsiyaları öz əksini tapmışdır. Beləliklə, 2004-cü ildə "Milli təhlukəsizlik haqqında" qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının Milli Məclisi Umummilli lider Heydər Əliyevin milli təhlukəsizlik təliminin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirən, ölkənin Milli Təhlükəsizlik Konsepsiyasını yaradaraq "Milli təhlukəsizlik haqqında" qanun qəbul etmişdir. Konsepsiyada Azərbaycanın gələcəkdə hərbi və sərhəd doktrinasının, xarici siyasət və təhlükəsizlik strategiyasının, iqtisadi, ekoloji, informasiya və digər həyati əhəmiyyət kəsb edən sahələrin təhlükəsizliyi siyasətinin formalaşdırılmasının vahid prinsipləri müəyyən olunmuş, hər bir sahə üzrə ayrıca təhlükəsizlik konsepsiyasının hazırlanması tövsiyə edilmişdir.

Beynəlxalq hökümətlərarası təşkilat 24 oktyabr 1945-ci ildə, İkinci dünya müharibəsinin başa çatması ilə yaradılmış Birləşmiş Millətlər Təşkilatıdır (BMT). Dünyanın 50 ölkəsinin razılığı ilə yaradılmış BMT-nin Nizamnaməsi Təhlükəsizlik Şürasının beş daimi üzvü, həmçinin onu imzalayan əksər dövlətlər tərəfindən radikasiya edilərək, beynəlxalq təhlükəsizliyin və dövlətlərarası əməkdaşlığın inkişafının təmin edilmişdir. BMT-nin 190-dan çox üzvü vardır. Təşkilata yeni üzvlərin qəbulu Baş Assanbleyanın tövsiyələri əsasında həyata keçirilir.

Təşkilatın əsas məqsədi beynəlxalq təhlükəsizliyin və dövlətlərarası əməkdaşlığın inkişafının təmin edilməsidir. BMT dünyada yeganə təşkilatdır ki, beynəlxalq miqyasda müxtəlif fəaliyyət sahələri ilə bağlı məsələləri araşdırıb qərarlar qəbul etmək səlahiyyətinə malikdir. Bu təşkilatda təmsil olunan dövlətlər səs vermə hüquqlarından istifadə edərək müvafiq qərarlar verir. BMT-nin Nizamnaməsində üzv dövlətlərin hüquq və vəzifələri, təşkilatın fəaliyyət istiqamətləri, eləcədə beynəlxalq münasibətlərin əsas prinsipləri öz əksini tapır.

BMT-nin Nizamnaməsinə müvafiq olaraq təəşkilatın altı əsas orqanı Baş Assambleya Təhlükəsizlik Şurası, iqtisadi və sosial, Şura, Katiblik, Qəyyumluğa Dair Şuravə beynəlxalq Məhkəmə təsis edilmiş-dir. Həmçinin təşkilatın strukturuna müxtəlif sahələrlə məşğul olan 30-dan çox digər təşkilatda daxildir. Bu təşkilatlar BMT-nin əsas orqanları ilə birgə fəaliyyət göstərirlər. Beynəlxalq Əmək Təşkilatı, YUNESKO, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Mülki AvrasiyaTəşkilatı və s. Kimi qurumların BMT-nin konkret sahələr üzrə fəaliyyət proqramlarının hazırlanmasında xüsusi rolu vardır.

BMT-nin Təhlükəsizlik Şurası 15 dövlətdən ibarətdir. Onlardan beşi (ABŞ, Çin, Rusiya, Fransa, Böyük Britaniya) daimi onu isə dəyişən üzvlərdir. Səsvermə məsələsində Şuranın hər bir üzvü bir səsə malikdir. Səsvermə zamanı Şuranın daimi üzvü hansısa qərarın əleyhinə səs verərsə, bu veto vəziyyətinin yaranması deməkdir.

1992-ci il fevralın 14-də Azərbaycanın müraciətini müzakirə edən BMT-nin Təhlükəsizlik Şurası onun bu təşkilata üzv qəbul olunmasına tövsiyə etdi. Beləliklə, BMT Baş Assambleyesının 1992-ci il martın 2-də keçirilən 46-cı sesiyasında Azərbaycan Respublikasının BMT üzvülüyünə daxil olunması barədə qətnamə qəbul edildi. Həmin gün Nyu-Yorkda BMT-nin mənzil qərargahına Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı.

BMT-nin üzvlüyünə qəbul olunması Azərbaycanın dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin qurulmasınıa mühüm təsir göstərək, beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsində əhəmiyyətli rol oynadı. Özünün xarici siyasətində əsas tutan Azərbaycan BMT ilə əməkdaşlığın hər tərəfli şəkildə inkişaf etdirilməsi üçün ardıcıl addımlar atır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Konstitutsiyası Bakı, 2002
2. Azərbaycan Respublikasının Qanunlar Küliyyatı Bkı, 2001
3. A. Əliyev, A.Şəkərəliyev, İ. Dadaşov. Dünya iqtisadiyyatının müasir problemləri. Bakı-2003
4. Abbasov Ç.M. "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları". Bakı, 2005, 252 səh.
5. Ağasəlim Kərim oğlu Ələsgərovun ümumi redaktəsi ilə "Azərbaycanın xarici iqtisadi əlaqələri: nailiyyətlər və perspektivlər"., bakı, 2015. 332 səh.
6. A. Əliyev və başqaları. Dünyaiqtisadiyyatı. Baкı, 2003.
7. A.H. Tağıyev, G.O. KərimovAzad iqtisadi zona. Baкı, 1996.
8. Babaoğlu H. "Dünya siyasəti və beynəlxalq münasibətlər". Dərslik. Bakı, 2010
9. Əliyev A.A., Şəkərəliyev A.Ş. "Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti". Bakı, 2002
10. Əlirzayev Ə.Q. "Azərbaycanın iqtisadi inkişafının konsepsiyası və proqramı". Bakı, 1999.
11. Əhmədov M.A., Hüseyn A.C. "İqtisadiyyatın dövlət tənzimlənməsində rolu". Metodik vəsit, Bakı, 2011. 120 səh.
12. Ələsgərov A.K. "Qloballaşma şəraitində Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı sürətlənir və ölkəmizin dünya təsərrüfat sisteminə inteqrasiya güclənir". "Audit" jurnalı, №4, Bakı, 2008.
13. H.Əliyev irsi Azərbaycanın davamlı inkişaf stratregiyası Bakı, 2006
14. H.Əliyev və Azərbaycan Bakı, 2008 Həsənov Ə.M. "Azərbaycanın geosiyasəti" Dərslik. Bakı, 2015

15. Həsənov Ə.M. “Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ” (1991-1996-cı illər). Bakı, 1998, 331 s.

16. Həsənov Ə.M. “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın ixarici siyasəti”. Dərslik, Bakı, 2005, 752 s.

17. Kərimov C., Hüseynov D., Beynəlxalq iqtisadi münasibətlər. Bакı, 1997.

18. Iqtisadi nəzəriyyə Bакı, 1999.

19. Z.Ə. SəmədzadəDünyaiqtisadiyyatı, Çin «iqtisadi» möcüzəsi. Bакı, 2001.

20. Gəncəli Gənciyev, İmaməddin Mehrəliyev “Ölkəşunaslığın əsasları” Bakı 2001.

21. G.Ə.Gənciyev, Ə.R.Ələkbərov, A.M.Əliyev, N.Ə.Həsənov “Beynəlxalq iqtisadi münasibətlər”, Bakı 2000

22. G.Ə.Gənciyev, Ə.R.Ələkbərov, A.E.Quliyev, Ə.A.Qurbanova “Dünya iqtisadiyyatının tarixi və ölkələrin müasir durumu – Bakı 2013”

23. D. Vəliyev, A. Əsədov.BeynəlxalqIqtisadiyyat. Bакı, 2012.

24. Imanov Q., Həsənli Y. “Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri”. Makroiqtisadi təhlil. Bakı, 2001, 248 səh.

25. Qənbərov Fuad “Xarici iqtisadi əlaqələr və iqtisadi artım”. Bakı, 2012, 448

26. Qafarov Ş.C. “Müasir iqtisadi sistem və qloballşma”. Bakı, 2005, 632 səh.

27. Orucov A., Kərimov C., “Beynəlxalq İqtisadi Münasibətlər”. Bakı, 2008, 462 səh.

28. Səfərov S.İ. “İqtisadi siyasət strategiyası: konseptual əsaslar”. Bakı 2000, 342 səh.

29. Şəkərəliyev A.Ş. “Keçid iqtisadiyyatı və dövlət”. Bakı, 2000.

30. Şəkərəliyev A.Ş. “Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər”. Bakı, 1999.

31. Vəliyev D., Əsədov A. “Beynəlxalq iqtisadiyyat”. Dəsrlik. Bakı, 2012, 400 səh.

32. Ш.ГаджиевАзербайджаннапути к мировому сообшеству: стратегие внешне экономического развитие. Kiev, 2000.

33. Dünyamalı Vəliyev, Beynəlxalq iqtisadiyyat (подредакциейВ.С.Рыбалкие), Моsква, 2000.

34. Международныевалютно-кредитные и финансовые отношение (podredaküiey L.N. Кrasavinoy), Mosкva, finansı i statistiка. 2000.

35. Lindert P.X. Экономика миро хозяственных связ М. 1992.

36. Авдокшин.Е.Ф.Международные экономические отношение М. 1997.